# Nə qədər ki Azərbaycan var, Mən də varam!



RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 262 (10007) 12 dekabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Heydər Əliyev yolu

Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il tariximizə müstəqilliyimizin və dövlətçiliyimizin etibarlı təməllərinin yaradılması, dövrün çağırışları əsasında hüquqi dövlət quruculuğu prosesinin uğurla təmin olunması, respublikamızın iqtisadi tənəzzüldən xilas olaraq inkişaf yoluna çıxarılması, beynəlxalq mövqelərinin möhkəmləndirilməsi dövrü kimi daxil oldu.

Ulu Öndər Azərbaycanın həm də mükəmməl təhlükəsizlik konsepsiyasını formalaşdırdı. Yeni təhlükəsizlik konsepsiyası yalnız ordu quruculuğu və dövlətin təhlükəsizlik orqanlarının yaradılması ilə yekunlaşmadı. Bütün bunlarla bərabər ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, iqtisadi təhlükəsizliyin təmin olunması, mükəmməl enerji siyasətinin həyata keçirilməsi, xarici siyasət kursunda baş verən keyfiyyət dəyişiklikləri Ulu Öndərin müəyyən etdiyi düşünülmüş və əsaslandırılmış təhlükəsizlik strategiyasının ayrı-ayrı elementləri idi.

Əbədiyaşar şəxsiyyətin Azərbaycanın gələcəyi ilə bağlı planları və arzuları böyük idi. Bütün bunlar Ulu Öndərin 2003-cü ilin prezident seçkilərindən əvvəl xalqımıza etdiyi müraciətdə öz əksini tapıb. "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyə Ulu Öndər tarixi müraciətində bildirib.

Ötən 22 ildə Azərbaycanın keçdiyi inkişaf yolu, əldə etdiyimiz möhtəşəm uğurlar həm də Heydər Əliyevin gerçəkləşən arzularının real ifadəsidir. Ulu Öndər Azərbaycanın zirvələrə yüksəlməsini arzulayırdı. Bu gün Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın dünyanın sayılıb-seçilən dövlətləri ilə bir sırada dayanması, tarixinin ən qüdrətli dövlətinə çevrilməsi göstərir ki, respublikamız Ulu Öndərin arzuladığı səviyyəyə yüksəlib. Bu dövrün bütün həqiqətləri, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın əldə etdiyi bütün nailiyyətlər bir daha təsdiq edir ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev nə qədər müdrik şəxsiyyət olub.

Ulu Öndər əmin idi ki, torpaqlarımız işğaldan mütləq azad ediləcək, məcburi köçkünlər doğma evlərinə qayıdacaqlar. Vaxtilə çıxışlarının birində Heydər Əliyev bu barədə demişdi: "Azərbaycan bu vəziyyətdən çıxacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, qaçqınlar öz yerinə-yurduna qayıdacaqlar və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, inkişaf edəcəkdir". 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə, antiterror tədbirləri nəticəsində ərazilərimizdə erməni separatizminə son qoyulması ilə Ulu Öndərin müdrikcəsinə dediyi bu sözlər həyata vəsiqə aldı. Bir vaxtlar doğma yurdlarından köçkün düşmüş soydaşlarımız bu gün doğma yurdlarına qayıdırlar. Şuşada, Xankəndidə, Laçında, Füzulidə, Cəbrayılda, Ağdamda, Zəngilanda, Kəlbəcərdə həyat yenidən canlanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün bunları təmin etməklə, həm də Ulu Öndərin arzularını yerinə yetirdi.

4

# İlham Əliyev Qurbanqulu Berdiməhəmmədovu təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədova zəng edib.

Dövlətimizin başçısı Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə Qurbanqulu Berdiməhəmmədovu təbrik edib və qardaş Türkmənistana uğurlar arzulayıb.

Prezident İlham Əliyev dekabrın 12-də Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin anım gününün keçirildiyini deyərək, Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü ilə bağlı keçirilən tədbirlərdə iştirak edə bilməyəcəyini bildirib, həmin tədbirlərdə Azərbaycanın Baş nazirinin iştirak edəcəyini vurğulayıb.

Bir neçə gün əvvəl Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Türkmənistana səfərinə toxunan dövlətimizin başçısı Azərbaycan nümayəndə heyətinə göstərilmiş diqqət və qonaqpərvərliyə görə minnətdarlığını ifadə edib. Prezident İlham Əliyev Heydər Əliyev Fondu ilə Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə Xeyriyyə Fondu arasında imzalanmış Anlaşma Memorandumunu əməkdaşlığımızın növbəti göstəricisi kimi qiymətləndirib.



Azərbaycan Prezidenti ölkəmizin Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olmasında Türkmənistanın birmənalı və tam dəstəyinə görə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı salamlarını və Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə təbriklərini Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədova çatdırmağı xahiş edib.

Türkmənistan Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədov telefon zənginə və salamlara görə minnətdarlığını bildirib.

Qurbanqulu Berdiməhəmmədov Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı başsağlığını çatdıraraq, onun böyük şəxsiyyət olduğunu və xatirəsini dərin hörmətlə andığını vurğulayıb. Türkmənistan Xalq Məsləhətinin sədri Ümummilli Liderin ölkələrimiz arasında əlaqələrin inkişafında böyük rolunun olduğunu qeyd edib.

O da öz növbəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Türkmənistana səfərini, Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə Xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva ilə görüşünü çox yüksək qiymətləndirərək imzalanmış sənədin böyük əhəmiyyət daşıdığını deyib.

Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı olması münasibətilə təbriklərini çatdıraraq, Türkmənistanın həmişə bu məsələni dəstəklədiyini vurğulayıb.

Telefon söhbəti zamanı qarşılıqlı maraq doğuran məsələlər və gələcək təmaslar barədə fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan BMT-nin iki komissiyasına üzv seçilib



Nyu-York şəhərində BMT-də keçirilmiş seçkilərdə Azərbaycan Respublikası BMT-nin Əhali və İnkişaf Komissiyasının (CPD) 2026-2030-cu illər üzrə və Sosial İnkişaf Komissiyasının (CsocD) 2025-2029-cu illər üzrə üzvlüyünə seçilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, hər iki komissiya BMT-nin iqtisadi və sosial məsələləri üzrə əsas orqanı olan ECOSOC-un funksional komissiyalarıdır. Hazırda ölkəmiz BMT ECOSOC-un 2025-2027-ci illər üzrə üzvləri arasında yer alır.

CPD əhali dinamikasının, demoqrafik dəyişikliklərin, miqrasiya və urbanizasiyanın, eləcə də dayanıqlı inkişafla bağlı beynəlxalq müstəvidə yanaşmaların formalaşdırılmasına məsuldur. CsocD isə sosial siyasət, sosial müdafiə sistemləri, həssas qrupların hüquqları və rifahın artırılması kimi istiqamətlər üzrə fəaliyyətlər aparır.

Qeyd edilən BMT komissiyalarında təmsilçilik ölkəmizin sosial müdafiə islahatları, dövlət xidmətlərinin innovasiyası, yoxsulluğun aradan qaldırılması üzrə uğurları və əhalinin rifahının yüksəldilməsi sahəsindəki prioritetlərinin beynəlxalq müstəvidə təqdim edilməsinə, eləcə də BMT-nin fəaliyyətlərinə töhfə və əməkdaşlıq imkanlarının gücləndirilməsinə təkan verəcək.

# Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri zati-aliləri cənab Qurbanqulu Berdiməhəmmədova

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Əziz Qardaşım!

Əlamətdar tarix - Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə Sizi və qardaş xalqınızı səmimi-qəlbdən təbrik etməkdən böyük məmnunluq duyuram.

Otuz il əvvəl dünya birliyi tərəfindən Türkmənistanın daimi bitərəflik statusunun tanınması ölkənizin dinamik və dayanıqlı inkişafına təkan verən və beynəlxalq aləmdə nüfuzunu gücləndirən mühüm hadisə və böyük tarixi nailiyyət idi.

Türkmənistanın daimi bitərəflik siyasətinin mahiyyəti xalqınızın çoxəsrlik humanizm, sülhsevərlik və mənəvi-əxlaqi fəlsəfəsindən qaynaqlanır. Bu gün Türkmənistanın geniş beynəlxalq əməkdaşlığa yönəlmiş konstruktiv təşəbbüsləri qlobal sülh və təhlükəsizliyin möhkəmləndirilməsi, humanist dəyərlərin təşviqi kimi nəcib məqsədlərə xidmət edir. Eyni zamanda ölkəniz sülhsevər doktrinasını qlobal səhnədə fəal şəkildə təbliğ edərək qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə beynəlxalq dialoqun güclənməsinə töhfə verir.

Azərbaycan qardaş və mehriban qonşu olan Türkmənistanın bitərəflik siyasətinə daim hörmətlə yanaşıb. Təsadüfi deyil ki, Azərbaycan Respublikası həm 1995-ci, həm də 2015-ci illərdə BMT Baş Assambleyasının ölkənizin bitərəflik statusu ilə bağlı müvafiq qətnamələrinin həmmüəllifi olmuşdur.

Azərbaycan ilə Türkmənistan arasında əlaqələrin hazırkı səviyyəsi məmnunluq doğurur. Dövlətlərarası münasibətlərimizin, qardaşlığımızın möhkəmlənməsi istiqamətində şəxsən Sizin davamlı və qətiyyətli səylərinizi xüsusi qeyd etmək istərdim. Fürsətdən istifadə edərək Sizin bu il ərzində Azərbaycana iki səfərinizi, mənim də avqust ayında füsunkar Avazaya səfərimi, Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşlərimizi və söhbətlərimizi ən xoş təəssüratlarla xatırladığımı bildirirəm.

Əminəm ki, Azərbaycan-Türkmənistan qardaşlıq bağlarını daha da möhkəmləndirmək və çoxşaxəli əməkdaşlığımızı yeni mərhələyə yüksəltmək yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Hörmətli Qurbanqulu Məlikquliyeviç, bu bayram günündə bir daha Sizə təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkmənistan xalqına isə daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 dekabr 2025-ci il*

# Türkmənistanın Prezidenti zati-aliləri cənab Sərdar Berdiməhəmmədova

Hörmətli Sərdar Qurbanquliyeviç!

Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə Sizi və qardaş xalqınızı ürəkdən təbrik edirəm.

1995-ci ilin dekabrın 12-də 185 ölkənin yekdil dəstəyi ilə BMT Baş Assambleyası tərəfindən Türkmənistanın daimi bitərəflik statusunu tanıyan qətnamənin qəbul edilməsi ölkənizin tarixinə qızıl hərflərlə həkk olunan əlamətdar hadisə idi. Bitərəflik siyasətini yürüdən ölkəniz ötən dövr ərzində bütün sahələrdə sürətlə inkişaf edərək əhəmiyyətli uğurlara imza atmışdır.

Türkmənistanın bitərəflik statusu sülhsevərlik, dialoq və qarşılıqlı hörmət prinsiplərinə söykənən xalqınızın tarixi irsinə və adət-ənənələrinə əsaslanır. Bu gün Türkmənistanın daimi bitərəflik siyasəti regionda və qlobal səviyyədə sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində vacib rol oynayır.

Biz ölkənizin bitərəflik siyasətinə daim hörmətlə yanaşırıq. Məhz bu səbəbdən Azərbaycan Respublikası həm 1995-ci, həm də 2015-ci illərdə BMT Baş Assambleyasının ölkənizin bitərəflik statusu ilə bağlı müvafiq qətnamələrinin həmmüəllifi olmuşdur.

İnanıram ki, qardaş xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Türkmənistan dövlətlərarası münasibətlərinin xoş ənənələrini yaşatmaq və möhkəmləndirmək, strateji tərəfdaşlığımızı dərinləşdirmək yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, qardaş Türkmənistan xalqına isə daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 dekabr 2025-ci il*

# Baş nazir Əli Əsədov Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib



Baş nazir Əli Əsədov dekabrın 11-də Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, Baş nazir dahi rəhbərin xatirəsini anıb, abidəsi önünə gül dəstəsi qoyub.

# Baş nazir Əli Əsədov Türkmənistana işgüzar səfərə gedib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 11-də Türkmənistana işgüzar səfərə gedib.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Aşqabad Beynəlxalq Aeroportunda Baş nazir Ə.Əsədovu Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini Mammetxan Çakıyev və digər rəsmi şəxslər qarşılayıblar.

# "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, məhkəmə ekspertizası sahəsində dövlət idarəetməsinin və tənzimlənməsinin təkmilləşdirilməsi, habelə bu sahədə fəaliyyətin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasında məhkəmə ekspertizası sahəsinin inkişafına dair 2026-2030-cu illər üçün Konsepsiya" (bundan sonra - Konsepsiya) təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Konsepsiyada nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. Konsepsiyada nəzərdə tutulan tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Konsepsiyada nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 11 dekabr 2025-ci il*

*Sərəncamın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Baş nazir Əli Əsədov Aşqabadda Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb



Aşqabad şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 11-də Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını və Türkmənistanın daimi neytrallığının 30 illiyi münasibətilə təbriklərini bu ölkənin dövlət başçısına çatdırıb.

Sərdar Berdiməhəmmədov Prezident İlham Əliyevin salamlarına və təbriklərinə görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan ilə Türkmənistan arasında siyasi dialoqun yüksək səviyyədə olduğu vurğulanıb, qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

# YAP Mərkəzi Aparatında görüş keçirilib

Dekabrın 11-də Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Meyin təşəbbüsü ilə Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin 4-cü plenumu və Çinin 15-ci beşillik inkişaf proqramına dair məlumatları bölüşmək məqsədilə Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında görüş keçirilib.







Görüşdə partiyanın İdarə Heyətinin, Veteranlar Şurasının və Gənclər Birliyinin üzvləri, Milli Məclisdə Yeni Azərbaycan Partiyasını təmsil edən deputatlar, YAP Mərkəzi Aparatının əməkdaşları və yerli təşkilat sədrləri iştirak ediblər.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının (YAP) Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının (ÇKP) Baş katibi Si Cinpinin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş, qarşılıqlı hörmət və etimada əsaslanan Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin milli maraqlarına və müasir qlobal çağırışlara cavab verdiyini qeyd edib. O, Prezident İlham Əliyevin cari ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"dan irəli gələn iqtisadi-ticari, enerji təhlükəsizliyi, nəqliyyat-logistika, elm və texnologiya, təhsil, mədəniyyət, humanitar və digər sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi istiqamətində ardıcıl fəaliyyətin həyata keçirildiyini və yüksəksəviyyəli dialoqun uğurla davam etdirildiyini vurğulayıb.

YAP Sədrinin müavini Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin müstəsna rolunu qeyd edib. O, 2024-cü ilin noyabr ayında YAP ilə ÇKP-nin Əməkdaşlıq Memorandumu imzalamasının önəmini diqqətə çatdıraraq dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi hakim partiyalar arasında fəal siyasi dialoq şəraitində təmasların intensiv xarakter daşıdığını vurğulayıb, qarşılıqlı səfərlərin münasibətlərin mövcud durumunun dəyərləndirilməsi və əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini qeyd edib.

YAP ilə ÇKP-nin Azərbaycan ilə Çin arasında hərtərəfli strateji tərəfdaşlığı əsas götürərək birgə fəaliyyəti müvəffəqiyyətlə davam etdirmək və yeni uğurlara imza atmaq əzmində olduqlarını bildirən Tahir Budaqov səfir Lu Meyin təşəbbüsü ilə keçirilən görüşün qarşılıqlı fikir və təcrübə mübadiləsinin gücləndirilməsi baxımından son dərəcədə əhəmiyyətli olduğunu qeyd edib.

Səfir Lu Mey Azərbaycanla Çin arasında əlaqələrin bütün sahələr üzrə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğunu bildirib. O, hakim partiyalar arasında imzalanan Əməkdaşlıq Memorandumu çərçivəsində görülən işlərin həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı olmaqla müştərək maraqları təmin etdiyini bildirib.

Daha sonra Lu Mey ÇKP Mərkəzi Komitəsinin 4-cü plenumu və Çinin 15-ci beşillik inkişaf proqramına dair geniş məlumat verib. O bildirib ki, 2026-2030-cu illəri əhatə edəcək strateji plan bərabərlik, sosial ədalət, ictimai rifah, kollektiv inkişaf və güclü dövlətçilik prinsiplərinə əsaslanan Çin xüsusiyyətli sosializm konsepsiyasının mühüm tərkib hissəsi olmaqla ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafına hədəflənib.

Səfir həmçinin Çinin dövlət idarəetməsinin təkmilləşdirilməsi sahəsində yeniliklərdən və partiya quruculuğu təcrübəsindən bəhs edib.

İnteraktiv formada davam edən görüşdə tədbir iştirakçılarının qarşılıqlı maraq doğuran məsələlərə dair sualları cavablandırılıb.

# Baş nazir Əli Əsədov Aşqabadda Gürcüstanın Baş naziri ilə görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkmənistana işgüzar səfəri çərçivəsində dekabrın 11-də Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Gürcüstanın Baş nazirinə çatdırıb.

İ.Kobaxidze Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının ticari-iqtisadi, investisiya, nəqliyyat-tranzit, neft-qaz, "yaşıl enerji", humanitar və digər sahələrdə inkişafından məmnunluq ifadə olunub.

İki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gündəliyində duran aktual məsələlərə xüsusi diqqət yetirilib.

# Macarıstan Prezidenti Azərbaycanın xarici işlər nazirini qəbul edib

Dekabrın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Macarıstana işgüzar səfəri çərçivəsində bu ölkənin Prezidenti Tamaş Şuyok tərəfindən qəbul olunub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZ?RTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan və Macarıstan arasında dostluq, qarşılıqlı hörmət və sıx əməkdaşlığa əsaslanan strateji tərəfdaşlığın inkişafı məmnunluqla qeyd edilib.



Yüksəksəviyyəli qarşılıqlı səfərlərin, daimi siyasi dialoqun, xalqlar arasında təmasların, ölkələrimiz arasında humanitar əlaqələrin vacibliyi vurğulanıb. Bununla yanaşı, sentyabrın 5-də Macarıstanın paytaxtı Budapeşt şəhərində Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın XI iclasının nəticələrinin münasibətlərin inkişafına əlavə təkan verdiyi bildirilib.

Görüşdə Macarıstanın xüsusilə enerji sahəsi olmaqla, ölkəmizdə 3-cü böyük investor olduğu qeyd edilib, bununla yanaşı, əczaçılıq və bir sıra digər istiqamətlərdə sərmayə planları nəzərdən keçirilib. Hava nəqliyyatı sahəsində əməkdaşlığın inkişafından məmnunluq qeyd edilib, "yaşıl enerji", tranzit-kommunikasiya, təhsil təqaüdlərinin verilməsi və digər istiqamətlərdə işlərin əhəmiyyəti diqqətə çatdırılıb.

Bu və digər məsələlərin müfəssəl şəkildə 3-cü Azərbaycan-Macarıstan Strateji Dialoqu çərçivəsində müzakirə ediləcəyinə dair əminlik ifadə olunub.

Beynəlxalq platformalar - BMT, Türk Dövlətləri Təşkilatı, Avropa İnstitutları çərçivəsində qarşılıqlı etimada və dəstəyə əsaslanan əməkdaşlığın daha da gücləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər müzakirə olunub.

# WUF13-ün təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin növbəti iclası keçirilib

Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin dekabrın 11-də növbəti iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, Prezident İlham Əliyevin təsdiq etdiyi Azərbaycanın milli inkişaf strategiyasında şəhərsalma fəaliyyətinin prioritet istiqamətlərdən biri olduğunu deyib. Ölkəmizdə bu sahədə formalaşdırılmış müasir yanaşmaların iqtisadi dayanıqlılığın möhkəmləndirilməsinə, sosial rifahın artırılmasına və iqlim dəyişikliklərinə səmərəli uyğunlaşmanın təmin olunmasına xidmət etdiyini söyləyib.

Samir Nuriyev son beş il ərzində xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin Azərbaycan dövlətinin şəhərsalma sahəsində strateji baxışını, sistemli planlaşdırma prinsiplərini rəhbər tutduğunu və yüksək icra potensialını aydın şəkildə nümayiş etdirdiyini vurğulayıb. Azərbaycanın postmünaqişə dövründə tətbiq edilən sürətli bərpa və quruculuq işlərinin yeni inkişaf modelini formalaşdırdığını deyib.



Təşkilat Komitəsinin sədri bu nailiyyətlərin Azərbaycanın təcrübəsinə beynəlxalq səviyyədə də marağı artırdığını, ölkəmizi bu sahədə etibarlı tərəfdaş kimi tanıtdığını qeyd edib. O, WUF13-ün 2026-cı ildə Bakı şəhərində keçirilməsinin Azərbaycanın beynəlxalq şəhərsalma proseslərinə verdiyi töhfənin, dayanıqlı inkişaf istiqamətində həyata keçirdiyi siyasətin və etibarlı tərəfdaş kimi qazandığı yüksək etimadın bariz göstəricisi olduğunu söyləyib.



Samir Nuriyev WUF13-ə hazırlığın dövlətimizin başçısının birbaşa diqqət mərkəzində olduğunu vurğulayaraq, ilk iclasdan ötən müddətdə bu tədbirə hazırlıq çərçivəsində görülmüş işləri qeyd edib. Daha sonra ümumi hazırlıq prosesinin gedişatı, substantiv, kommunikasiya, təşkilati-logistika sahələrində görülmüş işlər və gündəlikdə duran digər məsələlər üzrə Təşkilat Komitəsinin üzvlərinin məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidentinin bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi ilə əlaqədar qarşıya qoyduğu vəzifəyə uyğun olaraq WUF13-ə hazırlıq prosesi, o cümlədən Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verib.

# Baş Prokurorluqda Ulu Öndərin anım günü qeyd edilib

Dekabrın 11-də Baş Prokurorluqda müstəqil və müasir Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbiri keçirilib.

Əvvəlcə Baş Prokurorluğun rəhbərliyi Ümummilli Liderin büstünü ziyarət edərək, önünə gül dəstələri qoyub, dünyaşöhrətli siyasi xadimin əziz xatirəsini ehtiramla yad edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Ulu Öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla anılıb, Dövlət himni səsləndirilib.






Ulu Öndərin müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında oynadığı tarixi rol, onun siyasi uzaqgörənliyi və yaratdığı möhkəm idarəçilik ənənələri xatırlanıb.

Tədbirdə çıxış edən baş prokuror Kamran Əliyev bildirib ki, 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğundakı misilsiz xidmətlərinin məntiqi davamı olmaqla, onun dövlətçilik irsinə dərin ehtiramın göstəricisidir. Ulu Öndərin həm sovet dövründə respublikamızı böyük inkişaf yoluna çıxarmasının, həm 20 Yanvar faciəsi zamanı xalqın hüquqlarını cəsarətlə müdafiə etməsinin, həm də 1993-cü ildə ölkəyə rəhbərliyə qayıdaraq siyasi xaosu aradan qaldırmasının müasir Azərbaycanın taleyində həlledici rol oynadığı vurğulanıb. Qeyd olunub ki, müdrik siyasətçi və dövlət xadiminin rəhbərliyi ilə əldə edilən 1994-cü il atəşkəsi, "Əsrin müqaviləsi"nin imzalanması, qlobal enerji və infrastruktur layihələrinin həyata keçirilməsi, eləcə də hüquq sistemində aparılan islahatlar Azərbaycanın dayanıqlı və güclü dövlətə çevrilməsi üçün möhkəm baza yaradıb.

Baş prokuror vurğulayıb ki, Azərbaycanın 1995-ci ildə qəbul edilmiş Konstitusiyasının hazırlanması və qəbul olunması Ümummilli Lider Heydər Əliyevin tarixi dövlətçilik xidmətlərinin ən mühüm mərhələlərindən biridir. Ulu Öndərin rəhbərliyi ilə formalaşdırılmış bu əsas qanun müstəqil dövlətçiliyimizin siyasi-hüquqi sütununu yaradaraq demokratik idarəetmə modelinin, insan hüquq və azadlıqlarının təminatının, habelə hakimiyyət qolları arasında tarazlığın hüquqi çərçivəsini müəyyən edib. Bu gün ölkədə hüququn aliliyinin təmin olunması və institusional islahatların uğurla həyata keçirilməsi məhz Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu Konstitusiyanın verdiyi möhkəm hüquqi baza üzərində qurulub.

Diqqətə çatdırılıb ki, dahi Liderin dövlətçilik fəlsəfəsi bu gün Prezident İlham Əliyev tərəfindən Birinci vitse-prezident Mehriban Əliyevanın da yaxından iştirakı ilə yeni mərhələdə uğurla davam etdirilir. Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Qələbə, azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq prosesi və dövlətimizin beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə artması məhz Ulu Öndərin müəyyən etdiyi strateji kursun məntiqi nəticəsidir. Tədbirdə belə bir fikir ifadə edilib ki, Heydər Əliyev irsi prokurorluq orqanlarının fəaliyyətində daim əsas istiqamət kimi rəhbər tutulur və hüququn aliliyinin təmin olunması sahəsində ardıcıl işlər həyata keçirilir.

Anım rədbirində Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi Sahib İsmayılov "Ümummilli Liderin konstitusiya quruculuğu irsi, müstəqil və suveren Azərbaycan modeli" mövzusunda çıxış edib.

Tədbirin yekununda "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC tərəfindən hazırlanmış və Ümummilli Liderin xatirəsinə həsr olunmuş "Xalqın Adamı: Xalqını zülmətdən işığa çıxaran böyük xilaskar" sənədli filminə baxılıb.

# Strasburqda "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş tədbir maraqla qarşılanıb

Azərbaycan Respublikasının Avropa Şurası yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı ilə Strasburq Universitetində "Konstitusiya və Suverenlik İli" münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Strasburq Universitetində təhsil alan azərbaycanlı tələbələr və məzunlar, habelə Azərbaycan icmasının təmsilçiləri iştirak ediblər.

Tədbirdə açılış sözü ilə çıxış edən ölkəmizin Avropa Şurası yanında daimi nümayəndəsi, səfir Fəxrəddin İsmayilov Ümummilli Lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanıb, qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyasının dövlət qurucuğumuzda daşıdığı müstəsna əhəmiyyət barədə danışıb. Konstitusiyamızın preambulasında Azərbaycanın dövlət müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunmasının başlıca niyyətlərdən biri kimi bəyan olunduğunu xatırladıb.

Səfir bildirib ki, Vətən müharibəsində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qazandığı tarixi qələbə, eləcə də 2023-cü il 19-20 sentyabr tarixlərində həyata keçirilmiş uğurlu antiterror əməliyyatı məhz bu niyyətin gerçəkləşməsinə xidmət edib.

Daha sonra iştirakçılar qarşısında əsas natiq qismində çıxış edən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi, professor Lətif Hüseynov Konstitusiya layihəsinin tərtibinə vaxtilə cəlb edilmiş ekspertlərdən ibarət işçi qrupunun üzvü kimi bu tarixi prosesdən bəhs edib və Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycanın ilk Konstitusiyasını dövrümüzün ən mütərəqqi hüquqi sənədlərindən biri kimi xarakterizə edib. L.Hüseynov Konstitusiyanın bir sıra mühüm müddəaları üzərində ayrıca dayanaraq, tədbir iştirakçıları ilə interaktiv şəkildə onların məqsəd və məramları barədə düşüncələrini bölüşüb.

Tədbir zamanı təqdim edilən məlumat və şərhlər iştirakçılar tərəfindən böyük diqqət və maraqla qarşılanıb.

# Əməkdaşlığın genişləndirilməsi müzakirə olunub

Azərbaycanın Keniyadakı səfiri Sultan Hacıyev bu ölkənin Baş naziri, eyni zamanda xarici və diaspor işləri naziri Musalia Mudavadi ilə görüşüb.

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında münasibətlərin cari ildəki inkişaf dinamikasından razılıq ifadə edilib və il ərzində baş tutan yüksəksəviyyəli səfərlərin müxtəlif sahələrdə əməkdaşlığın gücləndirilməsinə mühüm töhfə olduğu vurğulanıb.

Baş nazir M.Mudavadi sentyabrın 23-də BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında Prezident İlham Əliyev ilə Prezident Uilyam Samoei Ruto arasında keçirilən görüşün və liderlər arasında səmimi münasibətlərin iki ölkənin mənafeyinə xidmət etdiyini bildirib. O, Xarici İşlər nazirlikləri arasında keçirilən ilk siyasi məsləhətləşmələrin və xarici işlər naziri Ceyhun Bayramovun Keniyaya rəsmi səfərinin ikitərəfli əlaqələrdə mühüm mərhələ olduğunu vurğulayıb.

Mövcud əməkdaşlığın genişləndirilməsi üçün imkanlardan maksimum bəhrələnməyin vacibliyindən danışan səfir Sultan Hacıyev cari ildə enerji, texnologiya, məhkəmə-hüquq, parlamentlərarası əlaqələr, penitensiar xidmət və təhsil sahələrində əldə olunan nəticələri diqqətə çatdırıb. Deyib ki, Azərbaycanın "ADA" Universiteti ilə Keniyanın Xarici Xidmət Akademiyası arasında imzalanan Anlaşma Memorandumu iki ölkənin diplomatik orqanları arasında tərəfdaşlığın genişləndirilməsi üçün yeni imkanlar yaradır.

Səfir həmsöhbətini həmçinin 2026-cı il mayın 17-22-də Bakıda keçiriləcək WUF13-ün hazırlıq prosesi, təşəbbüslər, planlaşdırılan tədbirlər barədə məlumatlandırıb. Forum tarixində ilk dəfə dövlət və hökumət başçılarının iştirakı ilə Zirvə Görüşünün keçiriləcəyi xüsusi vurğulanıb. Qeyd olunub ki, şəhərsalma sahəsində qlobal lider kimi qəbul edilən Azərbaycan və Keniya dayanıqlı şəhərsalma və iqlim məsələlərində əməkdaşlığı gücləndirəcək, COP-la WUF platformaları arasında əlaqələrin genişləndirilməsi üçün WUF13 mühüm imkan yaradacaq.

Görüşdə "Heydər Əliyev adına Beynəlxalq Təhsil Qrantı" proqramı çərçivəsində keniyalı gənclərə verilən təqaüdlərin, Heydər Əliyev Fondunun və Azərbaycanın Beynəlxalq İnkişafa Yardım Agentliyinin Keniyadakı məktəb və xəstəxanalara göstərdiyi humanitar yardımların iki xalq arasında dostluq münasibətlərinin möhkəmlənməsinə əhəmiyyətli töhfə verdiyi bildirilib.

# Azərbaycan Mühəndislik Akademiyası - 20 il

Azərbaycan Mühəndislik Akademiyasının (AMA) yaranmasının 20 illik yubileyi ilə əlaqədar bir sıra tədbirlər keçirilib, o cümlədən akademiyanın elmi orqanı olan "Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri" beynəlxalq elmi-texniki jurnalı yubileyə həsr olunub. Yubiley ilə əlaqədar bir neçə xarici ölkədən akademiyanın prezidenti akademik Arif Paşayevin ünvanına təbriklər daxil olub.



AMA-dan AZƏRTAC-a bildirilib ki, akademiyanın prezidenti akademik Arif Paşayev ölkəmizdə mühəndislik peşəsində çalışanlara və gələcək mühəndislərə yubiley münasibətilə təbrik ünvanlayıb. Təbrikdə deyilir: "Hörmətli akademiyanın üzvləri, əməkdaşları, gənc mühəndislər və elmi ictimaiyyətin dəyərli nümayəndələri!

2025-ci noyabrın 30-u hər birimiz üçün əlamətdar və qürurverici bir tarixdir - Azərbaycan Mühəndislik Akademiyasının təsis edilməsinin 20 ili tamam oldu. Gənc təşkilat olmasına baxmayaraq, Bakının xam neftin kəşfiyyatında mühüm rolu sayəsində XX əsrin əvvəllərini formalaşdırılan neft və qaz sənayesində böyük mühəndislik yeniliklərini çiyinlərində daşıyır. Azərbaycan Mühəndislik Akademiyası yarandığı gündən ölkə iqtisadiyyatının inkişafı üçün mühüm əhəmiyyət kəsb edən bir sıra layihələrin həyata keçirilməsində fəal iştirak edərək cəmiyyətdə öz layiqli yerini tutub. Qeyd edim ki, AMA-nın formalaşması və inkişafı ilk gündən tarixi köklərimiz, strateji düşüncə, peşəkarlıq və yüksək vətənpərvərlik ruhu üzərində qurulub.

İnkişaf etmiş cəmiyyətlərin sütunlarından biri olan mühəndislik bəşər tarixinin ən qədim dövrlərindən etibarən insanların həyatını asanlaşdırmaq, təhlükəsizliyini təmin etmək və yeni imkanlar yaratmaq məqsədilə meydana çıxıb. Hər bir xalqın və coğrafiyanın texniki düşüncəyə, yaradıcılığa və innovasiyaya verdiyi töhfələr həmin xalqın mədəni və intellektual irsinin ayrılmaz tərkib hissəsidir. Bu baxımdan Azərbaycan mühəndislik tarixi də həm qədimlik, həm də zənginlik baxımından diqqətəlayiq nümunələrdən biridir.



Hazırda Azərbaycan Mühəndislik Akademiyasının həqiqi və müxbir üzvlərinin sayı 36 nəfərdir ki, bunlardan da 21 nəfəri həqiqi üzv (akademik), 15 nəfəri müxbir üzv, 1 nəfəri akademiyanın fəxri üzvü və 4 nəfər isə akademiyanın əcnəbi üzvüdür. Akademiyanın üzvləri istər neft və qaz sənayesində, istər aviasiya, istər tikinti və nəqliyyat sahəsində, istərsə də müasir informasiya texnologiyalarında və enerji və energetika sahəsində tətbiq olunan mühəndislik yeniliklərində əhəmiyyətli töhfələr veriblər. Azərbaycan iqtisadiyyatının mühəndislik dayaqlarının möhkəmləndirilməsi məhz sizin əzmkarlığınız və intellektual zəhmətiniz sayəsində mümkün olub.

Azərbaycan Mühəndislik Akademiyası ötən 20 il ərzində ölkəmizdə mühəndislik elminin inkişafında və texniki təfəkkürün formalaşmasında mühüm rol oynayıb. Bu illər ərzində akademiya mühəndislik sahəsində elmi araşdırmaların mərkəzinə çevrilib, yerli və beynəlxalq elmi-texniki dairələrlə səmərəli əməkdaşlıq qurub.

Onlarla monoqrafiyalar, kitablar, dərsliklər, dərs vəsaitləri, elmi məqalələr dərc edilib, simpoziumlar, konfranslar, seminarlar, "dəyirmi masa"lar keçirilib.

Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən elmi-texniki siyasət və sənayeləşmə strategiyası çərçivəsində AMA-nın rolu və məsuliyyəti daha da artıb. Bu baxımdan akademiyanın üzərinə düşən vəzifələr, xüsusilə yeni texnologiyaların tətbiqi, elmi yeniliklərin istehsalata inteqrasiyası və gənc mütəxəssislərin elmə cəlb olunması olduqca vacibdir.

Azərbaycan Mühəndislik Akademiyasının UNESCO-nun nəzdindəki Ümumdünya Mühəndislik Təşkilatları Federasiyası (WFEO), Beynəlxalq Mühəndislik Akademiyası və İslam Ölkələri Mühəndislik İnstitutları Federasiyası ilə əməkdaşlığı sayəsində akademiyanın nailiyyətləri daha da artıb, gələcəkdə müxtəlif ölkələrlə beynəlxalq əməkdaşlıq inkişaf edəcək, akademiyanın hüdudları digər akademiyalarla genişlənəcək, mühəndislik ideyalarının dünya birliyinə inteqrasiyası sürətlənəcək.

WFEO - Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən elm və texnika sahəsində aparıcı qeyri-hökumət təşkilatı kimi tanınan mühəndisliyin beynəlxalq səsidir. O, elm və mühəndislik sahəsində əsas qlobal problemləri həll etmək üçün, xüsusilə mühəndislik peşəsi vasitəsilə BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə kömək üçün UNESCO da daxil olmaqla BMT-nin orqanları ilə sıx əməkdaşlıq edir.

Akademiyanın strukturunda yaradılmış yeni departamentlər və şöbələr akademiyanın üzvləri tərəfindən fəaliyyət göstərir və bütün bunlar aparıcı alimlər, mühəndislər və tədqiqatçılar üçün öz elmi nailiyyətlərini bölüşmək, aktiv müzakirələr aparmaq və texniki proqramlar hazırlamaq üçün ən yaxşı bir platformadır.



Əminəm ki, Azərbaycan Mühəndislik Akademiyası və onun elmi-texniki orqanı olan "Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri" jurnalı bundan sonra da respublikamızın mühəndis-texniki potensialının inkişafı naminə öz fəaliyyətini uğurla davam etdirəcək, innovasiyaların tətbiqinə, elmi tədqiqatların nəticələrinin real sektora ötürülməsinə xidmət edəcək.

Əziz həmkarlar!

20 illik yubiley münasibətilə sizə bir daha ən səmimi təbriklərimi çatdırır, hər birinizə möhkəm cansağlığı, elmi fəaliyyətinizdə uğurlar, mühəndislik elminin inkişafında yeni nailiyyətlər arzulayıram.

Azərbaycan mühəndisliyinin sabahı sizin əlinizdədir və bu sabahın parlaq olacağına inamımız sonsuzdur!"

Qeyd edək ki, akademiyanın fəaliyyətində və inkişafında, müasir düşüncəli gənc mühəndis kadrların hazırlanmasında fərqlənən AMA üzvləri və əməkdaşları, eləcə də akademiya ilə səmərəli əməkdaşlıq edən təşkilatların bir sıra mütəxəssislərinin xidmətlərini qiymətləndirmək məqsədilə onlar müxtəlif nominasiyalarla döş nişanı ilə təltif olunublar.

Bundan əlavə, Mühəndislik Akademiyasına üzvlüyə seçkilər keçirilib və yeni həqiqi üzvlər (akademiklər) və müxbir üzvlər seçilib.

## Azərbaycanın özü qədər əbədi

# Heydər Əliyev yolu



**Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfat etməsindən 22 il ötür. Lakin Ulu Öndər xalqımızın qəlbində yaşayır və əbədi olaraq da yaşayacaqdır. Bu 22 ildə Prezident İlham Əliyevin liderliyi ilə respublikamızın keçdiyi əzəmətli inkişaf yolu, əldə olunan uğurlar, qazanılan tarixi zəfərlər göstərir ki, Heydər Əliyevin ideyaları davam edir.**

XX əsrin ikinci yarısı Azərbaycan tarixində çoxsaylı hadisənin yaşandığı mühüm siyasi-iqtisadi mərhələdir. Bu dövrdə inkişaf da baş verib, tənəzzül də yaşanıb. Ermənilər torpaqlarımıza qarşı açıq şəkildə növbəti hərbi təcavüzə bu mərhələdə başlayıblar. XX əsrin sonlarına doğru xalqımız tariximizin ən böyük faciələri ilə üzləşib. Bu mərhələdə həmçinin xalqımız müasir tarixinin ən böyük siyasi hadisələrdən biri olan dövlət müstəqilliyini bərpa edib.

Amma XX əsrin ikinci yarısını əhatə edən tariximizi təhlil və ya başqa cür desək, təftiş etsək görərik ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün illər tariximizə inkişaf, quruculuq və rifah illəri kimi həkk olunub. Dahi insanın Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə fəaliyyətinin başlıca qayəsini Vətənini daha gözəl görmək, xalqının rifahını yüksəltmək olub. Hələ sovet illərində Heydər Əliyev Azərbaycanı keçmiş ittifaq üzvləri arasında iqtisadi və sosial göstəricilərinə görə qabaqcıllar sırasına çıxarıb, aqrar respublikadan sənaye respublikasına çevirib. Ulu Öndərin qətiyyəti sayəsində o illərdə xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində cəsarətli addımlar atılıb. Sovet ideologiyasının hakim olduğu, milli təəssübkeşliyin mümkün olmadığı, süngü-bıçaqla qarşılandığı bir şəraitdə bunu yalnız Heydər Əliyev kimi nəhəng şəxsiyyətlər edə bilərdilər. Heydər Əliyev əsərlərində milli təəssübkeşliyi və müstəqillik ideyalarını təbliğ edən ziyalılarımızı qorumuş, Azərbaycan dilinə konstitusion hüquq verilməsinə nail olmuşdu. Məhz Heydər Əliyevin qətiyyəti sayəsində o illərdə Ermənistanın Azərbaycana qarşı bütün ərazi iddialarının qarşısı alınmışdı. Qarabağın Ermənistana birləşdirilməsi üçün Kremlə edilən bütün müraciətlər cavabsız qalmışdı. Ümumilikdə, Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirdiyi bütün tədbirlər gələcək müstəqilliyimizin iqtisadi əsaslarının formalaşdırılmasını təmin etmişdi.

Təəssüflə qeyd etməliyik ki, Azərbaycana 1980-ci illərdə rəhbərlik edənlər Heydər Əliyevin həyata keçirdiyi qətiyyətli siyasəti davam etdirə bilmədilər. Məhz onların qətiyyətsizliyi və mütiliyi nəticəsində torpaqlarımıza qəsd edildi, 20 Yanvar faciəsi baş verdi. Azərbaycan ən böyük təbəddülatlarla, çətinliklərlə xalqımızın dahi oğlunun siyasi rəhbərlikdə təmsil olunmadığı illərdə üzləşdi.

Cəmiyyətdə yüksək siyasi-ictimai nüfuza malik olan Heydər Əliyev siyasi hakimiyyətdə olmadığı dövrdə də xalqının yanında idi. Sovet rəhbərliyini qorxudan da bu amillər idi və Ulu Öndərə qarşı müxtəlif təzyiqlər məhz bundan irəli gəlirdi. Təsadüfi deyil ki, Heydər Əliyevin 20 Yanvar hadisələrindən bir gün sonra Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək verdiyi cəsarətli bəyanat bütün sovet rəhbərliyini silkələmiş, faciə ilə bağlı əsl həqiqətlərin sürətlə beynəlxalq ictimaiyyətə yayılmasına böyük təsir göstərmişdi.

Xüsusilə qeyd edilməlidir ki, Heydər Əliyevin yüksək siyasi-ictimai nüfuzu o dövrdə xalqımızın milli müstəqillik mübarizəsinin genişlənməsinə və böyüməsinə əhəmiyyətli dərəcədə təsirini göstərmişdi. Bunu Ulu Öndərin fəaliyyətinin Naxçıvan dövründə aydın görmək mümkündür. 1990-cı ilin iyul ayında Azərbaycana qayıdan və daha sonra Naxçıvana gələn Heydər Əliyevə xalqın ehtiramı və sevgisi o qədər böyük idi ki, elə həmin ərəfədə Azərbaycan Ali Sovetinə və Naxçıvan Ali Məclisinə keçirilən seçkilərdə yerli ictimaiyyət tərəfindən Ulu Öndərin namizədliyi irəli sürülmüşdü. Məhz Heydər Əliyevin təşəbbüsləri ilə 1990-cı ilin noyabr ayında Naxçıvan Ali Məclisi tərəfindən ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının Naxçıvan Muxtar Respublikasının bayrağı kimi təsbit olunması, sovet atributlarından imtina edilməsi, muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, o cümlədən sovet dövlətinin saxlanılmasına xidmət edən və ümumittifaq miqyasında keçirilən referendumun Naxçıvanda boykot edilməsi sıradan siyasi hadisələr deyildi. Bu, hələ mövcud olan, repressiv fəaliyyəti davam edən sovet dövlətinə meydan oxumaq idi. Bunu da bir daha qeyd edirəm, Heydər Əliyev kimi nəhəng və cəsarətli siyasətçilər edə bilərdilər.

Heydər Əliyev respublikamızın müstəqilliyi uğrunda siyasi mübarizəsini həm də Azərbaycan Ali Sovetində aparırdı. Əlbəttə, Heydər Əliyevin siyasi cəsarəti həmin dövrdə Azərbaycanın azadlığı uğrunda aparılan prosesdə iştirak edən bütün insanlar üçün böyük şəxsi nümunə idi. Heydər Əliyev qorxmazlığı həmin insanları müstəqillik uğrunda daha da mübariz etmişdi. Ümumilikdə isə Heydər Əliyevin təşəbbüsləri ilə Naxçıvanda qəbul edilən bütün qərarlar, Ulu Öndərin Ali Sovetdəki çıxışları milli azadlıq mübarizəsini tamamilə yeni keyfiyyət mərhələsinə yüksəltmişdi. Hansı ki, həmin vaxta qədər Azərbaycanda rəsmi səviyyədə buna bənzər hər hansı bir addım atılmamışdı.

Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Ulu Öndərin Naxçıvandakı siyasi fəaliyyətində yeni mərhələnin başlanğıcı oldu. Ümumiyyətlə, Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü Azərbaycanın müasir dövlətçilik tarixinin olduqca mühüm səhifələridir. Azərbaycanın müstəqilliyinə aparan yolun bir çox vacib siyasi hadisələri məhz Naxçıvanda yaşanıb. Müstəqilliyimizin ilk illərində yaşanan ağır və gərgin siyasi-hərbi proseslərin fonunda bugünkü güclü Azərbaycanın siyasi-ideoloji təməlləri də məhz Heydər Əliyevin liderliyi ilə Naxçıvanda yaradılıb. 1992-ci ilin noyabr ayında Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsis olunması Azərbaycan ictimaiyyətinin Heydər Əliyev yoluna olan dərin inamının təcəssümü idi.

Bu baxımdan, Ulu Öndər Heydər Əliyevin fəaliyyətinin 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövrü dövlətçilik və müstəqillik tariximizin hər zaman xüsusi tədqiq və təbliğ olunmalı bir mərhələsidir. Hansı ki, bu mərhələ Heydər Əliyevin liderliyi ilə həm müstəqilliyimizin bərpası, həm Naxçıvanın işğaldan qorunması, həm də bərpa olunan müstəqilliyimizin xilası istiqamətində çox mühüm siyasi qərarların qəbulu ilə əlamətdardır.

Heydər Əliyev siyasi fəaliyyətinin növbəti missiyaları 1993-cü ildə respublikada siyasi rəhbərliyə gəlməklə müstəqilliyimizi qorumaq və müasir Azərbaycan dövlətini yaratmaq oldu. Artıq 1993-cü ilin ortalarına doğru Azərbaycan elə bir həddə gəlib çatmışdı ki, həmin vəziyyətdən ölkəni çıxarmaq hər siyasətçinin işi deyildi. Ona görə cəmiyyətimizdə bütün siyasi qütblərin diqqəti Naxçıvana, Heydər Əliyevə yönəlmişdi. Çünki hər kəs əmin idi ki, hələ sovet illərində respublikamızı intibah yoluna çıxaran, sonrakı dövrdə müstəqillik mübarizəmizə öndərlik edən, Naxçıvanın Ermənistan tərəfindən işğal olunmasının qarşısını alan Heydər Əliyev şəxsiyyəti ölkəni düşdüyü ağır siyasi və iqtisadi böhranlardan xilas edə bilər. Respublikamızın problemləri isə yalnız siyasi-iqtisadi böhranlardan ibarət deyildi. Ən təhlükəlisi Azərbaycanın çox böyük hərbi təhdidlə, işğal və separatizmlə üz-üzə qalması idi. Azərbaycanın həmin təbəddülatlı günlərini bu günün zirvəsindən təhlil və təftiş edəndə Heydər Əliyevin nə qədər dahi bir şəxsiyyət olduğu gözlərimizin önündə canlanır. Hətta həyatını riskə atsa belə, dahi lider xilas missiyasını qətiyyətlə yerinə yetirdi və göstərdi ki, dövlətimizin var olması onun siyasi fəaliyyətinin ən müqəddəs amalıdır.

1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri, həmin ilin oktyabrın 3-də isə ölkə Prezidenti seçilən Heydər Əliyev qarşıda dayanan strateji vəzifələri böyük uzaqgörənliklə müəyyən edərək, ardıcıllıqla həyata keçirdi. Ölkədə vətəndaş qarşıdurmasına və hərbi böhrana son qoyuldu. Heydər Əliyevin vahid komandanlığa əsaslanmaqla yenidən qurduğu Azərbaycan Ordusu Ermənistanın güclənən hücumlarının qarşısını aldı, cəbhənin bir neçə istiqamətində torpaqlarımız işğaldan azad olundu. Ulu Öndər həmçinin hakimiyyətə silahlı çevriliş yolu ilə gəlmək kimi antikonstitusion hərəkətlərə son qoydu. Beləliklə, fenomenal siyasi təcrübəsi, yenilməz qətiyyəti və strateji hədəflərə hesablanmış siyasi gedişləri ilə respublikamız böhranlardan uzaqlaşdı, ağır sınaqlardan alnıaçıq çıxdı.

Bütün bunları qətiyyətlə təmin edən Heydər Əliyev dövlət quruculuğu prosesini başlatdı, hüquqi, siyasi, iqtisadi və aqrar islahatlar həyata keçirdi. Dahi şəxsiyyət müasir, hüquqi və dünyəvi Azərbaycan dövlətini yaratdı, öz əməlləri ilə xalqımızın Ümummilli Liderinə çevrildi. Ulu Öndərin "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir" sözləri real həyatda öz təcəssümünü tapdı.

Bütövlükdə, Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il tariximizə müstəqilliyimizin və dövlətçiliyimizin etibarlı təməllərinin yaradılması, dövrün çağırışları əsasında hüquqi dövlət quruculuğu prosesinin uğurla təmin olunması, respublikamızın iqtisadi tənəzzüldən xilas olaraq inkişaf yoluna çıxarılması, beynəlxalq mövqelərinin möhkəmləndirilməsi dövrü kimi daxil oldu.

Ulu Öndər Azərbaycanın həm də mükəmməl təhlükəsizlik konsepsiyasını formalaşdırdı. Yeni təhlükəsizlik konsepsiyası yalnız ordu quruculuğu və dövlətin təhlükəsizlik orqanlarının yaradılması ilə yekunlaşmadı. Bütün bunlarla bərabər ölkədə ictimai-siyasi sabitliyin bərqərar edilməsi, iqtisadi təhlükəsizliyin təmin olunması, mükəmməl enerji siyasətinin həyata keçirilməsi, xarici siyasət kursunda baş verən keyfiyyət dəyişiklikləri Ulu Öndərin müəyyən etdiyi düşünülmüş və əsaslandırılmış təhlükəsizlik strategiyasının ayrı-ayrı elementləri idi.

Əbədiyaşar şəxsiyyətin Azərbaycanın gələcəyi ilə bağlı planları və arzuları böyük idi. Bütün bunlar Ulu Öndərin 2003-cü ilin prezident seçkilərindən əvvəl xalqımıza etdiyi müraciətdə öz əksini tapıb. "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyə Ulu Öndər tarixi müraciətində bildirib.

Ötən 22 ildə Azərbaycanın keçdiyi inkişaf yolu, əldə etdiyimiz möhtəşəm uğurlar həm də Heydər Əliyevin gerçəkləşən arzularının real ifadəsidir. Ulu Öndər Azərbaycanın zirvələrə yüksəlməsini arzulayırdı. Bu gün Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycanın dünyanın sayılıb-seçilən dövlətləri ilə bir sırada dayanması, tarixinin ən qüdrətli dövlətinə çevrilməsi göstərir ki, respublikamız Ulu Öndərin arzuladığı səviyyəyə yüksəlib. Bu dövrün bütün həqiqətləri, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın əldə etdiyi bütün nailiyyətlər bir daha təsdiq edir ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev nə qədər müdrik şəxsiyyət olub.

Ulu Öndər əmin idi ki, torpaqlarımız işğaldan mütləq azad ediləcək, məcburi köçkünlər doğma evlərinə qayıdacaqlar. Vaxtilə çıxışlarının birində Heydər Əliyev bu barədə demişdi: "Azərbaycan bu vəziyyətdən çıxacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, qaçqınlar öz yerinə-yurduna qayıdacaqlar və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, inkişaf edəcəkdir". 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi ilə, antiterror tədbirləri nəticəsində ərazilərimizdə erməni separatizminə son qoyulması ilə Ulu Öndərin müdrikcəsinə dediyi bu sözlər həyata vəsiqə aldı. Bir vaxtlar doğma yurdlarından köçkün düşmüş soydaşlarımız bu gün doğma yurdlarına qayıdırlar. Şuşada, Xankəndidə, Laçında, Füzulidə, Cəbrayılda, Ağdamda, Zəngilanda, Kəlbəcərdə həyat yenidən canlanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün bunları təmin etməklə, həm də Ulu Öndərin arzularını yerinə yetirdi.

*Azərbaycan müasir tarixinin dahi şəxsiyyəti, bütün siyasi dövrlərdə dövlətimizin və xalqımızın yüksəlişi və güclənməsi yolunda misilsiz işlər görmüş Heydər Əliyev hər bir azərbaycanlı üçün unudulmaz insandır. Vəfatının 22-ci ildönümündə bir daha Ulu Öndərin dövlətimiz və xalqımız qarşısındakı xidmətlərinə nəzər yetirməklə, xatirəsini böyük ehtiram hissi ilə yad edirik. Azərbaycan Heydər Əliyev yolu ilə inamla irəliləyəcək. Çünki Heydər Əliyev yolu xalqımızın inkişaf və rifah yoludur. Ulu Öndərin əbədiyaşar ideyaları hər zaman Azərbaycanın yüksəlişinin mayakı olacaq.*

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası***
***Milli Məclisi Sədrinin müavini***

# Ulu Öndərin qurduğu Azərbaycan ən qüdrətli dövrünü yaşayır

**Ölkəmizi və xalqımızı çətin sınaqlardan uğurla çıxaran, müstəqilliyimizin xilaskarı və dövlətçiliyimizin memarı olan Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın ən uca zirvəsində dayanır.**

Ömrünü xalqına xidmətə həsr edən Ümummilli Lider XX əsrin son on illiyinin əvvəllərində müstəqilliyini bərpa edən Azərbaycanı xaosdan sabitliyə, qeyri-müəyyənlikdən inkişafa, ümidsizlikdən gələcəyə aparan böyük yolun möhkəm təməllərini qoydu. Dahi liderin siyasi dühası, milli məfkurəni yenidən dirçəldən uzaqgörənliyi və qətiyyətli iradəsi xalqın ən çətin günlərində onun köməyinə çatdı.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi illəri respublikamız üçün bir intibah, bir dirçəliş mərhələsi olub. 1969-cu ildə Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbər seçildikdə respublika iqtisadi durğunluq, idarəetmə boşluqları və sosial problemlərlə üzləşmişdi. Ümummilli Lider qısa müddətdə sistemli islahatlar həyata keçirərək sənaye, kənd təsərrüfatı və infrastruktur sahələrinə xüsusi diqqət ayırdı. Yeni müəssisələr tikildi, kadr hazırlığı gücləndirildi, idarəetmədə intizam və məsuliyyət əsas meyarlar olaraq qəbul edildi. Azərbaycan SSR həmin illərdə bir çox göstərici üzrə ittifaq miqyasında qabaqcıl respublikalardan birinə çevrildi. Dahi lider bu dövrdə tətbiq etdiyi idarəçilik prinsipləri ilə gələcək müstəqil dövlətçilik modelinin ilkin konturlarını müəyyənləşdirdi.

Elə bu səbəbdəndir ki, qədirbilən xalqımız 1990-cı illərin əvvəllərində üzləşdiyi ağır vəziyyətdə nicat yolunu siyasət meydanının nəhəngi Heydər Əliyevi hakimiyyətə dəvət etməkdə tapdı.

Ağır siyasi böhran, Ermənistanın hərbi təcavüzü və iqtisadi tənəzzül fonunda Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıdaraq ölkənin taleyini dəyişdi, onu inkişaf və tərəqqi yoluna çıxardı. Xaosun, silahlı qarşıdurmaların və separatçı meyillərin hökm sürdüyü bir zamanda Ümummilli Lider qətiyyətli siyasəti ilə Azərbaycanı parçalanma təhlükəsindən xilas etdi, qısa müddətdə sabitliyi bərpa etdi, dövlət institutlarını gücləndirdi və idarəetmə mexanizmlərini müasir tələblərə uyğun qurdu.

Cari ildə qəbul olunmasının 30-cu ildönümünü qeyd etdiyimiz Konstitusiyanın işlənib hazırlanması, ordu quruculuğunda aparılan sistemli islahatlar, dövlət strukturlarının yenilənməsi və sosial proqramlar Azərbaycanın müstəqil, sabit və nümunəvi dövlət kimi formalaşmasının təməlini qoydu.

Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə müəyyənləşdirdiyi enerji strategiyası ölkəmizin davamlı və dayanıqlı inkişafında, beynəlxalq mövqelərimizin möhkəmləndirilməsində mühüm rol oynadı. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanı dünya enerji xəritəsində əhəmiyyətli oyunçuya çevirdi. Ümummilli Liderin şəxsi nüfuzu və qətiyyətli mövqeyi sayəsində imzalanan sənəd Azərbaycanın çoxşaxəli enerji strategiyasının əsasını qoydu. Eyni zamanda Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələri məhz Ümummilli Liderin strateji müdrikliklə həyata keçirdiyi siyasətin təzahürləridir.

Ulu Öndər Heydər Əliyevin balanslaşdırılmış və çoxşaxəli xarici siyasət konsepsiyası Azərbaycanın dünyaya inteqrasiyasını təmin etdi. Azərbaycan beynəlxalq təşkilatlarla, tərəfdaş ölkələrlə uğurlu və qarşılıqlı səmərəli münasibətlər qurdu. Ölkəmizin təşəbbüsü ilə regional əməkdaşlıq mexanizmləri yaradıldı. Bir sözlə, Ulu Öndərin xarici siyasət kursu ölkəmizin təhlükəsizlik imkanlarını artırdı, siyasi nüfuzunu yüksəltdi və Azərbaycanın postsovet məkanında nümunəvi dövlət modeli kimi tanınmasını təmin etdi.

Milli kimliyimizin, mədəni irsimizin qorunması və intellektual potensialın gücləndirilməsi Ulu Öndər Heydər Əliyevin dövlət siyasətinin əsas prioritetlərindən idi. Ümummilli Lider xalqın mənəvi sərvətlərini, incəsənətini və ədəbi irsini qorumaq, təbliğ etmək üçün genişmiqyaslı tədbirlər həyata keçirdi. Xüsusən, təhsil və elm sahələrində nəhəng işlər görüldü, gənc nəslin inkişafına yönəlmiş strateji addımlar atıldı.

Ulu Öndər xalqın sosial məsələlərini daim diqqətdə saxlayır, əhalinin rahat həyat şəraitinin yaxşılaşdırılması istiqamətində zəruri addımlar atırdı. Ağır iqtisadi şəraitə baxmayaraq, sosial proqramlar həyata keçirilir, mühüm sosial məsələlər həllini tapırdı. Xüsusən məcburi köçkünlər, şəhid ailələri, müharibə veteranlarını narahat edən məsələlərin icrası xüsusi diqqətdə saxlanılırdı. Bütün bunlar Ulu Öndər Heydər Əliyevin humanist dövlətçilik fəlsəfəsinin, xalqa olan sevgisinin bariz nümunəsidir. Bu siyasət cəmiyyətdə dövlətə olan etimadı artırdı və sosial ədalətin təmin olunmasında strateji rol oynadı.

Ümummilli Liderin strateji düşüncəsi və uzaqgörənliyi üzərində inşa olunan müasir Azərbaycan Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə inkişaf və tərəqqi yolunda inamla addımlayaraq, qüdrətli ölkəyə çevrildi. İqtisadi dayaqlarını gücləndirən, beynəlxalq mövqelərini möhkəmləndirən, qüdrətli orduya malik Azərbaycan tarixi zəfərlərə imza ataraq ərazi bütövlüyünü və dövlət suverenliyini öz gücü hesabına bərpa etdi. Bu gün Azərbaycanın təşəbbüsü ilə irəli sürülən sülh gündəliyi əsasında regionumuz sabitlik və əməkdaşlıq məkanına çevrilir.

Böyük qürurla qeyd edirik ki, Ulu Öndərin möhkəm təməllərini qoyduğu Azərbaycan bu gün beynəlxalq arenada söz və nüfuz sahibinə çevrilib. Nəhəng qlobal layihələrin təşəbbüskarı və icraçısı olan Azərbaycan bu gün dünyanın qabaqcıl ölkələrindən biridir. Dünyanın ən qüdrətli ölkələri Azərbaycana, onun lideri cənab İlham Əliyevə hörmət və ehtiramla yanaşır, ölkəmizin gücünü qəbul edir.

*Qədirbilən xalqımız Ulu Öndərin əziz xatirəsini əbədi olaraq qəlbində yaşadacaq, Ümummilli Liderimizin müəyyənləşdirdiyi inkişaf yolu ilə gedəcək, müdrik Prezidentinin rəhbərliyi ilə Azərbaycanın daha parlaq gələcəyini quracaq.*

***Şahin İSMAYILOV,***
***Milli Məclisin Gənclər və***
***idman komitəsinin sədri***

# Azərbaycanın özü qədər əbədi

**Zəngin dövlətçilik ənənələrinə sahib olan Azərbaycanda böyük tarixi əhəmiyyət daşıyan elə dövrlər olub ki, həmin zaman xalqın və dövlətin gələcək taleyini müəyyən edən çox böyük bir inkişafın başlanğıcının əsası qoyulub. Bu əzəmətli tarixi yaradanlar isə heç vaxt unudulmayan tarixi şəxsiyyətlər kimi yaddaşlara həkk olunub.**

**Keçən əsrin 70-ci illərindən başlayaraq, Vətənimizin tarixində çox əlamətdar dövrün əsasını qoyan isə Heydər Əliyevdir. O, Azərbaycan Respublikasının bir dövlət kimi formalaşmasında, müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində və gələcək inkişafına etibarlı zəmin yaradılmasında müstəsna rol oynayan fenomen şəxsiyyətdir. Bu mənada Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsi və həyat fəlsəfəsi hələ uzun müddət diqqət mərkəzində olacaq və bu irsi öyrənmək, qorumaq, təbliğ və tətbiq etmək bugünkü və gələcək nəsillərin qarşısında duran ən vacib və aktuallığını heç vaxt itirməyən qlobal məsələdir.**



## Böyük tarix yazan şəxsiyyət

Heydər Əliyevin ilk dəfə Azərbaycana rəhbərlik etdiyi 14 il ərzində apardığı hərtərəfli və əhatəli işlər, onun özünə və ətrafındakı rəhbər işçilərə qarşı olan ciddi tələbkarlığı, yüksək işgüzarlığı sayəsində Azərbaycanın iqtisadiyyatı möhkəmləndi, respublikamız neft-maşınqayırma və kimya sənayesi və bir sıra digər sahələrdə keçmiş ittifaqda öncül sıraya çıxdı, istehsal etdiyi rəqabətqabiliyyətli məhsullar 65 xarici ölkəyə ixrac edilərək beynəlxalq aləmdə tanınmağa başladı. Həmin dövr respublikamızda nəhəng zavodlar və fabriklər istifadəyə verildi, sənayenin inkişafı, xüsusilə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin tikilməsi geniş vüsət aldı. Azərbaycan qısa müddət ərzində iqtisadiyyatın bütün sahələrində geridə qalmış bir respublikadan ittifaq səviyyəsində öncül yerə yüksəldi.

Ötən əsrin 70-ci illərindən başlanan milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı müstəqil dövlətçilik ideyasının milli azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə zəmin yaratdı. Məhz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi idi ki, iqtisadiyyatın və milli-mədəni həyatımızın yüksək inkişafını gələcəkdə də davam etdirmək, müasir çağırışlara uyğun idarəetmə qabiliyyətli savadı və bacarığı olan gənc kadrların yetişdirilməsi ön plana çəkildi. Bu məqsədlə hər il yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin ən nüfuzlu universitet və ali məktəblərində təhsil almaq imkanı qazandı. Planlı qaydada həyata keçirilən bu möhtəşəm tədbirlər sayəsində əldə edilən nailiyyətlər sonralar respublikamızın müstəqil dövlət kimi fəaliyyət göstərməsinə möhkəm zəmin yaratdı.

Məhz Heydər Əliyevin həmin dövrdə Azərbaycanda həyata keçirdiyi heyrətamiz quruculuq işləri, onun yüksək idarəçilik qabiliyyəti, dövlətçiliyi inkişaf etdirmək bacarığı və rəhbər işçi kimi böyük potensiala malik olması həmin vaxt ittifaqa rəhbərlik edənlərin diqqətini cəlb etdi və Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Heydər Əliyev həmin dövrdə təkcə Azərbaycanın deyil, həm də ittifaqın türk-müsəlman xalqlarının ən güclü dayağı oldu. Onun liderlik məharəti, ittifaqda və beynəlxalq aləmdə böyük nüfuzu, məhsuldar işləmək qabiliyyəti xoşniyyətli insanları sevindirir, bir çox bədxahlarda isə ona qarşı paxıllıq hissi yaradırdı. Bu paxıllığın nəticəsi idi ki, 1987-ci ildə SSRİ rəhbərliyində, xüsusilə M.Qorbaçov tərəfindən aparılan təqiblərə cavab olaraq Heydər Əliyev vəzifəsindən istefa verməyə məcbur oldu.

Bundan 15 gün sonra SSRİ rəhbərliyinin Heydər Əliyevdən çəkindikləri üçün dəstək verə bilmədikləri bir anti-Azərbaycan prosesi - ermənilərin çoxdan çalışdıqları məkrli separatizm siyasəti baş qaldırdı və Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsi məsələsi gündəliyə çıxarıldı. Bununla da Azərbaycanın ağrı-acılarla dolu dövrü başlandı. Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədildi. Heydər Əliyev fəaliyyətini hakimiyyətdə olmadığı dövrlərdə də davam etdirərək ən çətin anlarda xalqının yanında oldu.

Ümummilli Liderin böyük və mənalı ömrünün Naxçıvanda keçən 3 ili ərzində Azərbaycan və Naxçıvan parlamentlərinin deputatı kimi gördüyü işlər müstəqil dövlətimizin qurulmasına yönəlmiş strategiyanın tərkib hissəsi idi. 1990-cı ilin noyabr ayında Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında Ulu Öndərin təşəbbüsü və qətiyyəti ilə qəbul olunan tarixi qərarlar müstəqil Azərbaycan dövlətinin yaradılmasının əsasını qoymuşdur. Hələ sovetlər birliyinin mövcud olduğu bir dövrdə Azərbaycan Xalq Cümhuriyyətinin qəbul etdiyi üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilməsi, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından Sovet Sosialist sözlərinin çıxarılması böyük cəsarət tələb edirdi. Heydər Əliyevin bu qərarları qəbul etdirməsi 1991-ci ilin oktyabrında bütövlükdə Azərbaycanın öz müstəqilliyini elan etməsinə şərait yaratmışdır. Bu tarixi hadisə isə nəinki Azərbaycanın, həm də sovetlər birliyinin digər müttəfiq respublikalarının da müstəqillik hərəkatına yol açmışdır.

Həmin illər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğun islahatlar aparılaraq yeni iqtisadi model formalaşdırıldı. Muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi diqqət yetirilir, blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülür, quruculuq işləri aparılırdı. Eyni zamanda bütün qüvvələr bölgənin erməni silahlı qüvvələri tərəfindən işğal olunmasının qarşısını almağa yönəlirdi. Həmin vaxt Azərbaycanda hakimiyyətdə olan və Heydər Əliyevin Naxçıvanda əldə etdiyi uğurları gözü götürməyən Xalq Cəbhəsinin rəhbərləri 1992-ci il oktyabrın 24-də Naxçıvanda silahlı çevriliş edib Heydər Əliyevi tutduğu vəzifədən devirməyə cəhd etsə də, buna nail ola bilmədilər. Çünki Heydər Əliyev naxçıvanlılara, sözün əsl mənasında, arxa olduğundan əhali də ona arxa durdu. Məhz bunun sayəsində çevrilişə cəhddən cəmi bir ay sonra - 1992-ci il noyabrın 21-də Azərbaycan hakimiyyətinin bütün etirazlarına və qadağalarına baxmayaraq, Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı təsis konfransı keçirildi və Heydər Əliyev YAP-ın sədri seçildi.

Naxçıvanda yeni dövlət quruculuğu istiqamətində böyük işlərin getdiyi bir vaxtda Azərbaycana səriştəsiz rəhbərlik, getdikcə güclənən özbaşınalıq, cəbhədə yaranan gərgin vəziyyət gənc dövlətimiz üçün real təhlükə yaratmışdı. Bunu görən Azərbaycan xalqı Heydər Əliyevi təkidlə Azərbaycan rəhbərliyinə dəvət etdi. Xalq inanırdı ki, yalnız Heydər Əliyev bu gərgin vəziyyətdən çıxış yolu tapa və Azərbaycanın müstəqilliyini qoruyub saxlaya və inkişaf etdirə bilər. Doğma xalqının istəyinə heç zaman biganə qalmayan görkəmli dövlət xadimi Heydər Əliyev xalqın çağırışını qəbul edərək 1993-cü il iyunun 15-də ölkənin ali qanunverici orqanının sədri və həmin ilin 3 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti seçildi. Ulu Öndər yenidən siyasi hakimiyyətə qayıtmaqla xalqımızı düçar olduğu bəlalardan, vaxtilə özünün qurub-yaratdığı Azərbaycanı dağılmaq, dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas etdi.

Məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində tezliklə Ermənistanla atəşkəs əldə olunaraq ölkədə siyasi və iqtisadi sabitlik bərqərar oldu. Bundan sonra siyasi sistemin təkmilləşməsi istiqamətində möhkəm addımlar atıldı, yeni Konstitusiya qəbul olundu.

Azərbaycanın gələcəyinin neft strategiyasının hazırlanmasında və uğurla həyata keçirilməsində görən Heydər Əliyev Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının işlənməsi ilə bağlı xarici investorların cəlb edilməsini zəruri hesab edərək dünyanın tanınmış neft şirkətləri ilə danışıqlara başlandı və 1994-cü il sentyabrın 20-də 8 ölkənin 13 şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi" imzalandı. Bundan sonra Azərbaycanın enerji resurslarını dünya bazarlarına çıxarmaq üçün Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin tikintisi barədə qərar verildi. Bütün bunlar Ümummilli Liderin özünün dediyi kimi, Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasını təmin edən çox mühüm və böyük əhəmiyyət kəsb edən addımlar idi.

Heydər Əliyevin dahi şəxsiyyət olması həm də ona görə təsdiqlənir ki, o, hər bir şeyin əvvəlini bildiyi kimi, gələcəyini görürdü. Bunu xalqımız Heydər Əliyevin Prezident seçkiləri ilə əlaqədar 2003-cü il 1 oktyabr tarixində doğma xalqına ünvanladığı son müraciətində bir daha yəqin etdi. Həmin müraciətdə deyilirdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu müraciət ölkəyə rəhbərlik edən dahi şəxsiyyətin vətənə ləyaqətlə xidmətinin bariz nümunəsi idi.

Ulu Öndərin bu tarixi müraciətindən indiyə kimi olan müddətdə respublikamızın həyatında baş verən hadisələr onun dediklərinin reallıqla dərindən uzlaşdığını və söylədiyi fikirlərin yüksək dərəcədə həqiqət olduğunu bir daha göstərdi. Keçən dövr ərzində Azərbaycana rəhbərlik edən İlham Əliyev Ümummilli Liderin layiqli varisi olduğunu və Azərbaycan Respublikasını gündən-günə daha yaxşı gələcəyə apardığını sübut etdi.

2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində İlham Əliyevin böyük səs çoxluğu ilə (92,1 faiz) inamlı qələbəsi Ulu Öndərin varis seçiminin nə qədər düzgün olduğunu növbəti dəfə təsdiq etdi. Bünövrəsi Ulu Öndər tərəfindən qoyulmuş müstəqil Azərbaycan Respublikası artıq 22 ildir ki, Prezident İlham Əliyev tərəfindən uğurla idarə olunur və ölkəmiz beynəlxalq aləm və dünyanın aparıcı ölkələri tərəfindən regionun lider ölkəsi kimi qəbul olunur. Bu isə təsadüfi deyil. Ölkəmizə 300 milyard dollardan çox sərmayə qoyulmuş, sahibkarlığın inkişafına dövlət büdcəsindən 3 milyard manata yaxın güzəştli şərtlərlə kreditlər verilmişdir. Bunun sayəsində Azərbaycan Respublikasının iqtisadiyyatı və valyuta ehtiyatları, habelə orta əməkhaqqı, pensiya və müavinətlər dəfələrlə artmış, işsizliyin və yoxsulluğun səviyyəsi isə minimuma enmişdir.

İlham Əliyevin prezidentliyi dövründə istər daxili və istərsə də xarici siyasət sahəsində çoxsaylı uğurlar əldə edilmiş, bu qısa müddətdə ölkəmiz misli görünməmiş sürətli inkişaf yolu keçmişdir. Bu uğurların zirvəsində isə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusunun qazandığı Zəfər dayanır. Bu qələbə ilə Ulu Öndərin siyasi varisi İlham Əliyev ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin edən Prezident kimi qızıl hərflərlə Azərbaycan tarixində yeni bir səhifə açdı. 2023-cü ilin sentyabr ayında isə birgünlük antiterror əməliyyatı ildırım sürəti ilə həyata keçirilərək Ermənistan ordusunun qalıqları Qarabağ ərazisindən tamamilə təmizləndi. Bununla da ölkəmizin ərazi bütövlüyü və suverenliyi əbədi olaraq bərpa olundu.

Hazırda ölkəmizin qarşısında duran ən mühüm missiya erməni işğalından azad etdiyimiz Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərini yenidən qurmaq, bu ərazilərə Böyük qayıdışı təmin etməkdir. Şübhə etmirik ki, Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımız bu şərəfli vəzifənin də öhdəsindən gələcək və Azərbaycan bünövrəsi Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf yolunu bundan sonra da uğurla davam etdirəcək.

*Xalqımız əmindir ki, Ümummilli Liderin siyasi kursu möhkəm əllərdədir. Bu kursu davam etdirən İlham Əliyev nəinki regionda, bütövlükdə dünyada qəbul olunan siyasətçi kimi Azərbaycanı, onunla birlikdə Heydər Əliyev kursunu yaşadır, ölkəmizi daha xoşbəxt gələcəyə aparan böyük uğurlara imza atır. Çünki ölkəmizin iqtisadi, mədəni və sosial həyatında, beynəlxalq siyasi aləmdə baş verən qlobal dəyişikliklərin kökündə Heydər Əliyev yoluna, siyasi və nəzəri irsinə sədaqət, düzgün idarəetmə dayanır. Ölkə rəhbəri İlham Əliyevin dediyi kimi: "Heydər Əliyev yaşayır. Azərbaycan xalqının qəlbində yaşayır. Nə qədər Azərbaycan var, Heydər Əliyev olacaqdır. Biz - Ulu Öndərin davamçıları onun yolu ilə gedəcəyik, Azərbaycanı gücləndirəcəyik, müstəqilliyimizi qoruyacağıq".*

***Eldar İBRAHİMOV,***
***Milli Məclisin İntizam Komissiyasının sədri,***
***iqtisad üzrə elmlər doktoru, professor***

## Güclü dövlətçiliyin və yüksəlişin əsaslarını yaradan lider

**Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin cismani yoxluğundan 22 il ötür. Yaşadıqları zaman və məkandan asılı olmayaraq, Heydər Əliyev kimi böyük şəxsiyyətləri bir-birinə bənzədən çox cəhətlər var. Onlardan biri bu şəxsiyyətlərin əzəmətinin vaxtın uzaqlığından daha aydın görünməsidir. Zaman keçdikcə Ulu Öndərin böyüklüyünü də öz əzəmətli miqyası ilə dəqiq təsəvvür etməyə başlayırsan.**

İndiyə qədər Ümummilli Liderin həyat və fəaliyyəti haqqında çox kitablar, məqalələr yazılıb, bu tarixi şəxsiyyətin ömür yolunun ayrı-ayrı məqamları, Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri elmi araşdırmalara cəlb olunub. Bu materialların çoxunda Heydər Əliyevin fəaliyyəti əsasən klassik dövlət xadimi kimi qiymətləndirilir. Amma aradan zaman keçdikcə tam əmin olursan ki, Heydər Əliyev şəxsiyyəti dövlət xadimi obrazının çox-çox fövqündə, ondan ucalarda qərar tutan tarixi fenomendir. Ümummilli Lider dövlət xadimindən daha çox həm sovet dönəmində, həm də müstəqillikdən sonra Azərbaycanı böyük strateji dəyişikliklərə aparan, ölkəni mühüm hədəflərinə çatdıran dəyişiklik lideri kimi çıxış etmişdir.

### Unikal model

XX əsrin ikinci yarısı bir çox ölkədə olduğu kimi, Azərbaycanda da dərin siyasi, sosial və iqtisadi transformasiyalar dövrü idi. Xalqların və dövlətlərin gələcək taleyi, inkişaf yolu bu keçidin mərkəzində proseslərə yön verən əsas simalardan çox asılı görünürdü. Dəyişikliklərə liderlik etmək təkcə islahatlar haqqında danışmaq deyil, həm də tənəzzül, yaxud xaos dövrlərində gələcəklə bağlı aydın viziyon yaratmaq, insanları belə bir gələcəyə inandıraraq səfərbər etmək, sistemi yenidən qurmaq, institusional sabitlik formalaşdırmaq və uzunmüddətli inkişaf yolunu müəyyənləşdirmək deməkdir. Bu kontekstdə Ümummilli Lider Heydər Əliyev hələ sovet Azərbaycanına rəhbərliyi dövründən dəyişiklik liderliyinin unikal modelini formalaşdırmışdır.

1969-cu ildə Ulu Öndər Azərbaycana rəhbər təyin olunarkən ölkəmiz sovet məkanında iqtisadi cəhətdən geri qalmış aqrar respublikalardan idi. Heydər Əliyev belə bir zamanda Azərbaycana təkcə idarəçi rəhbərliyi deyil, modernləşdirici lider rolunu öz üzərinə götürdü. Qısa zaman ərzində ölkənin sənaye strukturlarını yenilədi, kənd təsərrüfatını modernləşdirdi, respublikada milli kadrlara əlverişli mühit yaratdı, ölkə üçün lazımi peşəkarlıq səviyyəsinə malik kadrları yetişdirmək, cəmiyyətdə yeni mütərəqqi dəyərlər formalaşdırmaq üçün təhsili və mədəniyyəti inkişaf etdirdi, bu iki mühüm faktoru Azərbaycan insanının gündəlik həyatının mərkəzinə gətirdi. Paytaxtın və regionların urbanizasiya siyasətini gücləndirdi. Bütün bu addımlar sayəsində qısa müddət ərzində Azərbaycan tənəzzül dövrü keçirən aqrar respublikadan inkişaf edən sənaye respublikasına çevrildi.

Ümummilli Lider insanlarda vətəndaşlıq məsuliyyətini gücləndirdi, cəmiyyətdə milli şüurun oyanışına, milli özünüdərk hissinin güclənməsinə təkan verdi. Sovet ideoloji sistemində milli kimliyin dərin şəkildə ifadəsi məhdud idi. Lakin Heydər Əliyev həm dövlətçilik ənənələrinin, həm mədəni irsin qorunaraq inkişaf etdirilməsi üçün o dövrün imkanları çərçivəsində böyük cəsarətlə maksimum addımlar atırdı. Bu addımlar onun dəyişiklik lideri kimi yalnız iqtisadi və siyasi deyil, həm də milli-mənəvi transformasiyanı hədəflədiyini, Azərbaycanı addım-addım irəliyə apardığını göstərirdi. Bu böyük dövlət adamının mükəmməl idarəçilik üslubu, müdrikliyi, gələcəyə strateji baxışı, ölkənin, xalqın taleyi qarşısındakı məsuliyyət hissi, malik olduğu dəyərlər hər kəs üçün böyük bir örnəyə çevrilmişdi. Heydər Əliyev XX əsrdə SSRİ boyda nəhəng dövlətin rəhbərlərindən biri kimi Azərbaycan xalqının yetirdiyi ən böyük lider idi.

### Tarixi missiya

Ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində, müstəqilliyimizin ilk illərində tale Ulu Öndərin üzərinə daha bir tarixi missiya qoydu. Azərbaycanın ağır müharibə, daxili siyasi qarşıdurmalar, iqtisadi tənəzzül, xarici güclərin təhlükəli oyunları, separatizm meyilləri səbəbindən vətəndaş müharibəsinin bir addımlığına gəldiyi, parçalanaraq dünyanın siyasi xəritəsindən silinmək təhdidi ilə üz-üzə qaldığı ağır günlərdə bu böyük şəxsiyyət xalqın çağırışına səs verərək ali hakimiyyətə qayıtdı. Azərbaycanın gələcəyinə görə məsuliyyəti üzərinə götürdü, xaosdan dövlətçiliyə aparan dəyişiklik lideri missiyasını özünəməxsus mükəmməlliklə yerinə yetirdi. Azərbaycanda idarəçilik sisteminin, demək olar ki, dağıldığı bir vaxtda siyasi sabitliyin bərpasına nail oldu, dövlət hakimiyyətini vahid mərkəzdə cəmləşdirə bildi. Daxili qarşıdurmaları aradan qaldırdı, institusional iflasın qarşısının aldı, dövləti və vətəndaşları təhdid altında saxlayan silahlı qruplaşmaları aradan qaldırdı. Dövlətçiliyin hüquqi əsaslarını bərpa etdi, Azərbaycanın demokratik inkişafı üçün qısa zamanda sivil institutlar formalaşdırdı.

Dəyişiklik liderliyinin əsas prinsiplərindən biri böhran dövründə qətiyyət və strateji qərarvermə qabiliyyətidir. Ümummilli Liderin bu prosesdə nümayiş etdirdiyi siyasi təcrübə, güclü idarəçilik fəhmi, qətiyyət, keçdiyi ustad dərsləri o illəri xatırladıqca adamı bir daha heyran edir.

Ümummilli Lider 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla Azərbaycan iqtisadiyyatına böyük kapital axınına yol açdı. Başlanğıcda neft gəlirlərinə əsaslanan, lakin eyni zamanda qeyri-neft sektorunun da inkişafını dəstəkləyən milli inkişaf modelini formalaşdırdı. Xarici investorlar üçün sabitlik və hüquqi təminat mühiti yaratdı. Dövlət əmlakının özəlləşdirilməsi proqramını, torpaq islahatlarını uğurla həyata keçirdi. Ölkəmizdə bazar iqtisadiyyatı prinsipləri bərqərar oldu. Bu istiqamətdə ardıcıl addımlar atılması, qətiyyətli qərarlar verilməsi Azərbaycanın iqtisadi transformasiyasının təməlini qoydu və gələcək inkişaf üçün dayanıqlı baza yaratdı.

Ulu Öndər 1995-ci ilin 12 noyabrında müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbuluna nail olmaqla Azərbaycanın müasir dövlət quruculuğunda yeni mərhələ açdı. Bununla hakimiyyət bölgüsünü aydın müəyyənləşdirdi, siyasi institutların fəaliyyət prinsiplərini formalaşdırdı, müstəqilliyin hüquqi təminatını yaratdı.

Heydər Əliyevin liderliyinin ən mühüm tərəflərindən biri də Azərbaycanın geosiyasi mövqeyini balanslaşdırması idi. Ulu Öndər özünəməxsus strateq məharəti, apardığı məqsədyönlü siyasəti, irəli sürdüyü tarixi təşəbbüslər ilə Azərbaycanı geoiqtisadi inkişaf mərkəzinə, regional təhlükəsizlik infrastrukturunun son dərəcə əhəmiyyətli aktoruna çevirdi.

### Möhkəm təməllər üzərində tarixin ən qüdrətli Azərbaycanı

Ulu Öndərin liderlik modeli üç strateji təmələ əsaslanır. Bunlardan birincisi sabitlik - inkişafın fundamentidir. Ulu Öndər hesab edirdi ki, dövlətçiliyi gücləndirmədən iqtisadi və sosial islahatlar mümkün deyil. Digəri uzunmüddətli viziyondur. Heydər Əliyevin zamanında verdiyi qərarları təhlil etdikcə bir daha əmin olursan ki, onların heç birində qısamüddətli populizm elementləri yoxdur, həmin qərarların hər biri gələcək 20-30 ilin inkişaf məntiqini ehtiva edir. Daha bir fundamental təməl isə kadr siyasəti və idarəçilik mədəniyyətidir. Ümummilli Lider hər zaman sistem daxilində peşəkarlıq prinsipini önə çəkir, dövlət qulluqçularının məsuliyyətinin artırılmasını və idarəetmədə şəffaf standartların yüksəldilməsini təlqin edirdi.

*Ümummilli Liderin yaratdığı siyasi və institusional model, müəyyən etdiyi strateji inkişaf kursu bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən böyük uğurlarına yetişmiş qüdrətli Azərbaycanın nailiyyətlərində öz ifadəsini tapır. Ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin tam təmin olunması, Azərbaycanın əsrlərin problemini yoluna qoyaraq regionun lider dövləti kimi Cənubi Qafqazın gələcəyini qurması bu nailiyyətlərin ən möhtəşəmidir.*

***Nəsib MƏHƏMMƏLİYEV,***
***Milli Məclisin deputatı***

## Azərbaycanın özü qədər əbədi

**Heydər Əliyevin "Dilinizi itirməyin, dininizi itirməyin, milliyyətinizi qoruyun və fəxr edin ki, siz azərbaycanlısınız" fikrinin epiloq kimi seçilməsi təsadüfi deyil. Ümummilli Lider milli özünəməxsusluğun qorunması konsepsiyasını üç fundamental tezisdə birləşdirərək milli varlığın strateji əsaslarını müəyyənləşdirir:**

- Ana dilinin qorunması;
- Dini və mənəvi dəyərlərə hörmət;
- Milli mənsubiyyətin qorunması.

Dərin elmi-intellektual təfəkkürə malik olan dövlət xadimi Heydər Əliyev milli dilin qorunması ideyasını irəli sürərkən, əslində, insan cəmiyyətinin və etnosun varlığını şərtləndirən ən mühüm amillərdən birinə, dil faktoruna istinad edirdi. Bu yanaşma məşhur etnoqraf Lev Qumilyovun etnosun davamlılığında dilin aparıcı amil kimi çıxış etməsi prinsipində özünü ehtiva edir. Bu baxımdan, Ümummilli Liderin Azərbaycan dilinin yaşadılması və inkişafı istiqamətində apardığı mübarizənin mahiyyətini anlamaq çətin deyil. Onun "İnkişaf etmiş, zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir" fikri həm dilin fəlsəfəsini, həm də onun dövlətçilik üçün strateji əhəmiyyətini açıq şəkildə ifadə edir.

Dil ünsiyyət vasitəsi olmaqla yanaşı, eyni zamanda mədəniyyətin bünövrəsi, ictimai şüurun daşıyıcısı və dövlətçiliyin əsas sütunlarından biridir. Dil vasitəsilə mədəni normalar formalaşır, ictimai münasibətlər tənzimlənir, nəsillərarası təcrübə ötürülür. Ana dilini mənimsəyən hər bir fərd, əslində, onunla birlikdə milli identiklik arxitekturasını, etnosun ümumiləşdirilmiş tarixi yaddaşını və kollektiv dəyərlər sistemini də mənimsəmiş olur. Bu səbəbdən dil yalnız kommunikativ vasitə deyil, həm də şəxsiyyətin sosial-mədəni formalaşmasını şərtləndirən, dünyagörüşünün konturlarını müəyyən edən fundamental fəlsəfi kateqoriyadır.

Eyni zamanda dil dövlətçilik fəlsəfəsinin ayrılmaz tərkib hissəsidir. Dövlətin ideoloji və institusional dayaqlarının möhkəmlənməsi, hüquqi-siyasi sistemin legitimliyi, milli birliyin və ictimai həmrəyliyin təmin olunması məhz vahid dil müstəvisində mümkün olur. Dil etnosun özünüdərk və özünüidentifikasiyasının, milli dövlətin isə ideoloji bütövlüyünün əsas komponentidir.

Azərbaycan xalqı tarixin ağır sınaqlarından keçərək dilini, mənəvi dəyərlərini və mədəni yaddaşını qoruyub saxlamış bir toplum kimi formalaşıb. Dərin tarixi köklərə malik olan Azərbaycan dili bizim milli varlığımızın və dövlətçiliyimizin təməl daşıdır. Məhz buna görə də bu dili qorumaq və yaşatmaq hər bir Azərbaycan vətəndaşı üçün yalnız mənəvi məsuliyyət yox, həm də müqəddəs vətəndaşlıq borcudur.

Qürur duyuruq ki, bu gün Azərbaycan dilində danışan 50 milyondan artıq insan dünya mədəniyyətinin inkişafına böyük şairlər, yazıçılar, alimlər, filosoflar, dövlət xadimləri və çoxsaylı dahilər bəxş etmiş zəngin bir mənəvi-mədəni irsin daşıyıcılarıdır. Bu fakt, əslində, dilin yalnız ünsiyyət vasitəsi olmadığını, həm də bütün mədəni-intellektual irsin fundamental təcəssümü olduğunu bir daha təsdiq edir.

Heydər Əliyevin dilə verdiyi yüksək dəyər - onu əyilməzliyin, ölməzliyin rəmzi kimi təqdim etməsi, milli sərvət və müqəddəs miras adlandırması - milli dövlətçiliyin fəlsəfi əsasları ilə üst-üstə düşməsi ilə yanaşı, həm də onları daha da zənginləşdirir. Ulu Öndərin ana dilini bilməyənləri "şikəst" hesab etməsi, mahiyyət etibarilə, millətin bütövlüyü və etnik kimliyinin formalaşdırıcı komponentinin məhz dil olduğunu vurğulayan dərin bir tezisdir. Bu baxış onun uzun və çətin siyasi fəaliyyətinin aparıcı xəttini təşkil edir.

Heydər Əliyevin dil məsələsindəki prinsipial mövqeyi hələ Azərbaycan Respublikasının milli Konstitusiyası qəbul edilməmişdən xeyli əvvəl, SSRİ Konstitusiyası barədə söylədiyi cəsarətli fikirlərdə özünü göstərirdi. O, təhsil hüququnun ana dilində təmin olunmasının mütləqliyini xüsusi vurğulayırdı ki, bu mövqe həm milli dilin hüquqi statusunun zəiflədilməsi təhlükələrinə qarşı qabaqlayıcı addım idi, həm də dövlətçilik şüurunun formalaşmasına yönəlmiş strateji siyasi iradəni ortaya qoyurdu.

1978-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul edilərkən Azərbaycan SSR-in Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi həmin dövrün ideoloji-siyasi reallıqları fonunda son dərəcə cəsarətli və müstəsna əhəmiyyətli hadisə idi. Sovet məkanında rus dilinin açıq hegemonluğu şəraitində bu statusun qorunması ilk baxışdan qeyri-mümkün təsir bağışlasa da, Heydər Əliyevin siyasi nüfuzu, praqmatik diplomatik bacarığı və milli məsuliyyəti onu bu mühüm hədəfə çatdırdı.

Mərkəzi hakimiyyətin yüksək rütbəli dairələrində Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi qeyd edilməsinə ciddi etirazların mövcud olduğu bir şəraitdə Heydər Əliyevin qətiyyətli mövqeyi xüsusi diqqətəlayiq idi. O, məsələni yalnız dil məsələsi kimi deyil, milli kimliyin, dövlətçilik perspektivinin və konstitusion hüquqi quruluşun gələcəyi baxımından əsaslandıraraq, ən çətin tribunalar qarşısında belə milli marağı müdafiə etməyi bacarmışdı.



# Heydər Əliyev və dil siyasəti

Nəticədə Azərbaycan SSR Konstitusiyasının 73-cü maddəsi yeni redaksiyada qəbul edilərək "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir" müddəası hüquqi qüvvə aldı. Bu qərar, 21 aprel 1978-ci ildə təsdiqlənərək, Azərbaycan dilinin dövlət dili kimi statusunu yalnız texniki şəkildə təsbit etmədi, həm də gələcək müstəqil Azərbaycan dövlətinin milli rəmzlərdən ibarət ideoloji bünövrəsini möhkəmləndirdi.

Azərbaycan dilinin dövlət dili statusunun hüquqi təsbiti Heydər Əliyevin xalq qarşısındakı ən böyük tarixi xidmətlərindən biridir. Bu addımla o, yalnız dilin hüquqi və siyasi müdafiəsini təmin etmədi, həm də etnosun özünüdərkinin ən mühüm sütununu və müstəqil dövlətçiliyin ideoloji simvolunu böyük uzaqgörənliklə qorudu.

Qeyd etmək vacibdir ki, 1921-ci ildə qəbul edilmiş Azərbaycan SSR Konstitusiyasında milli dilimizlə bağlı heç bir maddə nəzərdə tutulmamışdır. Daha sonra, 1937-ci ildə hazırlanmış Azərbaycan SSR Konstitusiyası layihəsində dövlət dili kimi türk dili göstərilsə də, Moskvadan gələn tapşırıq nəticəsində bu maddə çıxarılmış və məsələ uzun illər tamamilə unudulmuşdur.

Ulu Öndər Heydər Əliyev bu kontekstdə vurğulayırdı: "Xalqımız əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçmiş, ancaq öz mənliyini, milliliyini, öz dilini itirməmişdir". O, ana dilinin qorunması və inkişafı istiqamətində əldə olunan tarixi uğuru yalnız öz xidmətləri kimi deyil, bütün xalqın böyük nailiyyəti kimi qiymətləndirirdi.

Ulu Öndərin "mənlik", "millilik" və "dil" konseptləri arasında bərabərlik işarəsi qoyması onun dövlətçilik fəlsəfəsi baxımından dərin mənalara malikdir. Heydər Əliyevin "xalqımızın əsrlər boyu böyük sınaqlardan, çətinliklərdən keçməsinə baxmayaraq, özünün mənlik, millilik və dil kimi dəyərləri itirməməyi haqqında fikri təkcə xalqımızın milli-mənəvi bütövlüyünə hörmətdən irəli gəlmir. Əlbəttə, məsələnin bu tərəfi də var və bu cəhət Ulu Öndər üçün həmişə vacib olmuşdur: ana dilinə bağlılığı daim milli mənliyin ən vacib ünsürü hesab etmişdir. Lakin müdrik dövlət xadiminin yuxarıdakı fikrində həm də dərin fəlsəfə vardır.

Heydər Əliyevə görə, "mənlik", "millilik" və "dil" anlayışları bir-biri ilə qırılmaz şəkildə bağlıdır:

- Milli mənlik - bir xalqın kimliyinin əsasını təşkil edən, onun özünü tanımasını və dərk etməsini mümkün edən düşüncə və dəyər bazasıdır. Yəni millətin daxili özünüifadə "bünövrəsidir".

- Dil - milliliyin bütün elementlərini birləşdirən, xalqın düşüncə tərzini, mədəniyyətini, dəyərlərini ifadə edən və ötürən əsas ünsiyyət sistemidir. Başqa sözlə, millətin varlığını sözə çevirən mexanizmdir.

- Millilik - həm milli mənliyi, həm də dili öz daxilində birləşdirən və bir xalqın kimliyini bütöv şəkildə formalaşdıran əsas atributdur. Yəni xalqı xalq edən ümumi kimlik çərçivəsidir.

Bütün bunlardan Ulu Öndərin fikrinə yanaşdıqda aydın olur ki, müdrik dövlət xadiminin "mənlik", "millilik" və "dil" anlayışlarını bir fikir vahidində birləşdirməsi, ilk növbədə, onun bu anlayışlara dövlətçilik və millilik müstəvisində yanaşdığını ortaya qoyur. Dövlətçilik tarixi və fəlsəfəsinə, o cümlədən Azərbaycan dövlətçilik tarixinə dərindən bələd olan Heydər Əliyev məhz dil amilinin dövlət quruculuğu proseslərindəki yerini, rolunu və əhəmiyyətini yüksək qiymətləndirirdi. Ulu Öndər çox yaxşı bilirdi ki, xalqın, millətin və onun varlığında təcəssüm edən etnik-mədəni sistemin əsasında dil amili durur. Ulu Öndər bu düşüncələrində, ilk növbədə, milli tarixin dərslərinə əsaslanırdı. İxtisas etibarilə tarixçi olan Heydər Əliyev onu da bilirdi ki, dil dövlət quruculuğunda əsas faktordur. Şah İsmayıl Xətai Azərbaycan imperiyasını, əslində, ilk baxışda görünməsə də, məhz dil faktoruna əsaslanaraq qurdu. O, poetik kimliyi klassik ənənələr əsasında formalaşmış bir şair olsa da, fars dilinə deyil, ana dilinə - doğma türkcəyə üstünlük verirdi. Çünki bilirdi ki, milli dövlət qurmaq üçün xalqa onun öz dilində - milli dildə xitab etmək lazım idi. Ulu Öndər də bu mənada dili milli varlığın əsası, milli kimliyin nüvəsi hesab edirdi. O dərindən anlayırdı ki, dil milli yaddaşın daşıyıcısı və düşüncə xəzinəsidir. Məhz buna görə də xalqa ana dilində müraciət edən Heydər Əliyev Azərbaycan xalqını səfərbər edə bilib, müstəqilliyimizi qorumağı bacardı. O, sovet dövründə də "qaydaları pozub" ana dilinə üstünlük verirdi. Bilirdi ki, ana dilində danışmaqla Azərbaycan xalqının milli kimliyini yaşadır. Ulu Öndər onu da çox yaxşı bilirdi ki, xalqa onun dilində müraciət etdikcə insanların milli taleyə olan ümidlərini oyadır və yaşadır.

Əlbəttə, Heydər Əliyevin ana dili məsələsində prinsipial və qəti mövqeyi rus dilinə qarşı barışmazlıq anlamına gəlmirdi. O, yaxşı başa düşürdü ki, Sovet İttifaqı xalqlarının elmi, mədəni və intellektual tərəqqisi, həmçinin beynəlxalq aləmdə mövqelərinin güclənməsi əsasən rus dili vasitəsilə həyata keçirilirdi. Dünyanın ən son elmi və mədəni yenilikləri ilk olaraq rus dilinə çevrilir, daha sonra isə milli dillərə tərcümə olunurdu. Bu səbəbdən Ulu Öndər azərbaycanlıların ikinci dil kimi rus dilini yüksək səviyyədə bilmələrinin tərəfdarı idi və onların yalnız ana dili çərçivəsində məhdudlaşmasının əleyhinə çıxırdı.

Heydər Əliyevin ana dilinə münasibətində Azərbaycan ədəbi dilinin saflığının qorunması və inkişaf etdirilməsi xüsusi əhəmiyyət daşıyırdı. Ümummilli Lider dili qorumağı, onun inkişafına xidmət etməyi yalnız dövlət vəzifəsi kimi yox, eyni zamanda milli-mənəvi borc kimi qiymətləndirirdi. O, alimlərdən, şairlərdən, yazıçılardan və bütövlükdə ziyalılardan ədəbi dilin saflığının qorunmasına qətiyyətlə riayət etməyi tələb edirdi.

Hətta rəsmi toplantılarda Heydər Əliyev bu məsələ ilə bağlı öz prinsipial mövqeyini açıq şəkildə ifadə edirdi. Məsələn, Azərbaycan yazıçılarının VII qurultayındakı nitqində Ümummilli Lider deyirdi:

"Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir. Azərbaycan dili görünməmiş zirvələrə qalxmış, müasir poeziyanın və nəsrin, elm və texnikanın, kargüzarlığın və fəal ictimai-siyasi həyatın hərtərəfli inkişaf etmiş dilinə çevrilmişdir. Biz tam inamla deyə bilərik ki, çoxəsrlik tariximizdə Azərbaycan dili heç vaxt belə zəngin, nüfuzlu və hörmətli olmamışdır. Lakin mədəniyyət və elmin səviyyəsi yüksəldikcə, həyatın axarı sürətləndikcə dilin təkmilləşməsinə, inkişaf etməsinə və zənginləşməsinə, onun söz ehtiyatının genişlənməsinə daha çox qayğı göstərmək lazımdır".

Bu mövqe, Heydər Əliyevin milli dilin həm etnik, həm mədəni, həm də dövlətçilik baxımından strateji əhəmiyyətini necə dərk etdiyini və onun qorunmasına yönəlmiş prinsipial fəaliyyətini aydın şəkildə ortaya qoyur. Məhz Ümummilli Liderin təşəbbüsü ilə ilk dəfə bir neçə dilçi alimə dövlət mükafatı verildi və nəticədə Azərbaycan dilçilərinin nüfuzu yüksəldi. Bu mükafatların verilməsi, eyni zamanda ana dilinin istifadə dairəsinin genişlənməsinə mühüm töhfə idi. Heydər Əliyev yalnız bununla kifayətlənməmiş, əvvəlki illərdə müəyyən təzyiqlərə məruz qalmış alimlərə də xüsusi qayğı göstərmişdir. Onun diqqət və təşəbbüsü nəticəsində respublikada ana dilində nəşr edilən kitabların tirajı əhəmiyyətli dərəcədə artmışdır. 1979-cu ildə Azərbaycanda çap edilən 1300 adda 13 milyon 800 min nüsxə kitabın 11 milyon 100 min nüsxəsi ana dilində olmuşdur.

Heydər Əliyevin ana dilinə və doğma torpağa bağlılığı Azərbaycanın yeni himninin hazırlanması və müzakirəsi zamanı da özünü büruzə vermişdir. O, Azərbaycana yalnız diyar və ya region kimi deyil, SSRİ-nin bərabərhüquqlu müttəfiq respublikası kimi baxır və onun hüquqlarını qətiyyətlə müdafiə edirdi. 1978-ci il 14 aprel tarixli Azərbaycan KP MK-nın iclasında yeni himnin mətnində "respublika" sözünün olmaması məsələsi müzakirə edilərkən, Heydər Əliyev bu ifadənin daxil edilməsinin vacibliyini israrla bildirirdi. O, açıq şəkildə deyirdi:

"Mən çox istərdim ki, "respublika" sözü mətndə olsun. Mənə deyirlər ki, heç cür alınmır. Mən hesab edirəm ki, belə sözün olmasına nail olmaq lazımdır. Biz Azərbaycan, dövlət, diyar haqqında danışırıq, amma bura respublikadır. Yaxşı olardı ki, burada "respublika" sözü olsun".

Təkidlər və məntiqli izahlar nəticəsində himnin mətninə "respublika" ifadəsi daxil edildi və Azərbaycan Ali Soveti Rəyasət Heyəti tərəfindən təsdiqləndi. Heydər Əliyev bu hadisəni belə qiymətləndirirdi: "Himn bizim ümumi iftixarımız, ümumi qürurumuzdur, sərvətimizdir. Mən özümü də hansısa dərəcədə bu himnin müəllifi hesab edirəm".

Azərbaycan dilinin inkişafı və qorunması sahəsində Heydər Əliyevin həssaslığı onun ikinci dəfə hakimiyyətə gəlməsindən sonra müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanması və qəbulunda da özünü göstərdi. Xüsusilə, Konstitusiyanın dillə bağlı maddəsinin televiziya vasitəsilə canlı yayımda və ziyalıların iştirakı ilə müzakirə edilməsi bu yanaşmanın bariz nümunəsi idi. Demokratik düşüncəyə malik böyük dövlət xadimi Heydər Əliyev müzakirələr zamanı iştirakçılara sərbəst fikir bildirmə imkanı vermiş, dövlət dilinin necə adlandırılacağı ilə bağlı müxtəlif təkliflərin səsləndirilməsinə şərait yaratmışdır.

Geniş müzakirələr nəticəsində 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dili kimi təsbit edilmişdir. Əsas qanun qəbul edildikdən sonra dövlət dili sahəsində məqsədyönlü və davamlı strateji siyasət həyata keçirilmişdir. Heydər Əliyev ana dilimizin tarixi irsi ilə yanaşı, onun mövcud durumunu və problemlərini daim diqqət mərkəzində saxlamış, bu sahədə mühüm tədbirlərin həyata keçirilməsinə nail olmuşdur.

Xüsusilə, 2001-ci il iyunun 18-də Ulu Öndər tərəfindən imzalanmış "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman müstəqil Azərbaycan dövlətinin dil siyasətinin formalaşması və möhkəmləndirilməsi baxımından tarixi əhəmiyyətə malik olmuşdur. Bu fərman həm də Azərbaycan Prezidenti yanında Dövlət Dil Komissiyasının yaradılmasını nəzərdə tutmuş, qanunvericilik bazasının möhkəmləndirilməsi və dilin daha da inkişaf etdirilməsi üçün sistemli tədbirlər planını əhatə etmişdir.

Ulu Öndərin təşəbbüsü ilə 9 avqust 2001-ci il tarixində Azərbaycan əlifbası və Azərbaycan dili günü təsis edilmiş, hər il avqustun 1-i ölkəmizdə qeyd olunmağa başlanmışdır. Həmçinin dövlət dili ilə bağlı siyasətin əsas sütunlarından biri kimi "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunun qəbul edilməsinə də nail olunmuşdur. Bu addımlar Heydər Əliyevin dilin qorunması və inkişafı sahəsində strateji baxışını və davamlı səylərini əks etdirir.

30 sentyabr 2002-ci ildə qəbul edilmiş qanuna əsasən, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Həmin qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq ölkədə Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır.

Bütün sahələrdə olduğu kimi, Heydər Əliyevin layiqli siyasi varisi, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu strategiyanı uğurla davam etdirir. Prezident İlham Əliyevin bu sahədə apardığı siyasətə qiymət verərkən onun latın qrafikası ilə Azərbaycan və dünya klassiklərinin əsərlərinin kütləvi tirajla Azərbaycan dilində çap olunmasını dəyərləndirmək lazımdır. Dövlət başçısının "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 1 noyabr 2018-ci il tarixli fərmanı ana dilimizin inkişafına dair mühüm əhəmiyyət kəsb edən çox vacib sənədlərdən biridir.

Prezident Ağdam Muğam Mərkəzinin açılışındakı çıxışında qeyd etmişdir ki, "Bizim mənəvi dəyərlərimizin, Azərbaycan dəyərlərinin inkişafı, qorunması üçün ədəbiyyatımızın, musiqimizin çox böyük əhəmiyyəti var. Muğam həm ədəbiyyatdır, həm musiqidir, həm də Azərbaycan dilinin saflığını qoruyan sənətdir".

Prezident İlham Əliyevin çıxışında əsas məqamlardan biri dilin qorunması və inkişafının məhz mədəniyyətlə vəhdətində öyrənilməsinin vacibliyidir. Milli dil məsələsi Prezident İlham Əliyevin siyasətində sistematik və prioritet xarakter daşıyır. Dövlətimizin başçısı AMEA-nın 80 illik yubileyində çıxışında deyib: "On il bundan əvvəl mən bu kürsüdən, eyni zamanda Azərbaycan dili haqqında danışmışdım, öz narahatlığımı ifadə etmişdim. Deyə bilərəm ki, son 10 il ərzində bu istiqamətdə lazımi addımlar atılıb. Ancaq desəm ki, vəziyyət məni tam qane edir, əlbəttə ki, səmimi olmaram. Azərbaycan dili çox zəngin dildir. Bu gün 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir. Ancaq təmiz, saf, ədəbi Azərbaycan dilinin qoruyucuları bizik - müstəqil Azərbaycan dövləti. Mən azərbaycanlıların yaşadıqları müxtəlif bölgələrdə vəziyyətlə müntəzəm surətdə tanış oluram, diqqətdə saxlayıram, lazımi tədbirlər görürəm. Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik".

Proqram xarakterli bu çıxışda Prezident İlham Əliyev vurğulayır ki, Azərbaycan dövləti dilimizin qorunmasında əsas vəzifə sahibidir. O, müstəqil dövlətin rəsmi dili kimi Azərbaycan dilinin inkişafı üçün geniş imkanların yaradılmasını nəzərdə tutaraq, vətəndaşları məsuliyyətli olmağa çağırır və Azərbaycan dilinin dünya azərbaycanlılarını birləşdirən mədəni dəyər olduğunu qeyd edir. Cənab Prezident çıxışında daha sonra deyib: "Hər bir millət, hər bir xalq üçün onun ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu, ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir".

Dövlət başçısı dilin saflığının qorunmasında dövlətin üzərinə böyük vəzifələr qoyur. Eyni zamanda Prezident dilin səciyyə xüsusiyyətlərinə toxunaraq, heç bir zərurət olmadan alınma sözlərin Azərbaycan dilinə gətirilməsini zərərli hesab edir. Azərbaycan dilinin saflığının qorunmasının hər bir Azərbaycan vətəndaşının işi olduğunu vurğulayan Prezident, bütün cəmiyyət zümrələrini - alimləri, dilçiləri, yazıçıları, şairləri, jurnalistləri və siyasətlə məşğul olan şəxsləri dilimizin keşiyində dayanmağa çağırır.

Prezident çıxışında bir neçə dəfə qeyd edir ki, on il əvvəl dil məsələsinə toxunmuşdur və bu, problemin təsadüfi xarakter daşımadığını göstərir. Dövlət başçısı öz narahatlığını dönə-dönə ifadə edərək, dili milli kimliyin ifadəsi və onun ən vacib komponenti kimi qiymətləndirir. "On il ərzində lazımi tədbirlər görüldü ki, biz dilimizi kənar kəlmələrdən qoruya biləK. Amma yenə də oradan-buradan eşidirəm - həm televiziyalarda, həm yazılı mediada, həm bəzi insanların çıxışlarında - buna heç bir gərək yoxdur. Yəni biz xalq kimi, millət kimi öz dilimizi qorumasaq, onda yavaş-yavaş bizim milli kimliyimiz də sarsıla bilər. Əminəm ki, mənim sözlərim hər kəsə çatacaq və özüm də daim bu məsələ ilə bağlı məşğul olacağam, izləyəcəyəm, lazımi tədbirlər görəcəyəm. Azərbaycan alimlərindən də bax bu məsələyə öz münasibətini və dəstəyini göstərmək çağırışını edirəm", - deyə Prezident bildirir.

Dövlət başçısının AMEA-nın 80 illik yubileyində bir çox vacib istiqamətlərlə yanaşı, dil məsələsinə də önəm verməsinin bir mühüm cəhəti də var. Bu, dövlətimizin mühüm istiqamətlərindən olan Qərbi Azərbaycan faktoru ilə bağlıdır. Əslində, zahirən görünməsə də, Prezidentin öz çıxışında ritorikanı həm də ana dilinin üzərində qurması Qərbi Azərbaycan siyasəti ilə birbaşa bağlıdır. Dövlət başçısının alimlərə müraciətində ana dilinə münasibətdə daha ciddi olmağa çağırışının altında Qərbi Azərbaycana qayıdışın dil kodu durur.

Qərbi Azərbaycan, sadəcə, ana torpaq, ana vətən deyil, həm də ana dili məsələsidir. Bu torpağı "analaşdıran", "vətənləşdirən" elə dil yaddaşıdır. Bu gün Qərbi Azərbaycan anlayışını ermənilərin və o cümlədən xalqımızın bədxahlarının qarşısında keçilməz qalaya çevirən bu regionun dil yaddaşı - toponimlər sistemidir. Qərbi Azərbaycanın dünya xəritələrində öz əksini tapmış dil yaddaşı ermənilərin bu regiondakı tarixini və ümumən varlığını birmənalı şəkildə inkar edir. Cənab Prezidentin AMEA-nın 80 illik yubileyində ana dilinə münasibəti vurğulamasının alt qatında məhz bu məna, bu siyasət durur.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın folklorumuzun, aşıq musiqisinin, muğamlarımızın, maddi və qeyri-maddi mədəni irsimizin inkişafında göstərdiyi misilsiz xidmətlər, ana dilimizin qorunması üçün ən vacib amillərdən biri kimi dəyərləndirilməlidir. Bu gün Heydər Əliyevi anaraq, onun milli dilin qorunması və inkişaf etdirilməsi sahəsində qoyduğu zəngin irsi xatırlayır və yüksək qiymətləndiririk.

*Ulu Öndərin əsas prinsipləri üzərində qurulan bu siyasət, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın məqsədyönlü səyləri ilə davam etdirilir. Azərbaycan dili yalnız milli kimliyimizin və mədəni-intellektual irsimizin ifadəsi deyil, həm də dövlətçiliyimizin və müstəqilliyimizin sarsılmaz təməlidir. Bu gün hər bir Azərbaycan vətəndaşı, dövlət və cəmiyyət birliyində, ana dilimizin saflığını qorumaq və gələcək nəsillərə çatdırmaq istiqamətində məsuliyyətini dərk etməli və bu müqəddəs vəzifəni şərəflə yerinə yetirməlidir.*

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar,***
***energetika və ekologiya komitəsinin sədri***

## Azərbaycanın özü qədər əbədi

# Heydər Əliyev siyasəti: Azərbaycan dövlətçiliyinin təməl prinsipləri



**Həyatda iz qoymuş elə insanlar var ki, onların ömür yolu və fəaliyyətləri həm də mənsub olduqları xalqların, təmsil etdikləri dövlətlərin qürur doğuran tarixidir. Xalqımızın Ümummilli Lideri, müasir Azərbaycanın dövlətçilik irsinin memarı Heydər Əliyev də məhz bu cür insanlar sırasında dayanan görkəmli tarixi şəxsiyyətdir. Anım günündə əziz xatirəsini bir daha ən böyük ehtiram və sevgi ilə yad etdiyimiz Ulu Öndərin bütün siyasi fəaliyyəti Azərbaycanın müasir tarixinin şərəfli bir epoxasını təşkil edir.**

Tale Heydər Əliyevə Azərbaycana iki dəfə rəhbərlik etmək kimi məsuliyyətli bir missiya həvalə edib. Və hər iki missiyasında dahi şəxsiyyət öz fəaliyyəti ilə Azərbaycanı yenidən qurub, respublikamızı tənəzzüldən inkişaf yoluna çıxarıb. Hər iki rəhbərliyi illərində Heydər Əliyev Azərbaycanı böhranlardan xilas edib, xalqımızın şərəfli tarixini yazıb və yaradıb. 1969-cu ildən Azərbaycanda başlayan Heydər Əliyev siyasətinin hər bir mərhələsi tariximizə yalnız qürur doğuran həqiqətlərlə həkk olunub və Ulu Öndərin müəyyən etdiyi strateji xətt bu gün də ölkəmizin yüksəliş və tərəqqi yolunun alternativi olmayan istinadgahıdır.

Tariximizdən məlumdur ki, neft ölkəsi olmasına, təbii sərvətlərlə zənginliyinə, böyük iqtisadi potensialına baxmayaraq, ötən əsrin 60-cı illərinə qədər Azərbaycan ittifaq miqyasında sadəcə aqrar respublika kimi tanınmışdı. Respublikamız bütün iqtisadi və sosial göstəricilərinə görə keçmiş ittifaq subyektləri arasında sonuncu yerlərdə qərarlaşmışdı. Hətta respublikada təhsilin səviyyəsi arzuolunan səviyyədə deyildi. Məhz belə bədbin reallıqlar şəraitində respublikaya rəhbər seçilən Heydər Əliyevin qısa müddətdə gördüyü işlər sayəsində Azərbaycan keçmiş ittifaqda yalnız daxili imkanları hesabına yaşamağa qadir olan 3-4 respublikadan birinə çevrilmişdi. Artıq ötən əsrin 70-ci illərində Azərbaycan ittifaq miqyasında inkişaf etmiş sənaye respublikası kimi tanınmağa başlamışdı. Başqa sözlə, Heydər Əliyev Azərbaycanı müstəqil ölkə kimi yaşaya biləcək səviyyəyə yüksəltmişdi.

Heydər Əliyev öz xalqının milli-mənəvi dəyərlərinə son dərəcə bağlı şəxsiyyət olmuşdur. Hələ respublikamıza birinci rəhbərliyi dövrünü təhlil edəndə Ulu Öndərin bu istiqamətdə nə qədər cəsarətli addımlar atdığını görürük. Sovet ideologiyasının hakim olduğu bir rejimdə milli-mənəvi dəyərləri qabartmaq asan deyildi. Lakin Heydər Əliyev böyük müdrikliklə xalqımızın özünəməxsus dəyərlərinin yaddaşlardan itməməsi, gələcək nəsillərə çatdırılması üçün əlindən gələni etmişdir.

Ötən əsrin 70-ci illərində Heydər Əliyevin respublikamızı inkişaf yoluna çıxarması elə bir atmosfer yaratmışdı ki, bu, həm də xalqımızın milli şüurunun oyanışına, milli dəyərlərimizin cəmiyyətdə daha çox qabardılmasına şərait yaratmışdı. Həmin dövrdə Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi təsbit olunması, kadr məsələsində milliyyətcə azərbaycanlıların önə çəkilməsi, Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəbin yaradılması, azərbaycanlı gənclərin təhsil üçün ittifaqın nüfuzlu ali məktəblərinə göndərilməsi, açıq fikirli yazıçı və şairlərimizin təqiblərdən qorunması və digər bu kimi məsələlər Heydər Əliyevin xalqın milli oyanışına xidmət edən vətənpərvər fəaliyyətinin göstəriciləri idi.

Bütövlükdə həm Azərbaycana birinci dövr rəhbərliyi dövründə, həm də ötən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvandakı fəaliyyəti illərində Heydər Əliyev dövlətə və xalqa layiqli xidmətin möhtəşəm tarixi nümunələrini yaratmışdı. Ona görə müstəqilliyimizin ilk illərində Azərbaycan dərin böhranlarla, tarixi sınaqlarla üz-üzə qaldığı dövrdə də xalqımız Heydər Əliyevə üz tutdu. 1992-ci ilin noyabr ayında Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycan ictimaiyyətinin Heydər Əliyevə olan inamının təzahürü idi.

Xalqın çağırışına səs verərək 1993-cü ildə yenidən ölkədə siyasi hakimiyyətə gələn Ulu Öndər müstəqilliyimizi qorudu, dövlətçiliyimizi itirilməkdən xilas etdi. Azərbaycan adlı müstəqil bir dövlətin mövcudluğu bir sıra siyasi mərkəzlər tərəfindən qısqanclıqla qarşılanırdı. Heydər Əliyev siyasi təcrübəsi ilə həmin siyasi mərkəzlərin respublikamızla bağlı həyata keçirməyə çalışdıqları bütün mənfur planları iflasa uğratdı. O cümlədən Heydər Əliyevin vahid komandanlıq əsasında yaratdığı Azərbaycan Ordusu nəinki Ermənistanın artan işğalçı hücumlarının qarşısını qətiyyətlə aldı, eləcə də Horadiz istiqamətində uğurlu döyüş əməliyyatları keçirərək, düşmənə ağır zərbə vurdu. 1994-cü ilin may ayında cəbhə xəttində atəşkəsin elan olunması qarşıda duran strateji və dövlət quruculuğu ilə bağlı vəzifələrin sürətlə həyata keçirilməsi üçün əlverişli zəmin yaratdı.

Beləliklə, əgər Heydər Əliyev birinci rəhbərliyi dövründə Azərbaycanı keçmiş SSRİ-də qabaqcıllar sırasına çıxarmışdısa, ikinci rəhbərliyi dövründə müstəqilliyimizi və dövlətçiliyimizi qorumuş, müasir Azərbaycan dövlətini yaratmışdır. Heydər Əliyev həm də dövlətimizin etibarlı və sarsılmaz təməllərini formalaşdırmışdır. Ulu Öndərin müəyyən etdiyi və Yeni Azərbaycan Partiyasının proqramında əksini tapan müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunların aliliyi, varislik və təkamül, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət, demokratik ənənələrin inkişafı kimi prinsiplər bu təməllərin əsasında dayanır. Bu ideoloji prinsiplərə söykənərək Azərbaycan inkişaf yoluna qədəm qoymuş, dünya birliyində özünə layiqli yer tutmuşdur.

1993-2003-cü illərdə Azərbaycanın bütün problemlərdən xilas olaraq hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoyması həm də belə bir həqiqəti təsdiq edirdi ki, heç bir siyasi proqram Heydər Əliyevin müəyyən etdiyi siyasi kursa alternativ ola bilməz. Başqa cür desək, ölkə ictimaiyyəti Heydər Əliyev siyasətinə heç bir alternativ görmürdü və bu, hələ 2003-cü ildə keçirilən prezident seçkilərində, xalqımızın İlham Əliyevin ətrafında səfərbər olmasında özünün aydın ifadəsini tapdı. Onu da qeyd edək ki, Heydər Əliyev görkəmli dövlət xadimi, təcrübəli siyasi strateq kimi özünün təcrübəsinə əsaslanaraq Azərbaycanın məhz İlham Əliyevin rəhbərliyi ilə qarşıda duran bütün problemləri həll edəcəyinə, xalqımızın İlham Əliyevin liderliyi ilə tarixi nailiyyətlər qazanacağına inanırdı. Bu inam Ulu Öndərin 2003-cü ilin oktyabr ayının 1-də xalqımıza etdiyi müraciətdə də ifadə olunub.

Xalqımızın XX əsrdə yetirdiyi ən böyük şəxsiyyətlərdən olan Heydər Əliyevin siyasi irsi hər zaman öyrənməli siyasət məktəbidir. Çünki müstəqil dövlətimizin bərqərar edilməsinin və müasir dövlətçiliyimizin ideoloji prinsiplərinin və konseptual əsaslarının müəyyən edilməsi məhz Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Ümummilli Lider Azərbaycanda xalqımızı bir məfkurə əsasında birləşdirən milli dövlətçiliyi ideoloji konsepsiya olaraq formalaşdırıb və bununla da Azərbaycanın suverenliyinin və davamlı yüksəlişinin sarsılmaz təməllərini yaradıb.

Ötən 22 ildə Azərbaycan dövlətinin qazandığı bütün nailiyyətlər Heydər Əliyev yolunun davamıdır. Heydər Əliyevin siyasi kursunu Prezident İlham Əliyevin yaradıcı şəkildə, uğurla davam etdirməsi, onu yeni dövrün çağırışlarına cavab olaraq zənginləşdirməsi Azərbaycana tərəqqi və yüksək sosial rifah bəxş edir. Azərbaycanın sınaqlardan çıxmış Heydər Əliyev dəyərləri və siyasi kursu işığında inkişafı beynəlxalq aləmdə ona böyük nüfuz qazandırır. Azərbaycan dünyada sülhün, ədalətin, insan hüquq və azadlıqlarının təmin olunduğu dövlət kimi tanınır, bəşəriyyəti narahat edən qlobal problemlərin həllində fəallıq göstərir. Heydər Əliyev yolu xalqımızın gələcəyinə istiqamətlənmiş, Azərbaycan dövlətinin tərəqqisinə və möhkəmlənməsinə xidmət edir. Bu siyasi kurs milli çağırışların qlobal çağırışlarla uzlaşdırılması əsasında varislik və təkamül yolu ilə inkişaf edir.

Bu dövrdə ölkəmizin iqtisadi həyatında tarixi intibah baş verib, inkişafın Azərbaycan modeli formalaşıb, vətəndaşların sosial rifahı yüksəlib, yoxsulluğun və işsizliyin səviyyəsi minimuma enib. Və bütün bunlar bir daha göstərir ki, Heydər Əliyev yolu layiqincə davam etdirilib, Ulu Öndərin ideyaları respublikamızın tərəqqisinə xidmət edib. Heydər Əliyev yolu siyasi müdrikliyi, illərlə toplanmış böyük dövlətçilik təcrübəsini, qətiyyətli siyasi iradəni və Azərbaycanın hərtərəfli inkişafını nəzərdə tutan ideya-siyasi baxışlar sistemidir. Bu siyasi xətt müstəqil dövlətçiliyin möhkəmlənməsini və inkişafını təmin edir, onun vasitəsilə Azərbaycanın milli inkişaf strategiyasının istiqamətləri müəyyən olunur. Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs Azərbaycanın bu günü və gələcəyi üçün aktuallıq kəsb edən siyasi məktəb kimi özünü təsdiq etmişdir. Bu yol Azərbaycanın sarsılmaz təməlidir.

Prezident İlham Əliyev Heydər Əliyevin siyasi yolunu layiqincə davam etdirərək Azərbaycanı regional proseslərin önündə gedən qabaqcıl dövlətə çevirib. Bu siyasətin nəticəsidir ki, Azərbaycan regionun real gücü, qlobal proseslərə töhfələr verən, əməkdaşlığa sadiq dövlət kimi tanınır. Azərbaycanın reallaşdırdığı enerji və nəqliyyat layihələri, habelə Orta dəhlizin inkişafına verdiyi mühüm töhfələr respublikamızı regional və qlobal siyasi-iqtisadi müzakirələrin fəal tərəfdaşına çevirmişdir.

Təsadüfi deyil ki, Azərbaycan həm də dünyanın bütün siyasi qütbləri ilə strateji tərəfdaşlıq əlaqələrinə malikdir. Bütün siyasi platformalarda ölkəmiz ehtiramla qarşılanır. Prezident İlham Əliyev isə dünyanın ən nüfuzlu siyasi liderləri ilə bir cərgədə dayanır. Bunun dövlətimizin başçısının avqust ayında dünyanın aparıcı siyasi-iqtisadi qütbləri olan ABŞ və Çinə səfərləri zamanı şahidi olduq. İlham Əliyev Avropada, türk dünyasında və Mərkəzi Asiyada da böyük nüfuza malikdir. Sentyabrda keçirilən BMT Baş Assambleyasının 80-ci sessiyası, oktyabrda Kopenhagendə keçirilən "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə Görüşü, Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının 12-ci Zirvə Görüşü, Misirdə keçirilən Yaxın Şərq Sülh Sammiti, Düşənbədə keçirilən MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası, noyabr ayında Daşkənddə keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşü bu nüfuzun nümayişi oldu. Həmin tədbirlərin hər biri Azərbaycanla əməkdaşlığa böyük marağın və Prezident İlham Əliyevin yüksək nüfuzunun növbəti təsdiqinə çevrildi.

Heydər Əliyev yolunun, İlham Əliyev siyasətinin ən böyük hadisəsi əlbəttə ki, ərazilərimizin işğaldan və separatizmdən azad edilməsidir. Vaxtilə Ulu Öndər Heydər Əliyev Qarabağ probleminin ədalətli və ölkəmizin milli maraqları çərçivəsində həlli üçün etibarlı siyasi və hərbi təməllər formalaşdırdı. Prezident İlham Əliyev isə bu təməlləri daha da möhkəmləndirərək, xalqımızın yeganə ağrılı problemini qətiyyətlə yoluna qoydu. Artıq ərazi bütövlüyümüz təmin edilib, Qarabağda erməni separatçılığına son qoyulub. Böyük qürurla qeyd etməliyik ki, cənab İlham Əliyevin yaratdığı bu reallıqlar beynəlxalq səviyyədə tam qəbul edilir. Avqust ayında Vaşinqtonda sülh sazişi layihəsinin paraflanması, dekabrın 1-də ATƏT tərəfindən Minsk prosesinin və onunla əlaqəli strukturların ləğvinin tam başa çatdırılması bunu təsdiq edir. Proseslər həm də onu göstərir ki, Prezident İlham Əliyevin siyasi qətiyyətinin nəticəsi kimi Azərbaycanla Ermənistan arasında yekun sülh sazişi də imzalanacaq.

*Nail olduğumuz bütün bu uğurlar, o cümlədən keçmiş məcburi köçkünlərin hazırda Qarabağ və Şərqi Zəngəzura qayıdışları Heydər Əliyev ideyalarının təntənəsidir və bütün bunlar Azərbaycanın böyük uğurları, ölkəmizin beynəlxalq birliyin aparıcı aktoru olduğunu göstərən amillərdir. Ulu Öndər də Azərbaycanı belə görmək istəyirdi. Ulu Öndərin anım günündə bütün bunlara nəzər salmaqla onu xatırlayır, əziz xatirəsini dərin ehtiram hissi ilə yad edirik. Və bir daha əmin oluruq ki, Heydər Əliyev yolu bundan sonra da davam edəcək, Azərbaycanı növbəti uğurlara aparacaq, yeni zirvələrə yüksəldəcək.*

***Mübariz QURBANLI,***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü***

# Heydər Əliyevin siyasi irsi - dövlətçilik tarixi

**Müasir dövlətçilik tariximizin taleyüklü məqamları və ən böyük uğurları dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Müdrik dövlət xadimi Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində milli maraqların qorunmasına, mənəvi dəyərlərin və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən misilsiz işlər görüb və Azərbaycanın müstəqilliyinin daimiliyini, inkişafını və tərəqqisini təmin edib.**

Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqı tərəfindən hər zaman böyük ehtiramla yad edilir. Çünki Ümummilli Liderimiz Azərbaycan naminə bütün ömrünü fəda etmiş böyük şəxsiyyətdir. Məhz dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətlərinə görə hər bir azərbaycanlı öz qəlbində Heydər Əliyev abidəsi ucaldıb.

Ulu Öndər Heydər Əliyevin siyasi irsi, əslində, dövlətçilik tarixidir. O, bir-birindən kəskin fərqlənən iki ayrı dövrdə - həm SSRİ dönəmində, həm də müstəqillik illərində respublikamıza uğurla rəhbərlik edib, milli tərəqqini, iqtisadi inkişafı, mədəni intibahı və siyasi yüksəlişi təmin etməyə müvəffəq olub. Ümummilli Liderin iki fərqli dövrdə gördüyü işlər Azərbaycanın siyasi simasını, milli obrazını formalaşdırıb.

İlk növbədə qeyd etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyev müstəqillikdən öncə respublikamızın perspektivi üçün güclü iqtisadi dayaqlar, siyasi sütunlar yaratmağa müvəffəq olmuşdur. 1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyev islahat xarakterli tədbirlər vasitəsilə respublikamızı tənəzzüldən xilas edərək inkişaf yoluna çıxarmışdır. Azərbaycan aqrar ölkədən sənaye ölkəsinə çevrilmiş, güclü kadr bazası formalaşdırmışdır. Ulu Öndərin 1969-1982-ci illərdə respublikamıza rəhbərliyi Azərbaycanın siyasi tarixinin mühüm səhifələrindən biridir.

Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyəti də mühüm ictimai-siyasi və ideoloji əhəmiyyətə malikdir. Faktlara diqqət edək: Ulu Öndərin təşəbbüsü ilə ilk dəfə olaraq Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımız qaldırılıb, Naxçıvan MSSR adından "Sovet, Sosialist" ifadəsi çıxarılıb, 1990-cı il yanvar ayının 20-də Bakıda törədilmiş qanlı hadisələrə siyasi qiymət verilib, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılmasına dair keçirilən referendumda iştirak etməməsi haqqında qərar qəbul edilib, 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qərar verilib. Bütün bunlar Azərbaycan dövlətçiliyinin siyasi və ideoloji əsaslarının gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olmaqla yanaşı, müstəqilliyə gedən yolda müstəsna önəm daşıyıb. Bu gün Azərbaycan xalqı öz müstəqil, nüfuzlu və qüdrətli dövləti ilə qürur duyur. İftixarla vurğulayırıq ki, müasir müstəqil Azərbaycan dövləti Ümummilli Lider Heydər Əliyevin şah əsəridir.

Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər isə Azərbaycanın ən yeni tarixinə müstəqil dövlət quruculuğu, sosial-iqtisadi inkişaf və siyasi yüksəliş dövrü kimi həkk olunub. Həmin dövrdə bugünkü tarixi uğurlarımızın, o cümlədən möhtəşəm Zəfərimizin fundamental əsasları yaradılıb. Hər bir Azərbaycan vətəndaşı yaxşı bilir ki, həm sovetlər dönəmində, həm də müstəqillik illərində Ulu Öndər Heydər Əliyev Azərbaycanın yüksəlişi naminə fədakarlıqla çalışıb. Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatının elə bir sahəsi yoxdur ki, o sahənin inkişafı Ulu Öndərin adı ilə bağlı olmasın. Məhz Azərbaycanda müstəqilliyin əbədi və dönməz xarakter alması, milli-mənəvi yüksəliş, azərbaycançılıq ideyalarının bərqərar olması, gələcək inkişaf üçün güclü və möhkəm əsasların yaradılması Ulu Öndərin zəngin təcrübəyə, parlaq zəkaya, ali liderlik qabiliyyətinə, yüksək siyasi idarəçiliyə əsaslanan siyasətinin həyata keçirilməsi nəticəsində mümkün olub. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr minilliklər boyu davam edən dövlətçilik tariximizin şanlı səhifəsinə çevrilib.

Ümumiyyətlə, müasir Azərbaycanın bugünkü reallığı Ulu Öndər Heydər Əliyevin milli və bəşəri məzmunlu ideyalarının əbədiyaşarlığını aydın ifadə edir. Böyük öndərimiz iyirmi ildən çoxdur cismən aramızda olmasa da, ideyaları əbədi yaşayır. İllər keçdikcə bu dahi şəxsiyyətin Azərbaycan naminə gördüyü işlərin miqyası daha aydın şəkildə dərk olunur. Bütün həyatını dövlətə sədaqətlə xidmətə həsr etmiş Ulu Öndər öz titanik fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Ulu Öndər öz müdrikliyi, cəsarəti ilə Azərbaycan xalqının sevgisini qazanmışdır. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Heydər Əliyev müstəqilliyi, xalqın, dövlətin maraqlarını qoruyacaq və ən düzgün qərar verəcək.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi misilsiz xidmətləri Azərbaycan vətəndaşları, dünyada yaşayan bütün azərbaycanlılar heç vaxt unutmayacaq. Heydər Əliyev Azərbaycanın böyük inkişaf epoxasını yaradıb, respublikamızın hərtərəfli intibahını təmin edib. Müstəqil Azərbaycan bu möhkəm əsaslar üzərində daim zirvələrə doğru irəliləyib.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu ölkəmizin ərazi bütövlüyünün təmin olunması idi. Şuşanı Azərbaycanın rəmzi kimi səciyyələndirən Ulu Öndər inamla bildirirdi ki, biz doğma yurd yerlərimizə mütləq qayıdacağıq. Onun bu inamı insanların qəlbində, sözün əsl mənasında, ümid çırağı yandırırdı. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində Ulu Öndərin başladığı müqəddəs işləri onun layiqli davamçısı, Prezident İlham Əliyev məntiqi sonluğa çatdırdı. Heydər Əliyev irsini müasir çağırışlara uyğun zənginləşdirərək varislik prinsipi əsasında uzaqgörən və məqsədyönlü siyasət həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyev xalqımıza şanlı dövlətçilik tarixinin ən möhtəşəm uğurlarını qazandırıb. Bu nailiyyətlərin zirvə nöqtəsi isə 30 il ərzində Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi və ölkəmizin suverenliyinin tam bərpasıdır. Heydər Əliyevin arzularını, vəsiyyətlərini Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev şərəflə yerinə yetirdi. 2020-ci ildə 44 günlük Vətən müharibəsində ordumuz onun rəhbərliyi ilə misilsiz şücaətlər göstərərək ölkəmizin ərazi bütövlüyünü təmin etdi. 2020-ci il noyabrın 8-də Şuşanın azad edilməsi ilə Heydər Əliyevin "Biz Şuşaya mütləq qayıdacağıq" arzusu reallığa çevrildi.

*Beləliklə, Ulu Öndərin müəyyənləşdirdiyi bütün strateji hədəflər reallığa çevrilir, ölkəmizin qarşısında yeni perspektivlər açılır. Azərbaycanın beynəlxalq mövqeyi, o cümlədən tarixi Zəfərimizin əsasları möhkəmləndirilir. Qarabağda və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq işlərinə paralel olaraq Böyük qayıdış prosesi uğurla həyata keçirilir və bütöv Azərbaycanın milli gücü gündən-günə artır. Qazanılan möhtəşəm nailiyyətlərin əsasını qoyan Ulu Öndər Heydər Əliyevin işıqlı ideyaları əbədi olaraq yaşayacaq!*

***Pərvin KƏRİMZADƏ,***
***Milli Məclisin deputatı***

# Azərbaycanın özü qədər əbədi

**İnsan ömrü yalnız illərin toplusu deyil, həm də bir dəyərdir, örnəkdir, nümunədir. Ömrünə məna verənlər həm özlərini yaşadır, xatırlanır, həm də fəaliyyətləri, amalları, əməlləri ilə başqalarına yol göstərir, uğur qazandırırlar.**

**Taleyini xalqa bağlayanlar, həyatını vətənin inkişafına, azadlığına, müstəqilliyinə həsr edənlər sağlıqlarında sevindikləri, etimada, hörmətə layiq görüldükləri kimi, dünyalarını dəyişdikdən sonra da unudulmurlar, daim xatırlanır və yad edilirlər.**

**Bu, vətən, xalq yolunda həyatını qurban verənlərin haqqıdır və həm də xalqın öz övladlarına, şəxsiyyətlərinə daim ehtiramının ifadəsidir. Azərbaycan xalqı bu keyfiyyətləri ilə öz böyüklüyünü nümayiş etdirməklə bərabər, yaxşını yamandan, arifi nadandan, dostu düşməndən seçmək bacarığına malik olduğunu təsdiq edir.**



## Türk dünyasının siyasət və dövlət dahisi

Ulu Öndərimiz Heydər Əliyevin şəxsiyyətinə, fəaliyyətinə, bəşəri ideyalarına verilən qiymətdə, xalqın öz rəhbərinə sonsuz məhəbbətində, sədaqətində bunu aydın görür və hiss edirik. Dahi rəhbər hər an, hər saat, hər gün anılır, yad edilir və öz ideyaları ilə Azərbaycanı sevən hər bir kəsin evinin qonağı olur, qəlbinin sakini, dilinin əzbərinə çevrilir.

Bu səbəbsiz deyil. Çünki Heydər Əliyev bütün həyatını Azərbaycan xalqının inkişafına, səadətinə, xoşbəxtliyinə, respublikanın tanıdılmasına, şöhrətlənməsinə, sözünü deməyə qadir olmasına sərf etmiş, hakimiyyətdə olduğu illərdə etdiyi inqilabi dəyişikliklər, islahatlar, yenidənqurmalarla, siyasi gedişlərlə yeni bir tarix yaratmışdır, yazmışdır.

1969-cu ildə Azərbaycana rəhbərliyə gələn Heydər Əliyev respublikanı iqtisadi-mənəvi böhrandan xilas etmiş, geridə qalan bir respublikanı ittifaqın qabaqcılları sırasına çıxarıb əhalinin sosial rifahını yaxşılaşdırmış, mənəvi həyatı zənginləşdirmiş, öz düşüncələri, əməlləri ilə hər bir insan üçün nümunə mənbəyi yaratmışdır.

Bu təşkilatçılıq, idarəetmə, xeyirxahlıq, sədaqət, hörmət, insana qayğı, dəyər, ehtiram nümunəsidir. Prinsipiallığın, iradənin, qətiyyətin, savadın, qabiliyyətin bu nümunələrlə sintezi Heydər Əliyevi nəinki xalqımıza, bütün dünyaya müdrik, uzaqgörən, vətənini sonsuz məhəbbətlə sevən, onun taleyi yolunda bütün səy və bacarığını əsirgəməyən bir siyasətçi, rəhbər kimi təqdim etmişdir. Məhz bu keyfiyyətlərin nəticəsində Heydər Əliyev Sovet İKP MK Siyasi Bürosunun üzvi seçilmiş, SSRİ Nazirlər Sovetinin birinci müavini kimi yüksək bir vəzifəyə irəli çəkilmiş və o, ittifaq rəhbərləri arasında öz siyasi mövqeyinə, fəaliyyətinə görə daha çox seçilmiş, tanınmış və xalqlar arasında böyük hörmət qazanmışdır.

O dövrdə Heydər Əliyevin fəaliyyəti, həyata keçirdiyi tədbirlər, etdiyi çıxışlar nəinki ittifaqda, bütün dünyada diqqətlə izlənilir, böyük maraq doğurur və ona böyük hörmət qazandırırdı. Dünyanın tanınmış siyasətçiləri, dövlət xadimləri, bir çoxları bu gün də Ulu Öndərimizin yüksək təşkilatçılıq qabiliyyətindən, insanpərvərliyindən, prinsipiallığından, obyektiv siyasi mövqeyindən qürurla söz açırlar.

Heydər Əliyev qazandığı bu böyük hörmətin, inamın sayəsində xalqın təkidi və tələbi ilə Azərbaycanın fəlakətli günlər, anlar yaşadığı 1993-cü ilin iyununda ikinci dəfə hakimiyyətə gəldi. Həyatını təhlükə qarşısında qoysa da, xalqın iradəsini qəbul etdi, inamları, istəkləri sarsıtmadı, gözləri yolda, ürəkləri səksəkədə, təlaşda qoymadı.

Özbaşınalığın baş alıb getdiyi, torpaqları hər gün işğal altına düşdüyü, silahlı qruplaşmaların cövlan etdiyi, iqtisadi cəhətdən böhran yaşadığı, əhalisi dilənçi vəziyyətinə düşdüyü respublikada o dövrdə rəhbərliyə gəlmək, əlbəttə, insanın öz həyatını təhlükəyə atması demək idi. Heydər Əliyev bütün bunları yaxşı bilirdi və bu çətinlikləri çox görmüş, çox sınaqlardan mətanətlə çıxmışdır.

Dünyanı lərzəyə salan Sovet İttifaqının, Qorbaçov kimi şovinist bir rəhbərin qarşısında öz sözünü deməyi bacaran, haqsızlığa, ədalətsizliyə baş əyməyən, Azərbaycan xalqına edilən xəyanətlərin hər an tutarlı cavablarını verən Heydər Əliyev ölkənin ağır, xalqın çətin günündə mübarizədən kənarda qala bilməzdi. O, heç vaxt bunu özünə bağışlamaz, xalqdan kənarda qalmaz, insanların - onu sevənlərin, istəyənlərin, köməyinə ümid edənlərin, inam bəsləyənlərin arzusunu gözündə qoymazdı.

Heydər Əliyev tək müdrik siyasətçi, dövlət rəhbəri deyildi, o, həm də əsl vətənpərvər, sədaqətli vətəndaş, canı-qanı ilə xalqına, torpağına bağlı azərbaycanlı idi. Məhz vətən, xalq sevgisi onu ucaltmış və ikinci dəfə hakimiyyətə gətirmişdi.

Ulu Öndərimiz xalqın etimadını doğrultdu, çətin bir dövrdə ölkədə tez bir zamanda ictimai-siyasi sabitlik yaratmaqla, silahlı qruplaşmaları ləğv etməklə, atəşkəsə imza atıb işğalın qarşısını almaqla, "Əsrin müqaviləsi"ni bağlamaqla, beynəlxalq əməkdaşlığı genişləndirməklə, əsaslı islahatlar həyata keçirməklə, torpağı sahibinə verməklə, sahibkarlığa, bazar iqtisadiyyatına yol açmaqla, orduda nizam-intizamı təmin etməklə, idarəetmə sistemində nəzarəti gücləndirməklə inkişafa doğru addımlayan yeni bir Azərbaycan qurdu.

Heydər Əliyev müstəqilliyi əldən gedən, onun-bunun himayəsinə sürüklənən, özgələrin əlinə göz dikən, beynəlxalq aləmdə nüfuzu olmayan, səsi eşidilməyən, harayına səs verilməyən, parçalanma, bölünmə qarşısında qalan, insanları bir tikə çörək üçün növbələrdə mürgüləyən, büdcəsində vəsaiti, torpağında məhsulu, bağçasında barı olmayan Azərbaycanı ağ günə çıxarmağı, münaqişələrin qarşısını almağı qətiyyətlə bacardı və dünyaya bir daha yenilməz rəhbər, müdrik siyasətçi, qətiyyətli insan və əsl azərbaycanlı, vətənpərvər olduğunu sübut etdi.

Amerika Birləşmiş Ştatlarının sabiq Prezidenti Corc Buş bildirirdi ki, Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanı XXI əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

Göründüyü kimi, Heydər Əliyevin ideyaları, fəaliyyəti yalnız yaşadığı, rəhbər olduğu XX əsrlə məhdudlaşmır, bu günümüzə, gələcək əsrlərə də işıq saçır. Bu ideyaların uğurları nəinki iqtisadi-siyasi, mənəvi sahələrdə, azərbaycançılıq ideologiyasının genişlənməsində, dünya azərbaycanlılarının birliyində, türk dövlətlərinin bir məqsəd uğrunda mübarizəsində, formalaşmasında, dönməz bir qüvvəyə çevrilməsində özünü aydın nümayiş etdirir.

Türkiyə Respublikasının sabiq Prezidenti Süleyman Dəmirəlin sağlığında səsləndirdiyi: "Heydər Əliyev türk dünyasının lider simalarından, ulduzlarındandır və məmləkətinə, həm də türk dünyasına böyük xidmətlər göstərmişdir... Heydər Əliyev türk dünyasının siyasət və dövlət dahisidir" ifadələri bu günümüzlə həmahəng səslənir, Ulu Öndərimizin ideyalarının türk dövlətlərinin rəhbərləri - xüsusilə Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev tərəfindən sədaqətlə həyata keçirilməsi qürur doğurur.

Bu gün azərbaycançılıq və türkçülük məfkurəsi ortaqdı, qarşılıqlıdır. Məqsəd, yol eynidir - müstəqillik, azadlıq, bərabərlik, təhlükəsizdir və xalqların xoşbəxtliyi, gələcək inkişaf. Türk dövlətləri bu istiqamətlərdə birləşirlər, öz forumlarını, sammitlərini, tədbirlərini təşkil edir, planlarını qurur, yollarını müəyyənləşdirirlər.

Bu ideyalar Heydər Əliyevdən gəlmədir. Sağlığında Türkiyə, Qazaxıstan, Özbəkistan və digər türk respublikalarının rəhbərləri ilə sıx dostluq, qardaşlıq əlaqələri yaradan Ulu Öndərimizin arzuları, istəkləri reallaşır, iqtisadi-siyasi mədəni həyatda, əməkdaşlıqda, sağlam münasibətlərdə öz ifadəsini tapır.

Türk Dövlətləri Təşkilatının təşkilatlanması, güclü bir birliyə, qüvvəyə çevrilməsi türkdilli xalqların həyat amalıdır və bu ölkələrin milli təhlükəsizliyinin təmin edilməsi, müstəqilliyinin qorunması, inkişafı baxımından olduqca əhəmiyyətlidir. Prezident İlham Əliyevin bu istiqamətdə fəaliyyəti çoxsahəli və səmərəlidir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bu birliyə böyük önəm verir və bildirir: "Böyük Heydər Əliyevin ruhu şad olsun deyə, biz türk dünyasının qardaşlıq münasibətlərini və birliyini qoruyub möhkəmləndirməyə çalışmalıyıq".

Nəinki xalqımız, bütün dünya yaxşı bilir və qeyd edildiyi kimi, müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatın son 30 ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi müdrik siyasət xadimi, dövlət rəhbəri kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin - Heydər Əliyevin adı, əməli fəaliyyəti ilə gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır.

O, öz şəxsiyyəti, bəşəri ideyaları, fəaliyyəti, ölməz irsi ilə Azərbaycan tarixinin unudulmaz səhifələrini yazmış və yeni bir eranın, inkişafın təməlini qoymuşdur. Heydər Əliyevin zəngin siyasi irsindən bəhrələnənlər, bu böyük məktəbdən dərs alanlar, dahi rəhbərin yolunu tutanlar və ölkəmizin inkişafı üçün çalışanlar xoşbəxtdirlər.

Çünki Heydər Əliyev yolu müqəddəs yoldu, haqqa-ədalətə söykənən, insanın azadlığına, firavanlığına, dövlətlərin inkişafına və müstəqilliyinə aparan yoldu. Dahi rəhbər Milli Məclisin 15 iyun 1993-cü il iclasındakı çıxışında qətiyyətlə bildirirdi: "Ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm... Azərbaycan Respublikası bundan sonra onun başına nə gəlirsə gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarətinə düşməyəcək..."

Uzaqgörən rəhbərimiz tərəfindən otuz il bundan əvvəl inamla söylənilmiş bu ifadələr indi Prezident İlham Əliyev tərəfindən qətiyyətlə, uğurla reallığa çevrilmişdir. İndi Azərbaycan tam suverendir. Torpaqlarımız erməni təcavüzkarlarından tamamilə təmizlənmiş, ordumuz gücləndirilmiş, sərhədlərimiz möhkəmləndirilmişdir.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin düşünülmüş siyasi, hərbi gedişləri, ordumuzun gücü və cəsarəti, xalqımızın birliyi sayəsində Azərbaycan öz qəhrəmanlıq tarixini şərəfləndirmiş, dünyaya mətin, mübariz, torpaqlarını müdafiə etməyə, düşmənə qalib gəlməyə qadir olan dövlət, xalq kimi özünü göstərmişdir. O heç bir ölkədən asılı deyil, heç kimin diktəsi ilə işləmir və təsir altına düşməmişdir.

Azərbaycan tam azad, inkişaf edən beynəlxalq aləmdə tanınan, söz sahibi olan, xalqın xoşbəxtliyinə, rifahına xidmət edən bir dövlətdir.

Heydər Əliyevin arzuladığı kimi, Azərbaycan çox böyük sınaqlardan çıxaraq öz gücünü toplaya bildi, milli birliyini, vətəndaş həmrəyliyini, vətən, torpaq məhəbbətini bütün dünyaya göstərməyə nail oldu. Ulu Öndərimizin işğaldan azad olunması uğrunda illərlə mübarizə apardığı və azad olunacağına böyük ümid bəslədiyi Qarabağ və Şərqi Zəngəzur torpaqlarında indi möhtəşəm tikinti, bərpa, quruculuq işləri görülür, şəhər və kəndlər yenidən qurulur, xarabazarlığa çevrilən ərazilər gülüstana çevrilməkdədir.

Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş ərazilərə səfərləri, sakinlərlə görüşləri, işlərin gedişi ilə tanışlıq, çox mühüm infrastruktur layihələrinin uğurla həyata keçirilməsi, məskunlaşma prosesinin sürətləndirilməsi Qarabağ və Şərqi Zəngəzur torpaqlarına yeni mənalı həyat bəxş edir və xalq tərəfindən təqdir edilir.

İşğaldan azad edildikdən keçən dövr ərzində ərazilərin bərpasına 22 milyard manatdan çox vəsaitin ayrılması, ölkə rəhbərinin həyata keçirilən bütün tədbirlərə bilavasitə nəzarət etməsi, inşaat işlərinin gündən-günə sürətləndirilməsi, müasir şəhərsalma tələbləri əsasında yeni yaşayış massivlərinin salınması, yolların çəkilməsi, məktəblərin, xəstəxanaların, mədəniyyət ocaqlarının tikilməsi, iş yerlərinin yaradılması Heydər Əliyev arzularının, istəklərinin çiçəklənməsidir. Prezident İlham Əliyevin xalqına sayğısının, vətəninə məhəbbətinin Ulu Öndərimizin ölməz ideyalarına sədaqətinin ifadəsidir.

Müstəqil Azərbaycan Respublikası demokratik, hüquqi cəmiyyət qurmaq yolunda inamla addımlayır. Dinindən, dilindən, irqindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları eyni hüquqlara malikdirlər və hər bir insanın hüququ qorunur, rifahının yaxşılaşması üçün əsaslı tədbirlər görülür.

Heydər Əliyevin müstəqilliyimizin, ərazi bütövlüyümüzün, milli-mənəvi dəyərlərimizin qorunub möhkəmləndirilməsi, milli vətənpərvərlik hisslərinin yüksəldilməsi, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, dünya azərbaycanlılarının birliyinin təmin olunması, dilimizin, tariximizin, dinimizin sevilməsi və təbliğ olunması, iqtisadiyyatın inkişaf etdirilməsi, ordunun gücləndirilməsi sahəsində qarşıya qoyduğu vəzifələr xalqı ilə daim bir yerdə, bir cəbhədə olan Prezidentimiz İlham Əliyev tərəfindən uğurla yerinə yetirilir.

Bu gün dünya xəritəsində iqtisadiyyatı sürətlə inkişaf edən, möhkəm, qüdrətli orduya, mütəşəkkil və vahid xalqa, beynəlxalq aləmdə tanınan, seçilən və tutarlı mövqeyə malik olan bir Azərbaycan var. O Azərbaycan ki, Heydər Əliyevin bəşəri ideyalarından güc alaraq Prezident İlham Əliyevin fədakarlığı, yüksək təşkilatçılığı və qayğısı nəticəsində hər ay, hər il yeni uğurlara imza atır, xalqını sevindirir, dövləti möhkəmləndirir və öz şəhidlərinin, onun uğrunda həyatını qurban verən dahilərin, insanların ruhunu şad edir.

*Heydər Əliyevin - öz ömrünü, həyatını Azərbaycanın dünəni və bu günü, gələcəyi yolunda əsirgəməyən, ölkəmizi ən çətin günlərdə bəlalardan, fəlakətlərdən qurtaran, inkişaf etdirən, türk dünyasının, Azərbaycanımızın ən görkəmli şəxsiyyəti, siyasi xadimi, rəhbəri kimi tanınan və Ümummilli Lider kimi əbədiləşən bir insanın, vətənpərvərin ruhu şaddır, daha çox sevinir. Çünki o milyonların qəlbindədir, hər an anılır, yad edilir və əzizlənir. Belə ehtirama, hörmətə, diqqətə layiq olan insan - Ulu Öndərimiz, əlbəttə, xoşbəxtdir, əbədidir. Heç bir zaman unudulmayacaq, anılacaq və nəsillərin qəlbində, tarixdə əbədi yaşayacaqdır. .*

**Tahir RZAYEV,**
**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri**

## Azərbaycanın xilaskarı

**Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi xalqımız tərəfindən hər zaman böyük minnətdarlıqla yad olunur. Müasir, müstəqil Azərbaycan məhz bu dahi şəxsiyyətin siyasi fəaliyyətinin şah əsəridir. Ölkəmizin bugünkü bütün nailiyyətlərinin təməlində Heydər Əliyev ideyaları, onun siyasi kursunun davam etdirilməsi dayanır. Vəfatının 22-ci ildönümündə bir daha Heydər Əliyevi yad edir, dövlətimiz və xalqımız qarşısındakı xidmətlərini xatırlamaqla, bu dahi şəxsiyyətə minnətdarlığımızı ifadə edirik.**

Heydər Əliyevin böyüklüyü ondadır ki, bu böyük şəxsiyyət siyasi rəhbərliyi dövründə respublikamızı tarixin burulğanlarından, ağır sınaqlarından layiqincə çıxarıb, tənəzzüldən xilas edib. Ulu Öndərin Azərbaycana həm birinci, həm ikinci rəhbərliyi dövrünün reallıqları fonunda bunu aydın görmək mümkündür. Bu dövrlərdə ölkəmizin tarixində qürurdoğuran hadisələr baş verib. Heydər Əliyevin hər iki rəhbərliyi dövrü respublikamızda yüksəliş mərhələsi olmuşdur.

Hələ sovet dövründə Heydər Əliyevin qətiyyəti, milli təəssübkeşliyi və prinsipiallığı nəticəsində Azərbaycan öz tarixinin ən qüdrətli mərhələsinə yüksəlmişdi. 1969-cu ildə Azərbaycana rəhbərliyə başlayan dahi şəxsiyyətin uğurlu fəaliyyətinin nəticəsi olaraq cəmi bir neçə il ərzində elə bir iqtisadi və sosial dəyişikliklər baş vermişdi ki, respublikamız öz göstəricilərinə görə müttəfiq respublikaların böyük əksəriyyətini geridə qoymuşdu. Azərbaycan sözün bütün mənalarında keçmiş ittifaq rəhbərliyini təəccübləndirmişdi. İnkişaf isə cəmiyyət həyatının bütün sahələrində - iqtisadiyyatda, qeyri-neft sektorunda, kənd təsərrüfatında, elm, təhsil və mədəniyyət sferalarında yaxından hiss olunurdu. Ən mühümü o idi ki, Azərbaycan yalnız keçmiş ittifaqda və sosialist düşərgəsində deyil, bütün dünyada yaxından tanınmağa başlamışdı.

Xüsusilə qeyd edilməlidir ki, bu yüksəliş fonunda Heydər Əliyev xalqımızın milli və mənəvi dəyərlərinin sovet ideologiyasının təsirlərinə məruz qalıb itməməsi üçün mühüm işlər görmüşdü. Azərbaycan tarixinin, milli mədəniyyətinin öyrənilməsi və təbliği işinin xüsusi diqqət mərkəzində saxlanılması, rəsmi ünsiyyətdə Azərbaycan dilinə üstünlük verilməsi, idarəçilikdə daha çox yerli kadrların önə çəkilməsi və sair bu kimi addımların atılması məhz bundan irəli gəlirdi. Əlbəttə, sovet rejiminin sərt ideoloji tələbləri qarşısında bütün bunları etmək böyük cəsarət tələb edirdi. Bu baxımdan, həmin dövrdə Azərbaycan cəmiyyətində baş verən sürətli milli oyanış Heydər Əliyevin cəsarətinin, vətənpərvərliyinin nəticəsi idi.

Sovetlər dövründə olduğu kimi, müstəqilliyimizin ilk illərində də Azərbaycanın böhrandan xilası Heydər Əliyevin sayəsində mümkün oldu. Bu dəfə Heydər Əliyev itirilmək təhlükəsi qarşısında olan müstəqilliyimizi xilas etdi, dövlətçiliyimizə qənim kəsilmiş xarici qüvvələrin planlarını puça çıxardı. Heydər Əliyev siyasi müdrikliyi və qətiyyəti ilə müstəqilliyimizin ilk illərində qarşılaşdığımız bütün ağır sınaqları böyük uzaqgörənlik və siyasi iradə ilə dəf etdi. Ulu Öndərin yaratdığı Azərbaycan Ordusu Ermənistanın artan hərbi hücumlarının qarşısını qətiyyətlə alaraq, cəbhə xəttində düşmənin hərbi birləşmələrini geri çəkilməyə məcbur etdi. Heydər Əliyev hüquqi dövlət quruculuğunu həyata keçirdi, dövlətçiliyimizin əsaslarını möhkəmləndirərək, Azərbaycanı inkişaf yoluna çıxardı. Məhz Heydər Əliyevin sayəsində tanınmış xarici neft şirkətləri Azərbaycanın neft sənayesinə sərmayə yatırdılar, respublikamız beynəlxalq birlikdə özünün layiqli yerini tutdu.

Müstəqil dövlətimizin bərqərar edilməsinin və müasir dövlətçiliyimizin ideoloji prinsiplərinin və konseptual əsaslarının müəyyən edilməsi məhz Heydər Əliyevin sayəsində mümkün oldu. Ümummilli Lider Azərbaycanda xalqımızı bir məfkurə əsasında birləşdirən milli dövlətçiliyi ideoloji konsepsiya olaraq formalaşdırdı və bununla da Azərbaycanın suverenliyinin və davamlı yüksəlişinin sarsılmaz təməllərini yaratdı. Ona görə xalqımızın XX əsrdə yetirdiyi ən böyük şəxsiyyətlərdən olan Heydər Əliyev siyasi irsi hər zaman öyrənilməli və təbliğ edilməli mükəmməl siyasət məktəbidir.

Heydər Əliyev özünün ölməz ideyaları ilə xalqımızın qəlbində yaşayır. Onun siyasi kursu dövlətçilik fəlsəfəsinin davamlılığını təmin edən strateji yoldur. Bu yolun Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsinin və dövrün çağırışlarına uyğun olaraq daha da zənginləşdirilməsinin nəticəsi olaraq Azəbaycan dövləti nümunəyə və milli modelə çevrilən inkişafa nail olub.

Azərbaycanın ötən 22 illik tarixi çox möhtəşəm uğurlar və hadisələrlə zəngindir. Hansı ki, bu uğurların hər biri ölkəmizin nüfuzunu artırıb, onu regionda və dünyada söz sahibinə çevirib. Bu dövrdə cənab İlham Əliyevin liderliyi ilə Heydər Əliyevin müəyyən etdiyi enerji siyasəti dinamizmlə davam etdirilib, Bakı-Tbilisi-Ceyhan neft kəməri, "Cənub qaz dəhlizi" çəkilib. Müdrik enerji diplomatiyasının nəticəsidir ki, bu gün Azərbaycan yalnız regionda deyil, daha uzaq coğrafiyalarda söz sahibi və etibarlı strateji tərəfdaş kimi tanınır. Prezident İlham Əliyevin dekabrın 8-9-da Slovkiyaya rəsmi səfəri bunu bir daha təsdiq etdi.

Prezident İlham Əliyev həm də Orta dəhlizin inkişafında mühüm rol oynayan və əsas bağlayıcı seqment olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşa edilməsinin təşəbbüskarı və müəllifidir. Hazırkı geosiyasi və geoiqtisadi mənzərə Prezident İlham Əliyevin illər öncə bu nəqliyyat infrastrukturunun yaradılması ilə bağlı nə qədər uzaqgörən siyasət yürütdüyünü göstərir.

Heydər Əliyev siyasi yolunun layiqli davamının ən böyük hadisəsi torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün bərpasıdır. Prezident İlham Əliyev respublikamıza rəhbərliyinin ilk günündən torpaqlarımızın işğaldan azad olunmasını öz fəaliyyətinin prioritetlərindən biri elan etdi və bu istiqamətdə qətiyyətli, milli maraqlarımızı inamla təmin edən siyasət yürütdü. Bu siyasətin nəticəsi olaraq 2020-ci ilin Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzur işğaldan azad edildi. 2023-cü ilin sentyabrında Azərbaycan dövlətinin konstitusion hüquqları Qarabağda bərpa olundu. Bu tarixi hadisələr bir daha Heydər Əliyev siyasətinin təntənəsinə çevrildi.

2003-cü ildə xalqa müraciətində Heydər Əliyev demişdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

*Azərbaycanın ötən 22 ildə qazandığı bütün uğurlar, xüsusən torpaqlarımızın işlağdan azad edilməsi Ulu Öndər Heydər Əliyevin inamında nə qədər haqlı və müdrik olduğunu göstərir. Uğurlarımız isə davamlıdır və cənab Prezident İlham Əliyevin liderliyi ilə bundan sonra tariximizin şərəfli səhifələri yazılacaq.*

**Müşfiq MƏMMƏDLİ,**
**Milli Məclisin deputatı**

## Azərbaycanın özü qədər əbədi

**Azərbaycan xalqının taleyinə yazılan parlaq şəxsiyyətlər çox olub. Lakin qədim tariximizin ən mürəkkəb dönəmlərində xalqın xilası, dövlətin bərpası və müstəqilliyin möhkəmlənməsi kimi ağır missiyanı öz üzərinə götürən liderlər barmaqla sayılacaq qədərdir. Bu liderlər sırasında Ulu Öndər Heydər Əliyevin adı xüsusi çəkilir. Çünki bu dahi şəxsiyyət təkcə dövlət başçısı olmayıb, həm də zamanları aşan irs qoyub gedib, böyük dövlətçilik məktəbi yaradıb.**



# Dövlətçilik məfkurəsinin memarı

Bütün zamanlarda əziz xatirəsini hər zaman dərin ehtiramla andığımız Ümummilli Lider Heydər Əliyevin siyasi portreti yalnız hadisələrin ardıcıllığı ilə ölçülmür. Onun həyat yolu bütöv bir dövrün şərhini verir:

Xalqına sədaqət, dövlətinə məsuliyyət, gələcəyinə inam;

Azərbaycan dövlətçiliyinin yenidən doğuluşunu təmin edən dahi lider;

Bir dövrün deyil, bütöv bir millətin taleyinə istiqamət verən şəxsiyyət;

Azərbaycanın sabitliyinin, inkişafının və gücünün memarı;

Ağlı ilə tarix yaradan, cəsarəti ilə xalqına dayaq olan rəhbər;

Azərbaycanı xaosdan yüksəlişə aparan siyasi dahilik nümunəsi.

Adını tariximizə qızıl hərflərlə yazdıran Ulu Öndər Heydər Əliyev azərbaycançılıq ideyasını dövlət fəlsəfəsinə çevirən böyük şəxsiyyət idi. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyub.

Əminliklə deyə bilərik ki, bu gün Qarabağda və Şərqi Zəngəzurda suverenliyini, ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycanın hər qarışında dalğalanan bayrağımızın əzəməti, davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycanın möhtəşəm nailiyyətləri Heydər Əliyevin ideyalarının təntənəsidir.

### Dövlətçilik fəlsəfəsinin banisi

XX əsrin çətinlikləri fonunda Heydər Əliyev təkcə rəhbər kimi deyil, həm də xalqının gələcəyini düşünən dövlət qurucusu kimi fərqlənmişdir. O, milli birlik ideyasını gücləndirmiş, azərbaycançılıq fəlsəfəsini bir dövlət doktrinasına çevirmişdir. Zəngin təcrübəsi, qətiyyətli qərarları və sabitlik yaratmaq bacarığı Azərbaycanı hər zaman böhranlardan çıxarmış, inkişafın möhkəm təməlini formalaşdırmışdır.

Onun Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci və 1993-2003-cü illəri əhatə edən dövrlərdə dövlətçiliyimizin təməlləri qoyulmuş, formalaşdırmışdır. Bu da gələcəkdə Azərbaycanın uğurlu inkişafını təmin edəcək yüksəliş konsepsiyasının əsasını təşkil etmişdir. Fenomen şəxsiyyətin adı təkcə bir epoxanın deyil, bütöv bir ideyanın - güclü, müstəqil və dünyaya inteqrasiya olunan Azərbaycanın ideyasının simvoludur. Onun yaratdığı irs bu gün də dövlət idarəçiliyi məktəbi kimi yaşamaqda, yeni nəsillərə yol göstərməkdədir.

Ulu Öndərin həyatı, xidmətləri və dövlətçilik fəaliyyətinin miqyası bir insan ömrünün sərhədlərindən daha genişdir. Bu ömür təkcə fərdi taleyin deyil, bütöv bir xalqın tarixinin mühüm mərhələsini özündə ehtiva edir. Heydər Əliyevin siyasi yolunun başlanğıcı sadəcə vəzifə və idarəçilik təcrübəsinin toplusu deyil, həm də Azərbaycan üçün sabitlik, inkişaf və özünüdərk kimi anlayışların formalaşmasına gedən mühüm addımlar idi. O dövrün geosiyasi reallıqları fonunda idarəçilik bacarığı, düşüncə çevikliyi və prinsipiallığı ona həm ölkə daxilində, həm də xaricdə hörmət qazandırmışdı. Bu hörmətin təməlində şəxsi nüfuzdan daha çox dövlət düşüncəsinin dərinliyi dururdu.

Müstəqillik illərinin ilk mərhələsində Azərbaycan ağır sınaqlarla üz-üzə qalmışdı. Ölkənin siyasi sistemi zəif, iqtisadi strukturlar dağınıq, cəmiyyətin sosial psixologiyası isə qeyri-müəyyənlik içində idi. Belə bir şəraitdə Ümummilli Liderin idarəçilik təcrübəsi və siyasi uzaqgörənliyi ölkə üçün dönüş nöqtəsinə çevrildi. Onun qəbul etdiyi qərarlar çox zaman böyük risklərin fonunda verilsə də, bu risklər dövlətin gələcəyi naminə idi. Sabitliyin bərpası, hüquqi dövlət quruculuğunun təməli, iqtisadi strategiyanın müəyyənləşdirilməsi məhz həmin mərhələnin ən vacib nəticələri oldu.

Ulu Öndərin dövlətçilik fəlsəfəsinin mərkəzində milli maraqların qorunması dayanırdı. Bu fəlsəfə yalnız siyasi müstəvidə deyil, həm də ictimai şüurda mühüm dəyişikliklərə səbəb oldu. Azərbaycançılıq ideyasının sistemli yanaşmaya çevrilməsi ölkənin çoxmillətli və müxtəlif təbəqələrdən ibarət cəmiyyətinin vahid məqsədlər ətrafında birləşməsinə şərait yaratdı. Onun siyasətində milli kimlik həm tarixi yaddaşa söykənirdi, həm də gələcəyə açılan qapı kimi dəyərləndirilirdi.

Beynəlxalq aləmdə Azərbaycanla bağlı formalaşan təsəvvürlərə nəzər salanda, Heydər Əliyevin diplomatik bacarığının nə qədər mühüm rol oynadığını görmək mümkündür. O, ölkənin geosiyasi mövqeyini reallıqlar və maraqlar balansı üzərində qurmağa çalışırdı. Enerji siyasətinin təməlinin qoyulması, regional əməkdaşlıq platformalarının genişləndirilməsi və Azərbaycanın müstəqil aktor kimi tanınması bu fəaliyyətin mühüm nəticələrindəndir. Bu yanaşma təkcə siyasi plan deyil, strateji düşüncə məktəbi idi.

Heydər Əliyevin irsindən danışarkən, onun yalnız hakimiyyət sahəsində gördüyü işlər yox, həm də cəmiyyətin inkişafına yönəlmiş humanist yanaşması da nəzərə çarpır. O, gənc nəslin təhsilinə, milli-mənəvi dəyərlərin qorunmasına, elmin və mədəniyyətin inkişafına xüsusi önəm verirdi. Onun fikrincə, dövlətin gücü yalnız iqtisadi göstəricilərlə deyil, həm də xalqın intellektual və mənəvi potensialı ilə ölçülür. Bu düşüncə bu gün də ölkədə həyata keçirilən çoxsaylı sosial və mədəni layihənin ideya əsasını təşkil edir.

Ümummilli Liderin şəxsiyyətini anlamaq üçün onu yalnız siyasi lider kimi deyil, həm də zamanın çətinlikləri ilə üz-üzə qalmış və bu çətinliklərdən xalqını çıxarmağa çalışan qərarlı bir insan kimi qiymətləndirmək lazımdır. Onun iradəsi çox zaman ən mürəkkəb anlarda özünü göstərmiş, qərarları isə uzunmüddətli nəticələr yaratmışdır. Tarix nadir hallarda belə şəxsiyyətlər yetişdirir - həm öz dövrünün reallıqlarını dəyişdirə, həm də gələcək nəsillərin yoluna işıq sala bilən lider...

Bu gün Heydər Əliyevin adı təkcə bir dövrün simvolu deyil, həm də dövlətçilik təfəkkürünün, milli birliyin və inkişaf strategiyasının təcəssümüdür. Onun irsi müasir Azərbaycanın formalaşması prosesinə yön vermiş, ölkənin siyasi və sosial istiqamətlərini müəyyən etmişdir. Bu irs zaman keçdikcə daha geniş mənada dəyərləndirilir və həm tarixçilər, həm də yeni nəsil üçün öyrənilməsi vacib bir məktəb kimi qalır.

Ümumiyyətlə, Ulu Öndər Heydər Əliyevin həyatı liderlik, uzaqgörənlik və dövlətə bağlılığın bir araya gəldiyi nadir bir örnəkdir. Onun fəaliyyəti Azərbaycan tarixində təkcə bir mərhələ yaratmadı - bu fəaliyyət bir millətin gələcəyini formalaşdıran ən mühüm səhifələrdən birinə çevrildi.

### Heydər Əliyev irsi - xalqın yaddaşında yaşayan ən böyük dəyər

Ümummilli Lider xalqın son ümid yeri, xilaskarı idi. Onun siyasi məktəbinin layiqli varisi - Prezident İlham Əliyev isə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən lider oldu. 200 illik Ermənistan-Azərbaycan, 30 illik Dağlıq Qarabağ münaqişəsinə Zəfərlə son qoyub Ulu Öndərin yarımçıq qalan işlərini başa çatdırdı və indi Azərbaycan məhz Heydər Əliyevin görmək istədiyi ölkə kimi dünyaya günəş kimi doğur.

Bu gün dahi liderin ideyaları, zəngin irsi hər zaman təbliğ edilir. Əlbəttə ki, Azərbaycan dövlətçilik tarixinin ən dəyərli səhifələrindən biri, Ulu Öndər Heydər Əliyevin yaratdığı böyük irsin bu gün də yaşaması, inkişaf etməsi və yeni nəsillərə ötürülməsidir. Bu irsin sistemli şəkildə qorunması və gələcək naminə yenidən dəyərləndirilməsi üçün fəaliyyət göstərən mühüm qurumlardan biri də Heydər Əliyev Fondudur.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə 21 il öncə yaradılan fond ötən müddət ərzində Ümummilli Liderin zəngin irsini öyrənməyi, təbliğ etməyi, onun Azərbaycanın sosial-iqtisadi və mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmağı, mədəniyyətimizin, tariximizin dünyada daha geniş tanıdılması ilə bağlı aparılan işlərə kömək göstərməyi fəaliyyət prinsipi seçib.

Heydər Əliyev Fondu fəaliyyətində Ulu Öndərin ideya xəttini - insan amilinə dəyər verməyi, təhsili, elmi, mədəniyyəti və milli-mənəvi dəyərləri yüksək tutmağı əsas prinsip kimi götürür. Fonda xas olan bu istiqamətlilik, klassik idarəetmədən daha çox, milli irsin qorunma və gələcəyə daşınma modeli kimi dəyərləndirilə bilər. Burada dövlətin inkişafı yalnız siyasi müstəvidə deyil, həm də cəmiyyətin sosial-mədəni potensialı ilə ölçülür.

Ölkəmizdə elə sahə tapılmaz ki, onun problemlərinin çözülməsində, aradan qaldırılmasında, inkişafında Heydər Əliyev Fondunun xidmətləri olmasın. Elm, təhsil, səhiyyə, mədəniyyət, idman və digər sahələrdə fondun gördüyü işlər inqilabi xarakter daşıyır.

Fondun fəaliyyətinə ən böyük qiyməti isə Prezident İlham Əliyev verib. Dövlət başçısı vurğulayıb ki, Heydər Əliyev Fondu, sözün əsl mənasında, ümumxalq fonduna çevrilib. Fondun xətti ilə aparılan işlər, görülən tədbirlər, irəli sürülmüş təşəbbüslər göz qabağındadır: "İstər təhsil, istər səhiyyə sahəsində, mədəniyyət sahəsində, mənəvi irsimizin qorunması işində, Azərbaycanın dünya birliyində təbliğ edilməsi işində, Azərbaycanın olduğu kimi təqdimatı işində Heydər Əliyev Fondunun rolunu mən çox yüksək qiymətləndirirəm. Bu fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll oluna bilər. Bu fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən "xoş niyyət" deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük".

Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev" ordeni ilə təltif edilməsi də Birinci vitse-prezidentin xalqı qarşısında xidmətlərinə verilən ən ali mükafatdır, çox yüksək qiymətdir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu bu gün nicat ünvanı, xeyirxah aksiyaların, marafonların məkanıdır.

Bu gün fondun işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzurda reallaşdırdığı layihələr misilsizdir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva 2020-ci il dekabrın 8-də fondun işğaldan azad edilən ərazilərdəki mədəni-dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başladığını bəyan etdikdən sonra qısa zamanda möhtəşəm layihələr reallaşdırıldı. Layihələrin icrasına yerli mütəxəssislərlə yanaşı, xarici ekspertlər də dəvət olundular və xüsusi işçi qrupları yaradıldı. Bərpa olunacaq abidələrin öyrənilməsi məqsədilə ilkin qiymətləndirmə aparıldı. Bərpa işləri dini mənsubiyyətindən asılı olmayaraq, bütün abidələri əhatə etdi. Məhz həmin layihələr əsasında fond artıq bir çox mədəniyyət, dini-tarixi abidənin bərpasını başa çatdırıb. Fondun fəaliyyəti göstərir ki, ikinci dəfə "yenidən doğulmaq" mümkündür - dağıdılmış, viran qoyulmuş torpaq, abidə, mədəni irs bərpa edilə, xalq öz yaddaşını, keçmişini bərpa edə bilər. Bu isə böyük irsin - dövlətçiliyin, mədəniyyətin, milli kimliyin layiqincə qorunmasının təcəssümüdür.

### Ulu Öndərin görmək istədiyi Azərbaycan

Azərbaycan dövlətçilik tarixinin ən dəyərli səhifələrindən biri, Ulu Öndərin yaratdığı böyük irsin bu gün də yaşaması, inkişaf etməsi və yeni nəsillərə ötürülməsidir. Bu irsin ən layiqli davamçısı, Heydər Əliyev siyasi məktəbinin ən istedadlı məzunu möhtərəm Prezidentimiz cənab İlham Əliyevdir.

Əgər Ulu Öndər Heydər Əliyev Azərbaycanı müstəqilliyini itirmək, xaos, vassal bir dövlətə çevrilmək təhlükəsindən qurtarıb işıqlı sabaha çıxarmışsa, İlham Əliyev hələ illər öncə Ümummilli Liderin müəyyənləşdirdiyi siyasi xətlə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirdi. Prezident yürütdüyü xarici diplomatiya ilə Azərbaycan qlobal dünyanın sayılıb-seçilən dövlətləri sırasına daxil oldu.

Müasir dünyamızın acı reallıqları fonunda İlham Əliyev coğrafi cəhətdən elə də böyük olmayan ölkəni - Azərbaycanı beynəlxalq siyasətin subyektindən onun mühüm aktoruna çevirdi. Azərbaycan qısa zaman ərzində Avropanın enerji təhlükəsizliyinin təminatçılarından biri oldu. Təkcə son illərdə Azərbaycanın xarici siyasətinin uğurlarına nəzər yetirsək aydın görərik ki, ölkəmizlə müxtəlif sahələr üzrə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı artmaqdadır. Həmçinin Azərbaycan da bir çox böyük dövlətlə strateji tərəfdaşlığını gücləndirməkdə maraqlıdır.

Əlbəttə ki, Azərbaycanın strateji tərəfdaşlıq etdiyi ölkələrin sayının artmasını, müttəfiqlərinin coğrafiyasının genişlənməsini şərtləndirən əsas amil İkinci Qarabağ müharibəsindəki Şanlı Zəfərimizdir.

Bu gün Prezident İlham Əliyev şəxsiyyətinə, liderliyinə, geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, o, ümumiyyətlə, dünya miqyasında tanınan qlobal liderliyi etiraf olunan şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud problemlərinin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin. Yəni İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Buna misal olaraq Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Sədri kimi irəli sürdüyü qlobal təşəbbüsləri, mühüm təklifləri göstərmək olar.

Prezident İlham Əliyev son illər beynəlxalq siyasət arenasında artan nüfuzu və strateji yanaşmaları ilə diqqət çəkir. Bu da onu göstərir ki, İlham Əliyev yalnız Azərbaycanın milli maraqlarını qorumaqla kifayətlənmir, eyni zamanda regiondakı və qlobal səviyyədəki sülh və sabitlik proseslərinə təsir edən liderə çevrilib. Prezident İlham Əliyevin Yaxın Şərq Sülh Sammitində iştirakı da bu nüfuzun daha da gücləndiyini nümayiş etdirir.

Bununla da Prezident İlham Əliyevin diplomatik yanaşması, Azərbaycanı yalnız regionda deyil, həm də beynəlxalq aləmdə etibarlı və nüfuzlu bir tərəfdaş kimi tanıdır. Dövlətimizin başçısı Yaxın Şərq Sülh Sammitində iştirak edərək Azərbaycanı yalnız bir enerji ixracatçısı kimi deyil, həm də beynəlxalq sülh və təhlükəsizlik məsələlərində fəal iştirak edən bir aktor olaraq təqdim edir. Bu, onun Azərbaycanın beynəlxalq məsələlərdə yalnız regional deyil, qlobal məsələlərdə də mühüm söz sahibi olduğunu göstərir.

Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq arenada daha güclü bir mövqe qazanmasını təmin edib. Azərbaycan Xəzər regionunda və geniş Qafqazda mühüm bir regional oyunçuya çevrilib. Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurasında iştirak etməsi ölkənin diplomatik əlaqələrini möhkəmləndirib. Prezident İlham Əliyev həmçinin Azərbaycanın enerji siyasətini effektiv şəkildə quraraq ölkənin enerji təchizatını, əsasən, Avropa bazarlarına yönəldən və Xəzər dənizinin enerji resurslarını dünyaya təqdim edən mühüm layihələrə imza atıb.

Azərbaycanın lideri ölkəmizi dünyanın kosmik ölkələr ailəsinin üzvü edib. Bu gün orbitdə Azərbaycanın 3 peyki mövcuddur. Ölkə lideri qlobal transmilli layihələrin müəllifi kimi Azərbaycanı "Şərq-Qərb", "Şimal-Cənub", Orta dəhliz kimi mühüm beynəlxalq nəqliyyat-tranzit layihələrinin fəal iştirakçısına çevirib. Onun müəllifi olduğu transmilli layihələr regionda tamamilə yeni mənzərə yaradıb. Azərbaycan regionun enerji və nəqliyyat xəritələrini yenidən tərtib edib.

Bütün sahələrdə əldə olunan uğurlar beynəlxalq təşkilatların hesabatlarında, nüfuzlu sosioloji mərkəzlər tərəfindən vaxtaşırı keçirilən rəy sorğularında təqdir olunur və respublikamızın davamlı inkişaf yolunda olduğu xüsusi vurğulanır.

Bütün bunlarla yanaşı, dövlətimizin başçısı elə bir daxili və xarici siyasət yürüdür ki, bu gün Azərbaycan dünyada terror təhlükəsinin olmadığı nadir ölkələr sırasındadır. Beynəlxalq Sülh və İqtisadiyyat İnstitutunun 2025-ci il üçün hesabatında bunu görmək mümkündür. İnstitut tərəfindən hazırlanan 2025-ci il üzrə Qlobal Terrorizm İndeksinə (Global Terrorism Index - GTI) əsasən, Azərbaycan dünyanın terror təhlükəsinin ən az olduğu ölkələrindən biri elan olunub.

Artıq demək olar ki, Cənubi Qafqaz regionunda gərginlik dövrü bitməkdədir. Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanası istiqamətində real addımlar atılmaqdadır. Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycan və Ermənistan liderlərinin Birgə Bəyanatı, iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsinin paraflanması bir daha göstərdi ki, dünya Azərbaycanın başladığı, irəli apararaq məntiqi sonluğa yaxınlaşdırdığı sülh gündəliyini qəbul edir. Vaşinqton görüşünün nəticəsi olaraq ATƏT-in Minsk qrupunun və ona bağlı olan əlaqəli qurumların de-yure ləğvi də keçmiş Qarabağ münaqişəsinin beynəlxalq gündəmdən tamamilə çıxarılması demək idi. Bu günlərdə Minsk qrupunun ləğvi isə bir daha təsdiq etdi ki, artıq Ermənistandakı revanşistlərin, onilliklər ərzində işğalçılıq siyasətini dəstəkləmiş qüvvələrin, erməni lobbisinin istinad edəcəyi heç nə qalmayıb.

Əlbəttə ki, Cənubi Qafqazda sülhün bərqərar olması həm regional, həm də beynəlxalq səviyyədə bir çox mühüm dəyişikliklərə yol açacaq. Bu, yalnız dövlətlər arasındakı münasibətlərin yaxşılaşması ilə bağlı deyil, həm də iqtisadi, sosial, təhlükəsizlik və beynəlxalq əməkdaşlıq sahələrində əhəmiyyətli irəliləyişlərə səbəb ola bilər. Ekspertlər də hesab edirlər ki, Azərbaycanın neft və qaz ehtiyatları, Gürcüstanın limanları, Ermənistanın coğrafiyası və regional istehsal sahələri arasında daha effektiv bir əlaqə qurulması mümkündür. Bölgədəki nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və Trans-Xəzər nəqliyyat dəhlizlərinin genişləndirilməsi ilə bütün Qafqaz və Mərkəzi Asiya ölkələri faydalanar. Beləliklə, regionun iqtisadiyyatları daha çox inteqrasiya olar və Cənubi Qafqaz, həm regional, həm də beynəlxalq bazarlarda daha güclü rol oynaya bilər.

Cənubi Qafqazda sülh bərpa olunarsa, bu, həm də regional təhlükəsizlik vəziyyətini yaxşılaşdırar. Münaqişələrin aradan qaldırılması, ordu və təhlükəsizlik qüvvələrinin sərhədlərini qorumaq yerinə, sərbəst inkişafı dəstəkləyən fəaliyyətlərə yönəlməsinə səbəb olar. Ən əsası, bu, hərbi qarşıdurmaların qarşısını ala və ölkələr arasında qarşılıqlı inamı gücləndirə bilər.

Sülh əldə edildikdən sonra yeni regional əməkdaşlıq formatlarının yaranması da mümkündür. Bölgə ölkələri, Güney Qafqazda birgə inkişaf və təhlükəsizlik məqsədilə müstəqil təşkilatlar və platformalar qura bilərlər. Bu, həm də regional güclərin və qonşu dövlətlərin iştirakı ilə genişlənə bilər. Cənubi Qafqazda sülhün bərqərar olması sadəcə olaraq dövlətlər arasındakı gərginliyin azalması ilə nəticələnməyəcək. Bu, həm də iqtisadiyyatın canlanması, sosial sabitliyin yaranması, regional təhlükəsizliyin təmin olunması və beynəlxalq əməkdaşlığın genişlənməsi kimi bir çox müsbət dəyişikliklərə səbəb ola bilər. Cənubi Qafqaz bir zamanlar qarşıdurmalarla tanınan bir regiondan, sabitlik və inkişafın mərkəzinə çevrilər. Lakin bunun reallaşması üçün iki ölkənin siyasi iradəsi və beynəlxalq dəstək vacibdir. Azərbaycan bütün zamanlarda sözünə, vədinə sadiq olduğunu isbatlayıb. Ermənistan əvvəlki siyasi oyunbazlığından əl çəkib sülhə sadiq olarsa, regionumuz qısa zamanda dünyanın ən təhlükəsiz məkanı ola bilər.

*2020-ci ilin Vətən müharibəsində əldə edilən qələbə, təməli Ulu Öndər tərəfindən qoyulan İlham Əliyev siyasətinin zirvəsi, Azərbaycanın müstəqilliyinin, ərazi bütövlüyünün təntənəsidir. Prezident İlham Əliyev bu siyasəti sülh və sabitlik prinsiplərinə sadiq qalaraq daha da dərinləşdirəcək və Azərbaycanı daha möhtəşəm nailiyyətlərə, qələbələrə qovuşduracaq.*

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı***

**Azərbaycanın özü qədər əbədi**

# Ulu Öndər amallarından qüdrətli Azərbaycana



**Zəfər qazanmış, suverenliyi tam təmin olunmuş, işğaldan azad edilən torpaqlarında quruculuq, qayıdış təntənəsi yaşanan, regionda bərqərar etdiyi sülh mühiti beynəlxalq aləmdə təqdirlə qarşılanan və nüfuzu dünyaya yayılan bu günün qüdrətli Azərbaycanı Ulu Öndər Heydər Əliyev amallarının təzahürüdür. Ötən 22 il ərzində Heydər Əliyev siyasi yolunu layiqincə davam etdirən Prezident İlham Əliyev xalqımız, dövlətimiz adına əldə etdiyi bu uğurlarla Azərbaycanı tarixindəki ən güclü dövrünə çatdırıb və bununla həm də ata vəsiyyətini qətiyyətlə gerçəkləşdirib. Çünki torpaqlarımızın azadlığına nail olmaq, Azərbaycanın ərazi bütövlüyünü, keçmiş məcburi köçkünlərin qayıdışını təmin etmək, respublikamızı kompleks inkişafa malik dünya səviyyəli ölkəyə çevirmək hər zaman Ulu Öndər Heydər Əliyevin həyat kredosu olub. Yürütdüyü siyasi, diplomatik, hərbi, iqtisadi, mədəni siyasətin ana xəttinin əsaslarını da elə bu qayələr təşkil edib. Vaxtilə Ümummilli Lider Heydər Əliyevin sadalanan istiqamətlərdə qoyduğu möhkəm təməllər üzərində inkişaf etdirilən Azərbaycan Beynəlxalq Millətlər Təşkilatlarının Təhlükəsizlik Şurasının qətnamələrini hərb yolu ilə yerinə yetirərək suverenliyini təmin edən və dünyada bu tip münaqişələrin həllində nümunə ortaya qoyan qalib ölkə kimi beynəlxalq miqyasda adından söz etdirir. Sülh ünvanı kimi tanınan respublikamızla çoxşaxəli əlaqələr qurmaq, əməkdaşlıq etmək istəyən ölkələrin sayının durmadan artması da Azərbaycanın bu gün Ulu Öndər Heydər Əliyevin arzuladığı ucalıqda qərarlaşdığını özündə təcəssüm etdirən vacib məqamlardandır.**

## Milli qürur mənbəyi

Dövlətçilik tariximizə öz qızıl imzasını atmış, azərbaycanlı olması ilə hər zaman fəxr hissi duymuş, həyatını başdan-başa vətəninə həsr etmiş Ulu Öndər Heydər Əliyevin haqq dünyasına qovuşmasından 22 il ötür. Əziz xatirəsi qəlblərdə əbədiyaşarlıq qazanmış Ümummilli Lider Heydər Əliyev daim qədirbilən xalqımız tərəfindən böyük ehtiramla anılır, hörmətlə yad edilir. Milli qürur mənbəyimiz olan Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi epoxaya bu günümüzdən nəzər salanda o uca şəxsiyyətin xalqımızın milli amalları uğrunda həyata keçirdiyi sözlərlə ifadəsi mümkünsüz olan böyük işlər bir daha aydın şəkildə gözlər önündə canlanır. Ən ağır, ən çətin günlərində verdiyi taleyüklü qərarlarla, atdığı qətiyyətli addımlarla Azərbaycanı bir dövlət kimi yox olmaqdan, parçalanmaqdan qurtuluş yoluna çıxaran Ulu Öndər Heydər Əliyevin dünyanın ən böyük azərbaycanlısı kimi tanınması, Azərbaycanın rəmzinə çevrilməsi təsadüfi deyil.

Ölkəmizə siyasi rəhbərliyinin birinci dönəmində gördüyü işlərlə respublikamızı SSRİ-nin geridə qalmış ölkəsindən qabaqcıllar sırasına yüksəldən Ümummilli Lider Heydər Əliyev rejimin dəmir məngənəsinə rəğmən o dövrdə Azərbaycanın ərazi bütövlüyünü sual altında qoyan təhlükələri zamanında fərq edərək milli zəmində ölkəmizə, xalqımıza düşmən kəsilənlərə qarşı qətiyyətlə mübarizə apardı və onlara meydan vermədi ki, Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirsinlər. Yalnız Heydər Əliyev məqsədyönlü şəkildə vəzifəsindən uzaqlaşdırıldıqdan sonra siyasi arxa-dayaqlarına güvənən erməni millətçiləri bədnam niyyətlərini həyata keçirmək üçün fəaliyyətə başladılar. 1988-ci ildən start verilən və 1994-cü ilə - Ulu Öndər Heydər Əliyevin hərbi-siyasi-diplomatik səriştəsi və bacarığı sayəsində Azərbaycan ilə Ermənistan arasında atəşkəs barədə razılaşma əldə edilənə qədər sürən hadisələrin ölkəmiz üçün ağrı-acılı nəticələri hər birimizin xatirindədir.

Ulu Öndər Heydər Əliyev 20 Yanvar 1990-cı ildə törədilən faciə zamanı bu qanlı hadisəyə ilk olaraq öz münasibətini bildirdi. Həmin tarixdə faciə ilə əlaqədar Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində keçirilən yığıncaqda çıxış edərək bu hadisəni törədən şəxsləri kəskin şəkildə tənqid etdi. İstər 20 Yanvar hadisəsinə kəskin reaksiyası, istərsə də 17 noyabr 1990-cı ildə Azərbaycan milli bayrağını Naxçıvan Muxtar Respublikasında dalğalandırması və bununla da mövcud təhlükələrə, təzyiqlərə rəğmən faktiki olaraq Azərbaycanın müstəqilliyini elan etməsi Heydər Əliyevin şəxsi şücaəti və qətiyyəti sayəsində tariximizə yazılmış müstəsna əhəmiyyətə malik hadisələrdir.

1991-ci ilin martında Azərbaycan SSR Ali Sovetinin iclasında çıxış edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcək inkişafının kontur xəritəsini bu fikirləri ilə izhar edərək müdrikliklə deyirdi: "Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır".

Xalqımızın milli qurtuluş mübarizəsinin qalibi Ulu Öndər Heydər Əliyev iki müxtəlif ictimai-siyasi formasiyada yaşayıb, çalışıb və hər iki sistemdə də siyasət zirvəsinə ucalmağı bacarıb.

14 iyul 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbər seçilməsi ilə respublikanın həyatında yeni inkişaf mərhələsi başladı. Onun rəhbərliyi altında sosial-iqtisadi həyatın bütün sahələrində həyata keçirilən hərtərəfli islahatlar qısa vaxt ərzində Azərbaycanın inkişaf dinamikasına gətirib çıxardı. Güclü sənaye-aqrar potensialı yaradılan respublikanın hər yerində dirçəliş ab-havası hiss edilməyə başlandı. Dahi siyasətçi Heydər Əliyevin həmin dövrdə ölkəmizə rəhbər seçilməsi sanki İlahi missiya idi. Çünki hadisələrin sonrakı inkişafı da bir daha sübut etdi ki, həmin illərdə Ulu Öndərin sayəsində yaradılan iqtisadi və digər sahələrdəki potensial ölkəmizin gələcək müstəqilliyinin bünövrəsini qoydu. Xüsusilə milli-mədəni sahədə atılan özüllər rişələnərək xalqımızın Azərbaycanın müstəqilliyinə doğru uzanan yoluna öncüllük etdi.

Qarabağın Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməsi planının həyata keçirilməsi üçün hələ 1920-ci illərin əvvəllərindən etibarən mərhələ-mərhələ addımlar atılırdı. Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə də bu istiqamətdə cəhdlər edilirdi, lakin vətənpərvər şəxsiyyət Heydər Əliyevin qətiyyəti və uzaqgörən siyasəti nəticəsində həmin cəhdlər beşikdəcə boğulurdu. O vaxt separatçılar iddia edirdilər ki, guya Qarabağ bölgəsinin sosial-iqtisadi vəziyyəti respublikanın digər ərazilərindən geridə qalır. Ancaq bütün bunlar bəhanə idi. Çünki məhz Heydər Əliyevin təşəbbüsü ilə bölgənin, kənd təsərrüfatı və digər sahələrinin inkişafı üçün xeyli işlər görülmüş, yeni iş yerləri açılmışdı. Su anbarları inşa edilmiş, Ağdamdan Xankəndiyə dəmir yolu çəkilmiş, Xankəndidə ali məktəb yaradılmış, xeyli yeni bina tikilmişdi. Eyni zamanda Qarabağda milli ruhun yüksəlməsi üçün Ulu Öndərin atdığı addımlar erməni millətçilərinə qarşı qətiyyətli mübarizədə önəmli rol oynayırdı. Ölkəmizin tarixi mədəniyyət mərkəzi olan Şuşaya Azərbaycan xalqının qəhrəmanlıq qalası kimi baxan Ulu Öndərin təşəbbüsü və şəxsi rəhbərliyi ilə şəhərin inkişaf etdirilməsi məqsədilə xüsusi qərarlar qəbul edilmişdi. Bu vacib qərarlara uyğun olaraq Şuşanın keçmişdə tikilmiş binaları, tarixi abidələri, məscidləri bərpa edilmiş, yeni çoxmərtəbəli yaşayış binaları və sair tikilmiş, bura ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdi. Şuşanın milli-mənəvi dəyərlərinin yaşadılmasına xüsusi fikir verən Ulu Öndər Heydər Əliyev 1982-ci ilin yanvarında bu şəhərə səfər edərək burada Vaqifin məqbərəsinin, Poeziya evinin açılışını etmiş, həmin vaxt Vaqif Poeziya Günlərinin keçirilməsi barədə göstəriş vermişdi. Həmin ilin avqustunda yenidən Şuşaya üz tutan Heydər Əliyev şair Xurşidbanu Natəvanın abidəsinin açılışını həyata keçirmişdi. Bütün bu nümunələrin özü də Ulu Öndər Heydər Əliyevin Qarabağa olan müstəsna sevgisini göstərirdi. Təbii ki, bunları Azərbaycana düşmən olanlar, ölkəmizə qarşı torpaq iddiası güdənlər də görür və neçə ki, Heydər Əliyev hakimiyyətdədir, Qarabağın ölkəmizdən qoparılmasının mümkünsüz olduğunu anlayırdılar. 1987-ci ildə Heydər Əliyev öz vəzifəsindən kənarlaşdırıldıqdan az sonra erməni millətçiləri yenidən baş qaldıraraq Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana verilməsini tələb etməyə başladılar, 1988-ci ildən etibarən isə heç bir tarixə, ədalətə, beynəlxalq hüquqa sığmayan bu haqsız tələblərini aqressiv tona keçirərək milli zəmində xalqımıza qarşı müharibə cinayətlərinə, torpaqlarımızın işğalına başladılar.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olmadığı 1987-ci ildən 1993-cü ilin iyun ayına qədərki 6 il xalqımızın tarixinə ən ağır, faciəvi illər kimi düşdü. Həmin dövrdə ölkəmizdə olan antimilli hökumətlərin milli maraqlarımızı deyil, öz şəxsi ambisiyalarını güdmələri, xəyanətkar fəaliyyətləri nəticəsində işğal acısını yaşadıq, bir milyondan çox soydaşımız qaçqın və məcburi köçkün halına düşdü, siyasi, iqtisadi, sosial, hərbi, bir sözlə, bütün sahələrdə böhranla çalxalanan Azərbaycan bir dövlət olaraq yox olma təhlükəsi ilə qarşı-qarşıya qaldı.

## Qurtuluş yolu

Ancaq bu dəfə də tale Azərbaycan xalqının üzünə güldü və 15 iyun 1993-cü ildə ona Ulu Öndər Heydər Əliyevi xilaskar missiyası ilə göndərdi. Həmin çətin və ağır dövrdə müdrik qərar verərək təkidli tələblə Heydər Əliyevi özünün siyasi rəhbəri seçən xalqımız bu addımı ilə Azərbaycanın qurtuluşuna nail oldu.

Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycan dövlətçiliyinin həlledici dönüş nöqtəsi oldu. Böyük strateq Heydər Əliyevin Prezident seçilməsi isə Azərbaycanda tamamilə yeni bir siyasi-ictimai münasibətlər sisteminin formalaşdırılmasına gətirib çıxardı. Ümumxalq maraqlarının gerçəkləşməsinə xidmət edən proseslərin start götürdüyü bu siyasi yol xalqın özünəinamını bərpa etdi, ictimai-siyasi sabitliyin əsasını qoyaraq dövlətçiliyimizin sarsılmaz bünövrəsini yaratdı.

Heydər Əliyev dövlətçilik fəlsəfəsinin, ideyalarının əsasını hər zaman azərbaycançılıq məfkurəsi təşkil edib. Milli maraqlarımızın təmin olunmasının birbaşa xalqımızın həmrəyliyindən keçdiyini qətiyyətlə müdafiə edən milli liderin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı soy-kökü, varlığı ilə Azərbaycana bağlı olan hər kəsin şüarına çevrildi. Yer üzündə yaşayan azərbaycanlıları bir amal - vətənin bütövlüyü uğrunda birləşdirən Heydər Əliyev dühası ölkəmizə dirçəlişdən, qurtuluşdan keçərək qələbə ilə nəticələnən qürurlu salnamə bəxş etdi.

Ölkədə hökm sürən anarxiyaya son vermək, vətəndaş qarşıdurmasının qarşısını almaq və daxili sabitliyi təmin etmək üçün gərgin qrafiklə işləyən və qətiyyətli siyasət həyata keçirən müdrik lider Heydər Əliyevin ilk işi Ermənistanla atəşkəs haqqında razılaşma əldə edilməsi oldu. Dahi şəxsiyyət bilirdi ki, onsuz da Azərbaycan gec-tez öz ərazilərini işğaldan azad edəcək, ancaq bunun üçün müəyyən qədər zaman, ölkəmizin iqtisadi, hərbi cəhətdən güclənməsi üçün vaxt lazım idi. Paralel olaraq diplomatik siyasət yürüdərək beynəlxalq səviyyədə ölkəmizin həqiqətlərinin dünyaya çatdırılması istiqamətində iş görülməli idi.

Məhz Heydər Əliyevin sayəsində ölkəmiz BMT kimi mötəbər tribunadan istifadə etməklə dünya ictimaiyyətinin diqqətinin Qarabağ məsələsinə daha çox yönəlməsinə müvəffəq oldu. 1994-cü ildə Nyu Yorkda BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxışı zamanı Heydər Əliyev deyirdi: "Regionumuzda baş verən hadisələr haqqında dünya ictimaiyyətinin kifayət qədər məlumatlı olmadığını, bəzi hallarda işə birtərəfli məlumatı olduğunu bilərək sizi real vəziyyətlə qısaca tanış etmək istərdim".

Dahi siyasətçi əlavə edirdi ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunun ərazisində qoşun qruplaşması yaradaraq respublikamıza qarşı fəal döyüş əməliyyatları aparmışdır: "Şuşa şəhəri və Laçın rayonu işğal edildikdən sonra Dağlıq Qarabağın ilhaqı başa çatdırılmış, Dağlıq Qarabağda yaşayan təxminən 50 min azərbaycanlı oradan qovulmuşdur. Erməni silahlı birləşmələri Dağlıq Qarabağ plasdarmından istifadə edərək bundan sonra hücumun gedişində Azərbaycanın digər altı rayonunu - keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarından Laçın rayonu kimi kənarda olan və sahəsi keçmiş vilayətin sahəsindən dörd dəfə çox olan Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl və Qubadlı rayonlarını işğal etmişlər".

Ümumiyyətlə, nüfuzlu kürsülərdən bölgədə yaşanan reallıqları mütəmadi olaraq çatdıran Ümummilli Lider Heydər Əliyev heç zaman imkan vermədi ki, Qarabağ məsələsi süni şəkildə beynəlxalq gündəlikdən çıxarılsın.

Azərbaycanın iqtisadi inkişafına nail olmaq üçün düşünülmüş addımlar atan uzaqgörən siyasətçi Heydər Əliyev 20 sentyabr 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin timsalında ölkəmizin investisiya yatırımları üçün əlverişli ünvan olduğuna beynəlxalq ictimaiyyətdə inam yaratdı. Həm "Əsrin müqaviləsi", həm də Bakı-Tbilisi-Ceyhan boru kəməri sayəsində Azərbaycanın güclü iqtisadiyyatının əsasları formalaşdırıldı.

Vətənpərvər şəxsiyyət Heydər Əliyevin gündəliyinin əsasını daim işğal edilmiş torpaqlarımızın azad edilməsi və o ərazilərdən zorla didərgin salınan insanların doğma yurdlarına qaytarılması təşkil edirdi. Məcburi köçkünlərin problemlərini aradan qaldırmaq, bu insanlarımızın mənzil, məişət şəraitlərinin yaxşılaşdırılması üçün birbaşa Ulu Öndər Heydər Əliyevin diqqəti və nəzarəti altında mühüm işlər gerçəkləşdirilirdi. Ölkənin uğurlu neft strategiyasının nəticəsi olan "Əsrin müqaviləs"i sayəsində əldə edilən ilk gəlirlərin qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilməsi də bu istiqamətdə görülən işlərin davamı idi. Həmçinin Qarabağ və Şərqi Zəngəzurdan didərgin düşən insanların çətin vəziyyətdə yaşamağa məcbur olduqları çadır düşərgələri mərhələli şəkildə ləğv edilməyə başlanıldı.

Ümummilli Lider Heydər Əliyevin məcburi köçkünlərlə hər görüşü tarixə çevrilirdi, ən ümdəsi bu görüşlər həmin insanlara mənəvi güc verirdi. Çıxışlarında, məcburi köçkünlərlə olan söhbətlərində həmişə torpaqlarımızın işğaldan mütləq azad ediləcəyini vurğulayan Ulu Öndərin qayıdışa olan sarsılmaz inamı məcburi köçkün vətəndaşlarımızın da ürəyində yurdlarına dönüşə ümid işığını sönməyə qoymurdu.

20 mart 1998-ci ildə Mərdəkandakı "Abşeron" sanatoriyasında Novruz bayramı münasibətilə qaçqın və məcburi köçkünlər üçün təşkil olunmuş bayram şənliyində Ulu Öndər Heydər Əliyev böyük inam və əminliklə dilə gətirmişdi: "Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır. Mən buna inanıram və bu inamla yaşayıram, bu inamla işləyirəm və bu inamla da Azərbaycan xalqına rəhbərlik edirəm".

## Xilaskarlıq missiyası

Ulu Öndərin həmin tarixi çıxışının üzərindən 22 il keçdikdən sonra xalqımız Prezident İlham Əliyev tərəfindən həmin arzuların qətiyyətlə həyata keçirildiyinin şahidi oldu.

Heydər Əliyev siyasi məktəbinin yetirməsi olan Prezident İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi ötən müddətdə Azərbaycanı mühüm inkişaf mərhələsinə yüksəltdi. Yürütdüyü daxili və xarici siyasətdə ölkəsinin və xalqının maraqlarını əldə rəhbər tutan cənab İlham Əliyev güclü iqtisadiyyatın güclü dövlətin təməli olduğunu bilirdi və buna görə də bu sahənin inkişaf etdirilməsinə böyük diqqət ayırırdı. Eyni zamanda hərbi sahənin inkişafı və ordu quruculuğunun müasir standartlar səviyyəsinə yüksəldilməsi, istər silah-sursat və texniki bazanın gücləndirilməsi, istərsə də peşəkar kadr hazırlığı baxımından Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin gündəliyinin prioriteti idi. Təbii ki, beynəlxalq arenada Azərbaycan həqiqətlərinin çatdırılması da görülən mühüm işlərin tərkib hissəsi idi.

Dövlətimizin rəhbəri İlham Əliyevin hərtərəfli düşünülmüş, dəqiq ölçülüb-biçilmiş siyasət və hərbi strategiyası bizi indi beşinci ildönümünü qürurla qeyd etdiyimiz Şuşa Zəfərinə çatdırdı.

O da təsadüfi deyildi ki, 8 noyabr 2020-ci ildə - Qarabağın mirvarisi Şuşanın azadlıq günündə Prezident İlham Əliyev milli mübarizəmizin simvolu olan Şəhidlər xiyabanına yollanaraq məhz bu məkandan xalqımıza müraciət edərək qürurla ata vəsiyyətini yerinə yetirdiyini dedi: "Mən bu gün, eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Bu, Azərbaycan xalqının ötən 30 ildə keçdiyi keşməkeşli mübarizəsinin, nəhayət, öz məntiqi sonluğu olan qələbəyə çatması demək idi. Bu qələbə həm də sonrakı uğurlarımızın açarı oldu. Azərbaycanın suverenliyi tam təmin olundu, Qarabağda separatizmin kökü birdəfəlik kəsildi, regionda davamlı sülh üçün şərait yarandı.

Vətən müharibəsindən dərhal sonra Şuşaya uzanan Zəfər yolunun təməlini atan Prezident İlham Əliyev bununla Qarabağ və Şərqi Zəngəzurda dirçəliş, quruculuq dövrünün başlanğıcını qoydu. Ötən beş il ərzində həmin ərazilərdə elə bir miqyasda işlər görülüb ki, dünyanın heç bir yerində onun analoquna rast gəlmək mümkün deyil. Xarabalıqlar üzərində yeni və "ağıllı" şəhərlər, qəsəbələr, kəndlər tikilib. Bütün sahələri əhatə edən müasir infrastruktur qurulub, yollar, tunellər, körpülər salınıb, beynəlxalq hava limanları istifadəyə verilib.

Ümummilli Lider Heydər Əliyevin irsini layiqincə yaşadan Heydər Əliyev Fondu Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi altında Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuğa böyük töhfələr verir. Bu ərazilərdə tarixi abidələrimiz fond tərəfindən müvəffəqiyyətlə bərpa olunur, məscidlərimiz yenidən insanlarımızın istifadəsinə verilir.

1994-cü ildə Ali Baş Komandan Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu Horadiz əməliyyatı sayəsində Füzuli rayonunun Horadiz qəsəbəsinə sakinlərinin qaytarılması ilə Böyük qayıdışın təməli qoyulub. 44 günlük müharibədən sonra Qarabağ və Şərqi Zəngəzura köç karvanlarının yola salınması həmin tarixi qayıdışın davamıdır. 2022-ci ilin yayından etibarən keçmiş məcburi köçkünlər mərhələli şəkildə öz yurdlarına qayıdırlar. Bu gün Qarabağ və Şərqi Zəngəzurda on minlərlə insan yaşayır, işləyir və təhsil alır ki, bütün bunlar ağır müharibədən çıxmış bir ölkənin yalnız öz iqtisadi potensialı ilə həyata keçirdiyi mühüm işlərdir.

Bu il 8 noyabrda keçirilmiş Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş hərbi paraddakı çıxışında Müzəffər Ali Baş Komandan İlham Əliyev dövlətimizin qazandığı bu böyük nailiyyətlərlə bağlı dedi: "Bu gün isə Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Bu gün Böyük qayıdış proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır. Bütün bu tarixi nailiyyətlərlə bağlı bir daha əziz xalqımı təbrik edirəm. Biz bu beş ili qürur hissi ilə yaşamışıq. Əminəm ki, bundan sonra Azərbaycan xalqı qəhrəman, müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaqdır. Biz - bu torpaqların sahibləri Qarabağa, Şərqi Zəngəzura qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan bayrağı bu torpaqlarda əbədi dalğalanacaqdır".

Azərbaycanın yaratdığı yeni geosiyasi reallıqlar sayəsində Cənubi Qafqazda sülh, əməkdaşlıq və inkişaf üçün tarixi şərait yaranıb. Bu mənada cari ilin avqustunda Prezident İlham Əliyevin ABŞ-yə işgüzar səfərinin nəticələri Azərbaycan diplomatiyasının tarixi qələbəsi oldu.

Azərbaycan Prezidenti İlham Əliyevin respublikamızın siyasi və diplomatiya tarixinə qızıl hərflərlə yazılan və Prezident Donald Trampın dəvəti ilə reallaşan Vaşinqton səfəri Azərbaycan-ABŞ münasibətlərinin yeni mərhələyə yüksəldilməsi və Azərbaycanla Ermənistan arasındakı sülh gündəliyinin hüquqi müstəvidə daha da möhkəmləndirilməsi, sülh sazişinin imzalanması istiqamətində əsas maneələrin aradan qaldırılması baxımından mühüm razılaşmaların əldə edilməsi ilə əlamətdar oldu. 8 avqust tarixində Vaşinqtonda ABŞ lideri Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan liderləri Birgə Bəyannamə imzaladılar, sülh mətni paraflandı və bir çox razılaşmalar əldə edildi. Bunların arasında Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı razılaşma həm də beynəlxalq maraq ehtiva etməsi səbəbindən xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını nəqliyyat-kommunikasiya blokadasından çıxaran Zəngəzur dəhlizi Orta dəhlizin vacib halqasına çevrilməklə, bölgənin və daha geniş coğrafiyanın iqtisadi-ticari inkişafına böyük potensial vəd edir. Ölkəmizi Şərqlə Qərbin mühüm iqtisadi tərəfdaşına çevirən bu dəhliz, həmçinin türk dünyası ölkələrinin hərtərəfli əməkdaşlıq və inteqrasiyası üçün mühüm əhəmiyyətə malikdir.

Dahi Heydər Əliyevin siyasi yetirməsi Prezident İlham Əliyevin ötən müddətdə həyata keçirdiyi uzaqgörən və balanslaşdırılmış siyasət Azərbaycanın dünya nizamındakı bugünkü rolunu və yerini bərqərar edib. Prezident İlham Əliyevin müdrik rəhbərliyi sayəsində artıq dünya birliyində öz layiqli yerini tutan, dayanıqlı və davamlı iqtisadi inkişafına görə regionun ən inkişaf etmiş ölkəsi olan Azərbaycan qlobal siyasi böhranların həll edildiyi masalarda rəy və mövqe sahibi kimi çıxış edir. Dünyanın gələcəyi ilə bağlı məsələlərin müzakirə edildiyi toplantılarda yaratdığı sülh modeli nümunə çəkilən ölkəmizin daha ədalətli beynəlxalq nizamın qurulması üçün etdiyi çağırışlar diqqət və rəğbətlə qarşılanır.

Azərbaycanın bu gün beynəlxalq siyasi zirvədə nəhəng ölkələrlə bir sırada dayanması Prezident İlham Əliyevin qətiyyətli, əzmkar rəhbərliyi altında həyata keçirilən zəfər strategiyası sayəsində mümkün olub.

*Bu isə xalqı qarşısında misilsiz xidmətlər göstərmiş, onu böyük bəlalardan, faciələrdən xilas etmiş Ulu Öndər Heydər Əliyevin bütöv Azərbaycan amallarının gerçəkləşdiyini göstərir.*

*Bəli, qalib, müstəqil, suveren Azərbaycan Ümummilli Lider Heydər Əliyevin vaxtilə müəyyənləşdirdiyi və xalqımızı daim yüksəlişə, inkişafa, uğurlara aparan milli yolla gələcəyə doğru inamla addımlayır...*

***Asif ƏSGƏROV,***
***Milli Məclisin deputatı***

## Azərbaycanın özü qədər əbədi

# Müasir Azərbaycan dövlətçiliyinin banisi



**12 dekabr anım günü kimi yalnız kədər deyil, həm də minnətdarlıq günüdür - çünki bu tarix bizə müstəqil Azərbaycanın hansı fədakarlıq və müdriklik hesabına qurulduğunu xatırladır. Bu tarixdə biz yalnız nüfuzlu bir dövlət xadimini deyil, bütöv bir dövrün formalaşmasına təsir göstərmiş, müasir Azərbaycan dövlətçiliyinin əsaslarını qurmuş Heydər Əliyevi hörmət və ehtiramla xatırlayırıq. Onun fəaliyyəti təkcə bir dövrün deyil, bütövlükdə gələcək nəsillərin taleyini müəyyənləşdirən strateji qərarlarla, uzaqgörənlik və qətiyyətlə xarakterizə olunur.**

Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlməsi ölkənin inkişaf tarixində yeni bir mərhələnin başlanğıcına çevrildi. Həmin ildən etibarən respublikada idarəetmə üslubu, iqtisadi siyasət və sosial sahələrdə yenilənmə prosesləri tamamilə fərqli bir dinamika qazandı. Ulu Öndər Heydər Əliyev iqtisadiyyatın əsas istiqamətlərinin modernləşdirilməsi, sənayenin inkişafı, peşəkar kadrların yetişdirilməsi və Azərbaycanın ittifaq miqyasında nüfuzunun yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü addımlar atdı.

Bu dövr bir çox sahədə əsaslı dönüş yaratdı: Bakıda geniş infrastruktur layihələrinin icrası, təhsil şəbəkəsinin genişləndirilməsi, elmi potensialın gücləndirilməsi və milli kadr məktəbinin formalaşdırılması kimi yeniliklər ölkənin gələcək inkişaf xəttinin möhkəm təməlini qurdu. Ulu Öndər Heydər Əliyevin dövlət idarəçiliyinə gətirdiyi nizam-intizam və strateji yanaşma onu ittifaq səviyyəsində də nüfuzlu simaya çevirdi və Azərbaycanın söz sahibinə çevrilməsində mühüm rol oynadı.

1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan çox mürəkkəb siyasi, sosial və hərbi böhranla üzləşmişdi. AXCP-Müsavat cütlüyünün səriştəsiz idarəçiliyi daxili çəkişmələrə, xaosa və cəbhədə ağır vəziyyətə səbəb olaraq, ölkəni dağılma təhlükəsi ilə üz-üzə qoymuşdu. 1993-cü ildə xalqın tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən siyasi rəhbərliyə qayıtdı və ölkədəki ağır vəziyyəti qısa müddətdə sabitləşdirərək dövlətçiliyin dağılmasının qarşısını aldı.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyinin hər mənada qorunması ilə nəticələndi. Ordunun formalaşdırılması, siyasi institutların qurulması, dövlət təhlükəsizliyi sisteminin möhkəmləndirilməsi, iqtisadiyyatın tamamilə çökməsinin qarşısının alınması - bütün bunlar tarixi xilaskarlıq missiyasının bir hissəsi idi.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövrünün əsas hədəflərindən biri müstəqil dövlətçiliyin möhkəmləndirilməsi və milli ideologiyanın elmi-siyasi əsaslarının müəyyənləşdirilməsi idi. Məhz həmin mərhələdə azərbaycançılıq ideyası sistemli şəkildə formalaşdırılaraq dövlət siyasətinin başlıca istiqamətlərindən birinə çevrildi. Bu ideya cəmiyyətdə milli birliyi gücləndirdi, müxtəlif sosial təbəqələr arasında həmrəyliyi artırdı və müstəqilliyin qorunmasını ümummilli məqsəd kimi möhkəmləndirdi.

Ulu Öndərin rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə qəbul olunan Konstitusiya Azərbaycan dövlət quruculuğunda yeni mərhələ açdı. Hüquqi sistemin modernləşdirilməsi, hakimiyyət bölgüsünün dəqiq müəyyənləşdirilməsi, insan hüquqlarının müdafiəsi və siyasi institutların müasir tələblərə uyğun qurulması Ulu Öndər Heydər Əliyevin təşəbbüsləri nəticəsində reallaşdı və ölkənin gələcək inkişafı üçün möhkəm hüquqi baza formalaşdırdı.

Heydər Əliyevin diqqət ayırdığı əsas sahələrdən biri də təhsil və mədəniyyət idi. Onun təşəbbüsü ilə ölkədə yüzlərlə məktəb, mədəniyyət ocağı və idman infrastrukturu yeniləndi. Gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi, sağlam düşüncənin təşviqi, dövlətçilik dəyərlərinin təbliği də Ulu Öndərin siyasi kursunun vacib istiqaməti idi. Heydər Əliyev hesab edirdi ki, müstəqilliyin qorunması yalnız güclü dövlət və ordu ilə deyil, həm də sağlam düşüncəli, bilikli və məsuliyyətli gənclərlə mümkündür.

1990-cı illərin mürəkkəb geosiyasi şəraitində Azərbaycanın dövlət maraqlarını qorumaq üçün Heydər Əliyevin həyata keçirdiyi xarici siyasət tariximizdə xüsusi mərhələ kimi qiymətləndirilir. Müstəqilliyini bərpa etmiş, lakin zəif institusional baza, cəbhədə qeyri-sabitlik və daxili ziddiyyətlərlə üzləşmiş bir ölkənin beynəlxalq arenada özünü təsdiqləməsi asan deyildi. Regional və qlobal güclərin maraqlarının kəsişdiyi Qafqazda balans tapmaq həm böyük siyasi təcrübə, həm də strateji düşüncə tələb edirdi. Ulu Öndər Heydər Əliyev məhz bu çətin şəraitdə balanslaşdırılmış və çoxşaxəli xarici siyasət xətti formalaşdıraraq Azərbaycanın təhlükəsizliyini, regional dayanıqlılığını və beynəlxalq legitimliyini təmin etdi.

Bu addımlar ölkəni regional təlatümlərdən uzaqlaşdırdı, Azərbaycanın təcridə düşməsinin qarşısını aldı və böyük dövlətlərlə qarşılıqlı hörmətə əsaslanan tərəfdaşlıq münasibətlərinin yaranmasına imkan yaratdı. Həm Şərqlə, həm Qərblə, həm də region dövlətləri ilə əməkdaşlıq münasibətlərinin paralel şəkildə qurulması Azərbaycanın müstəqil siyasi kursunu daha da gücləndirdi.

Heydər Əliyevin yaratdığı diplomatik xətt bu gün də Azərbaycan xarici siyasətinin əsas dayaqlarından biri kimi aktuallığını qorumaqdadır. Onun müəyyən etdiyi prinsiplər dövlətin beynəlxalq mövqeyini gücləndirən, milli maraqları təmin edən və çoxşaxəli əməkdaşlıq imkanlarını genişləndirən kompleks yanaşma üzərində qurulmuşdu.

Bu xarici siyasət xəttinin əsas istiqamətlərindən biri suverenliyin və ərazi bütövlüyünün birmənalı şəkildə müdafiəsi idi. Heydər Əliyev Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün təmin olunmasını dövlət siyasətinin dəyişməz prioriteti elan etmiş və bu mövqeyi bütün beynəlxalq platformalarda ardıcıl şəkildə müdafiə etmişdir. O, Qarabağ münaqişəsinin beynəlxalq hüququn hamılıqla qəbul olunmuş prinsipləri, ərazi bütövlüyümüz və suverenliyimizin qorunması əsasında həllini dəfələrlə gündəmə gətirmiş, bununla bağlı real həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün geniş diplomatik fəaliyyət göstərmişdir.

Diplomatik kursun digər mühüm istiqaməti beynəlxalq təşkilatlarla fəal və sistemli əməkdaşlıq idi. Azərbaycan Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu qurumlarla əlaqələrini genişləndirməklə beynəlxalq hüquqa əsaslanan mövqeyini möhkəmləndirdi. Sözügedən əməkdaşlıq təkcə siyasi dialoqu genişləndirmədi, həm də ölkənin regional problemlərlə bağlı ədalətli mövqeyinin tanıdılmasına mühüm töhfə verdi.

Heydər Əliyevin xarici siyasətinin üçüncü strateji dayağı iqtisadi diplomatiyanın gücləndirilməsi idi. Xüsusilə neft və qaz sahəsində həyata keçirilən layihələr Azərbaycanın beynəlxalq əməkdaşlıq tarixində yeni mərhələ açdı. Xarici sərmayələrin ölkəyə axını təmin edildi, iqtisadi tərəfdaşlıq əlaqələri genişləndi və bu münasibətlər yalnız iqtisadi sfera ilə məhdudlaşmayaraq, siyasi təhlükəsizliyin möhkəmləndirilməsində də mühüm rol oynadı. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" həm iqtisadi, həm də siyasi baxımdan Azərbaycanın taleyini dəyişən qərarlardan biri oldu. Dünyanın böyük şirkətləri ilə imzalanmış saziş Azərbaycanın dünya enerji xəritəsinə qayıdışını təmin etməklə yanaşı, dövlət büdcəsinə davamlı gəlir mənbəyi yaratdı və ölkənin beynəlxalq nüfuzunu artırdı.

Xarici siyasət kursunun ən mühüm istiqamətlərindən biri enerji təhlükəsizliyində qlobal rolun yüksəldilməsi idi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa və digər beynəlxalq enerji xətlərinin reallaşdırılması ilə Azərbaycan qlobal enerji təhlükəsizliyinin vacib iştirakçısına çevrildi. Bu layihələr ölkəni etibarlı enerji tərəfdaşı kimi tanıtdı və Azərbaycanın geosiyasi əhəmiyyətini daha da yüksəltdi. Nəticə etibarilə, Azərbaycan mühüm tranzit mərkəzinə çevrilərək bölgədə sabitlik və əməkdaşlığın formalaşmasına töhfə verdi. Bu istiqamətlər sonrakı dövrdə də Azərbaycanın xarici siyasət kursunun təməl prinsipinə çevrilərək ölkənin beynəlxalq mövqeyini möhkəmləndirməyə davam etdi.

Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs 2003-cü ildən sonra Prezident İlham Əliyev tərəfindən daha geniş miqyasda və yeni çağırışlara uyğun şəkildə davam etdirildi. İqtisadiyyatın çoxşaxəli inkişafı, qeyri-neft sektorunun gücləndirilməsi, regionlarda infrastruktur layihələrinin həyata keçirilməsi və ölkənin makroiqtisadi sabitliyinin təmin olunması uzunmüddətli strategiyanın müasir tələblər çərçivəsində davam etdirilməsinə imkan verdi.

Azərbaycanın hərbi gücünün artırılması, müasir ordu quruculuğu, müdafiə sənayesinin yaradılması və beynəlxalq hərbi əməkdaşlığın genişləndirilməsi də Ulu Öndərin qoyduğu möhkəm təməl üzərində formalaşdı. Nəticə etibarilə ölkənin müdafiə qabiliyyəti xeyli gücləndirildi və bu da 2020-ci ildə Azərbaycanın tarixi Zəfəri üçün strateji baza yaratdı. Qarabağın işğaldan azad olunması yalnız Azərbaycanın hərbi qüdrətinin deyil, uzun illər ərzində həyata keçirilən uğurlu və ardıcıl daxili və xarici siyasət kursunun məntiqi nəticəsində mümkün oldu.

Ulu Öndərin irsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən uğurla təbliğ edilir. Heydər Əliyevin dövlətçiliyimizin qorunub inkişaf etdirilməsi, ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi, dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə həyata keçirdiyi siyasətin öyrənilməsi məqsədilə fond tərəfindən mühüm layihələr gerçəkləşdirilir. Bu isə öz növbəsində Heydər Əliyev irsinin gələcək nəsillərə ötürülməsində mühüm əhəmiyyət kəsb edir.

Bu gün Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu, enerji və nəqliyyat layihələrində aparıcı mövqeyi, təhlükəsizliyə töhfələri və regional əməkdaşlıq formatlarında fəal iştirakı Ulu Öndər Heydər Əliyevin dövlətçilik siyasətinin, tarixi əhəmiyyətli irsinin yaşayaraq inkişaf etdiyini təsdiqləyir. Dövlətçilik ənənələrinə əsaslanan bu siyasət həm ölkənin təhlükəsizliyinin təminatında, həm də regional sabitlik və əməkdaşlığın gücləndirilməsində mühüm rol oynayır.

*Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik irsi bu gün də yaşayır və ölkənin inkişaf yolunu müəyyən edir. Ulu Öndərin fəaliyyəti tarix dərsi olmaqla yanaşı, həm də gələcəyə gedən yol üçün strateji istiqamətdir. Ümummilli Liderin adı Azərbaycan dövlətçiliyinin tarixində əbədi olaraq yol göstərən bir zirvə kimi qalır.*

***Zaur ŞÜKÜROV,***
***Milli Məclisin deputatı***

# Nadir şəxsiyyət, qüdrətli siyasi xadim

**Xalqımız dekabrın 12-sini Ulu Öndər Heydər Əliyevin anım günü kimi böyük el məhəbbəti, minnətdarlıq hissi ilə qeyd edir. Tarixə adını əbədi həkk etmiş nadir şəxsiyyətin, qüdrətli siyasi xadimin həyat və fəaliyyəti hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilmişdir.**

Ulu Öndər Azərbaycanı böyük bəlalardan, faciələrdən hifz edib, ölkəni sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxarıb, qlobal enerji-kommunikasiya layihələrini reallaşdırmaqla vətənə sədaqətlə xidmətin əyani nümunəsini yaradıb. Tarixi təcrübə göstərir ki, hər bir xalqın taleyində mühüm dönüş nöqtələri - həlledici anlar və məqamlar var. Çoxəsrlik dövlətçilik tarixinə, zəngin milli-mənəvi dəyərlərə, ləyaqətli inkişaf yoluna malik olan Azərbaycan xalqı da bu baxımdan istisna deyil.

İnkaredilməz reallıqdır ki, Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət, əbədiyaşar lider, Ulu Öndər Heydər Əliyev olub.

Dahi siyasətçi həm keçmiş SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılmasında, respublikamızın tərəqqisinin təmin olunmasında və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görüb.

Keçmiş SSRİ-nin tabeliyində olan Azərbaycan 1969-cu ilədək ciddi tənəzzül meyilləri ilə qarşı-qarşıya idi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (KP MK) 1969-cu il iyul plenumunda Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsindən sonra bütün sahələrdə həyata keçirilən islahatlar, görülən tədbirlər respublikamızın inkişafını təmin edən strateji amil oldu. Milli şüurun inkişafı, müstəqilliyə gedən yolun başlanğıcı məhz bu dövrdən başlanır. 1971-ci ildə Ulu Öndərin təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması isə peşəkar milli hərbçilərimizin yetişməsində mühüm amil oldu. Heydər Əliyevin bu uzaqgörən qərarı gələcəyə hesablanmışdı və müstəqil Azərbaycanın ordu quruculuğunda həmin lisey mühüm faktor oldu. Yeri gəlmişkən, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə vuruşan Azərbaycan zabitlərinin 70 faizdən çoxu həmin liseyin yetirmələridir.

1978-ci ildə isə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ittifaq respublikaları arasında ilk olaraq məhz Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Siyasi-ideoloji müstəvidə görülən bütün işlər milli inkişaf və həmrəyliyimizin təmin olunması baxımından tarixi əhəmiyyətə malik addımlar oldu.

Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərindən bəhs edərkən onun fəaliyyətinin Naxçıvan dövrünə də nəzər salmaq lazımdır. 1990-cı ildə Azərbaycan mürəkkəb situasiya qarşısında olduğu zaman muxtar respublikanın blokada şəraitində olması, sosial-iqtisadi durumunun acınacaqlı hala düşməsi, mərkəzi hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini olduqca mürəkkəbləşdirmişdi.

1991-ci ilin sentyabr ayında Ulu Öndər Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Məclisinin sədri seçilməsindən sonra muxtar respublikada sabitlik təmin edildi, sosial və iqtisadi durum yaxşılaşdırıldı. Muxtar respublikanın ərazisinin düşmənin işğalı altına düşməsinin qarşısı alındı. Bundan başqa, milli dövlətçilik ənənələrinin bərpası istiqamətində ardıcıl və məqsədyönlü işlər aparıldı. Muxtar respublikada dövlət rəmzləri bərpa edildi, milliləşdirmə siyasəti davam etdirildi.

17 noyabr 1990-cı ildə Naxçıvan Ali Sovetinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar 2 bəndlik qərar qəbul edildi. Bununla yanaşı, Naxçıvan MSSR adından "sovet" və "sosialist" sözləri çıxarıldı, Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və sovet ordusu Naxçıvan MR ərazisindən çıxarıldı. "1990-cı il yanvar ayının 20-də törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edilməsi barədə qərarlar qəbul edildi. Ulu Öndər Naxçıvanda çalışarkən o zaman hakimiyyətdə olan AXC-Müsavat cütlüyü Heydər Əliyevi devirməyə cəhd etsə də, insanların ona olan sevgi və inamı bunun qarşısını qətiyyətlə aldı.

1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya sədr seçilməsi respublikanın ozamankı gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Yeni Azərbaycan Partiyasının yaradılması və milli inkişafa xidmət edən vəzifələrin yerinə yetirilməsinə layiqli töhfəsini verməsi Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindəndir. Yeni Azərbaycan Partiyası təşkilatlanaraq öz fəaliyyətini davam etdirdi və qısa zaman kəsiyində xalqın etimadını qazanmaga nail oldu. 1993-cü ildə xalqın dəstəyi ilə Ulu Öndər hakimiyyətə gəldi, YAP hakim partiyaya çevrildi.

Bu proseslər kontekstində daha bir məqama nəzər salmaq vacibdir. Belə ki, 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinə sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Belə ki, Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi əsasında atdığı praqmatik addımlar sayəsində ölkədə hökm sürən dağıdıcı proseslərin aradan qaldırılmasına nail olundu. Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi.

Beləliklə, dahi lider Azərbaycanı vətəndaş müharibəsindən - qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı. Ulu Öndər illər sonra o günləri belə xatırlayırdı: "Eşidəndə ki mənim doğma Vətənim, mənim doğma torpağım dağılır, uzun müddət bu vətənin, ölkənin inkişafına xidmət etmiş bir adam kimi mən bilirəm ki, burada nələr etmişik və bu, dağılır, şübhəsiz ki, özümü qurban verməli oldum və gəldim, məsuliyyəti öz üzərimə götürdüm".

1993-cü ildə keçirilmiş prezident seçkilərində 98,84 faiz səslə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik tarixinə taleyüklü möhtəşəm siyasi hadisə kimi daxil oldu. Ən əsası, uğurlu dövlət quruculuğu prosesinin əsası qoyuldu. Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması bu kontekstdə xüsusi əhəmiyyətə malikdir.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsini, ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin formalaşmasını da təmin etdi. Ulu Öndərin həyata keçirdiyi praqmatik xarici siyasət kursunun mühüm istiqamətlərindən birini enerji resurslarından səmərəli istifadə olunması və bu kontekstdə Azərbaycanın etibarlı strateji tərəfdaşa çevrilməsi təşkil edirdi. 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 8 ölkəsindən 13 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın iqtisadi müstəqilliyinin və dünya iqtisadi sisteminə inteqrasiyasının möhkəm təməli qoyuldu. Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində imzalanmış "Əsrin müqaviləsi"ndən başlanan enerji siyasəti Azərbaycanın regional və qlobal miqyasda enerji təhlükəsizliyinin təminatına müstəsna töhfələr bəxş etməsini şərtləndirməklə yanaşı, ölkəmizin iqtisadi gücünü və nüfuzunu artıran faktor kimi çıxış etdi. Bundan sonra milli maraqlarımıza müvafiq enerji layihələri gerçəkləşdirildi və bütün bunlar Azərbaycanın etibarlı strateji tərəfdaş kimi ikitərəfli və çoxtərəfli xarici əlaqələrinin səmərəlilik səviyyəsini artırdı. Ölkəmiz miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli strateji layihələrin mərkəzi oyunçusuna çevrildi. Eyni zamanda Heydər Əliyevin əsasını qoyduğu uğurlu xarici siyasət sayəsində Azərbaycan qısa zaman kəsiyində regionun güclü və nüfuzlu aktoruna çevrildi, qlobal miqyasda milli dövlətlərin etibarlı strateji tərəfdaşı kimi qəbul edildi. Bütün bu nailiyyətlər torpaqlarımızın 20 faizinin işğal altında və bir milyondan çox vətəndaşımızın qaçqın və məcburi köçkün olduğu bir şəraitdə qazanıldı.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional xarici siyasət strategiyasının mühüm prioritetlərindən birini də Ermənistan-Azərbaycan Qarabağ probleminin beynəlxalq hüquq normaları əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil edirdi. Məhz Heydər Əliyevin əhəmiyyətli səyləri və gərgin əməyi sayəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmağa başlandı. Problemin ATƏT çərçivəsində həll edilməsi üçün təşkil edilən Minsk qrupunda, həmçinin qurumun bir sıra zirvə toplantılarında məsələnin mahiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdıran Heydər Əliyev dünya dövlətlərini münaqişəyə yanaşmada diqqətli olmağa və məsələnin tezliklə beynəlxalq hüquq normalarına müvafiq surətdə həll edilməsi işində yaxından iştiraka dəvət etdi. Heydər Əliyevin əsasını qoyduğu praqmatik, çoxvektorlu və rasional xarici siyasət kursu ölkəmizin dostlarının və tərəfdaşlarının sayını artırdı, Azərbaycan nüfuzlu dövlətə çevrildi. Milli mənafelərin təmininə hesablanmış bu məqsədyönlü siyasət coğrafi ölçüləri baxımından kiçik Azərbaycanın dünyanın siyasi xəritəsində güclü dövlətlərlə müqayisəsinə şərait yaratdı.

Əminliklə söyləmək olar ki, Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursunun Prezident İlham Əliyev tərəfindən yaradıcı surətdə uğurla davam etdirilməsi sayəsində Azərbaycan bugünkü yüksəlişə və dinamik inkişafa nail olub. Cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi yazılıb. Dövlət başçısının rəhbərliyi ilə daxili və xarici siyasət sahəsində görülən işlər, əldə edilən nailiyyətlər Azərbaycan dövlətinin qüdrətinin artmasında ifadə olunur. Ötən müddət ərzində Azərbaycan iqtisadi inkişafına, ictimai-siyasi sabitliyinə, beynəlxalq müstəvidə nüfuzuna və mövqeyinə görə güclü, qüdrətli bir dövlətə çevrilib.

Ən mühüm məqam isə budur ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasəti layiqincə həyata keçirən Prezident, Ali Baş Komandan İlham Əliyevin ötən illər ərzində bütün müstəvilərdə, o cümlədən iqtisadi inkişaf, ordu quruculuğu, diplomatiya və digər sahələrdə əldə etdiyi uğurlar onun rəhbərliyi ilə müzəffər ordumuzun yaratdığı və yazdığı Qələbə salnaməsinin əsasını qoydu. 30 ilə yaxın işğal altında olan torpaqlarımız 44 günlük Vətən müharibəsində azad edildi və 24 saatlıq antiterror tədbirləri ilə ərazi bütövlüyümüz və suverenliyimiz tam bərpa olundu. Bu, həm də cənab İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsi demək idi. Artıq Ulu Öndərin ruhu şaddır, çünki onun ən böyük arzusu gerçəkləşib, Vətən torpaqlarımız erməni işğalından azad edilib və hazırda azad olunan torpaqlarda əsl sahibləri tərəfindən sürətli quruculuq və bərpa işləri həyata keçirilir.

Əldə olunmuş qələbələr təkcə Azərbaycanın deyil, bütün bölgənin inkişafi üçün yeni imkanlar açdı. Cənubi Qafqazda əsirlərdən sonra sülhün, əməkdaşlığın və təhlükəsizliyin bərqərar olunmasının bünövrəsi qoyuldu. Ulu Öndərin Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə andiçmə mərasimində söylədiyi kimi, "Azərbaycan sülhpərvər ölkədir. Biz dünyada sülh istəyirik, Qafqazda sülh istəyirik, bölgəmizdə sülh istəyirik, ölkəmizdə sülh istəyirik və buna nail olmağa çalışırıq".

Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirmiş olduğu uğurlu inkişaf konsepsiyasını və strategiyasını böyük uğur və əzmlə davam etdirən Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Azərbaycanın milli maraqları ən yüksək səviyyədə təmin edilir. Artıq qüdrətli Azərbaycan, qalib xalqın qalib Lideri, Zəfər salnaməsinin müəllifi ən yüksək kürsüdən - BMT tribunasından dünya ictimaiyyətinə tarixi ədaləti və beynəlxalq hüququ savaş meydanında bərpa edərək sülhün əldə olunması təcrübəsini bölüşür. Bu, Ulu Öndər Heydər Əliyev siyasətinin təntənəsidir.

*Xalqımız Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini dərin hörmət və ehtiramla anır, onun Azərbaycanın bu günü və gələcəyi naminə gördüyü tarixi xidmətləri minnətdarlıqla xatırlayır. Heydər Əliyevin xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.*

***Sevinc HÜSEYNOVA,***
***Milli Məclisin deputatı***

## Azərbaycanın özü qədər əbədi

# Azərbaycanı dünyaya tanıdan böyük şəxsiyyət



**Ümummilli Lider Heydər Əliyevin əbədiyyətə qovuşmasından 22 il keçir. Heydər Əliyev müasir, müstəqil Azərbaycanın milli tarixinin yaradıcısıdır, müstəqil milli dövlətçiliyin təməlini qoyan, onu pillə-pillə ucaldan bir şəxsiyyətdir.**

Heydər Əliyevin mübarizliyi bir çox siyasətçilərdən fərqli olaraq, sözündə yox, əməlində idi. Onun tərcümeyi-halı aydın göstərir ki, bu dahi şəxsiyyət bütün ali keyfiyyətlərini xalqının və Azərbaycanın azad və xoşbəxt gələcəyinə xidmət etməyə səfərbər etmişdi. XIX əsrin tanınmış Amerika şairi Henri Longfello yazır: "Böyük insanlar əbədiyyətə qovuşanda onların saxladıqları nur çox uzun illər sonra da bəşəriyyətin yolunu işıqlandırmaqda davam edir". Ümummilli Lider Heydər Əliyev elə bir nadir şəxsiyyət və möhtəşəm dövlət xadimi idi ki, onun işığı daim bütün varlığı ilə sevdiyi Azərbaycanın və xalqımızın yoluna nur saçacaq.

Azərbaycanı sivil dünyanın və Avropa ailəsinin bir üzvünə cevirmiş Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 34 il ərzində göstərdiyi xidmətlər göz qabağındadır və onları sadalamaqla qurtaran deyil. Azərbaycanda elə bir sahə yoxdur ki, onun inkişafında Ümummilli Lider Heydər Əliyevin zəhməti olmasın. Təkcə sovet hakimiyyəti illərində onun göstərdiyi fəaliyyət böyük bir təcrübə xəzinəsi, dövlət idarəçiliyi akademiyasıdır.

"Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram", - deyən Ümummilli Lider Heydər Əliyev həyatının mənasını yalnız xalqına xidmətdə görmüş, ömrünü onun xoş, firavan gələcəyinə həsr etməkdən şərəf duymuşdur. Ulu Öndər bütün ömrünü Azərbaycanın indiki nailiyyətlərinə həsr etmişdir. Gündən-günə daha da güclənən, inkişaf edən müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğur Ümummilli Lider Heydər Əliyevin ömrünün davamıdır.

1990-cı illərin əvvəllərində Azərbaycanın həlli görünməyən kifayət qədər problemləri vardı. Ölkə dağılmaq, parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Lakin eyni zamanda bu ölkəni öz canı qədər sevən Ümummilli Lider Heydər Əliyev kimi böyük şəxsiyyət vardı. Xalqın müraciəti ilə Ümummilli Lider Heydər Əliyev Azərbaycan tarixinin bu həlledici anında vətənin harayına yetişərək onu bütün təhlükələrdən xilas etdi.

Respublika rəhbərliyinə qayıtdığı ilk gündən başlayaraq Ümummilli Lider Heydər Əliyev ölkədə həyata keçirilən bütün islahatların, ümumiyyətlə, cəmiyyətin həyatında baş verən köklü dəyişikliklərin əsas təşkilatçısı, ilhamvericisi və istiqamətvericisi olmuşdur. Müdrik rəhbərin gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən siyasəti nəticəsində iqtisadiyyatın bütün sahələrində köklü islahatların aparılması üçün başlıca şərt olan ictimai-siyasi sabitlik təmin edilmişdir. Ölkəmizin daxilində yaranmış sabitlik və beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraq 1994-cü ilin sentyabrında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması ilə müşayiət olundu.

Ancaq ölkədə başlanan bu böyük quruculuq işləri daxili və xarici düşmənlərimizin müqavimətinə rast gəlirdi. Lakin Heydər Əliyev onların hamısının qarşısını aldı. 1995-ci ilin noyabrında ölkəmizin ilk Konstitusiyası qəbul edildi və Milli Məclisə demokratik seçkilər keçirildi. Beləliklə, müstəqil dövlətimizin təsisatlarını qurmaq və yaratmaq işi başlandı. Ümummilli Lider Heydər Əliyevin apardığı məqsədyönlü iqtisadi siyasət nəticəsində Milli Məclis torpaq və aqrar islahat, özəlləşdirmə, sahibkarlıq fəaliyyəti, vergi, maliyyə-bank sisteminin yenidən qurulması haqqında, ticarətin liberallaşdırılması, inhisarçılığın aradan qaldırılması və rəqabətin inkişafı, əhalinin sosial müdafiəsi və digər vacib vəzifələri reallaşdıran qanunlar qəbul etdi. Həyata keçirilən bu və digər kompleks tədbirlər nəticəsində Azərbaycanda iqtisadiyyatın dinamik inkişafı dövrü başlandı.

Həmin dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla, sürətlə həyata keçirilməsi Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Lider Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlıca qayəsini müstəqillik, azərbaycançılıq, dövlətçilik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsasını qoydu.

Heydər Əliyevin apardığı daxili siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Heydər Əliyev demokratik hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün real zəmin yaratmışdır. Ulu Öndərin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başlanmışdır.

Bu gün müstəqil dövlətimiz BMT-nin, ATƏT-in, Avropa Şurasının və digər nüfuzlu beynəlxalq təşkilatların bərabərhüquqlu üzvüdür. Hazırda Azərbaycan Qafqaz kimi geosiyasi əhəmiyyətli bir bölgədə sabitləşdirici rol oynayan, demokratik inkişaf yolu ilə qətiyyətlə irəliləyən qüdrətli bir dövlətdir. Azərbaycan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin və "Cənub qaz dəhlizi"nin təşəbbüskarı və müəllifidir. Bu istiqamətdə görülən işlər Azərbaycan Respublikasını bölgədə lider mövqeyə yüksəltmişdir.

Ümummilli Lider Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri də onun Azərbaycana yeni dövlət idarəçiliyi fəlsəfəsi, mədəniyyəti gətirməsidir. Bu o deməkdir ki, Ümummilli Lider Heydər Əliyev tək müasir Azərbaycanın yox, sabahkı əbədi Azərbaycanın da memarıdır. Bu gün Heydər Əliyev siyasi yolunun möhtərəm Prezident İlham Əliyev kimi layiqli davamçısı var. Prezident İlham Əliyevin müəllifi Ümummilli Lider Heydər Əliyev olan enerji startegiyasının dönməz və ardıcıl həyata keçirilməsində, Azərbaycanın dünyada müsbət imicinin daha da möhkəmləndirilməsində, ölkəmizin hərtərəfli inkişafında müstəsna xidmətləri vardır. Azərbaycan xalqı İlham Əliyevin Ümummilli Lider Heydər Əliyev siyasətinin prinsiplərinə əsaslanaraq, ölkəmizin xoşbəxt gələcəyi naminə həyata keçirdiyi fəaliyyəti yüksək qiymətləndirir və buna görə də öz gələcəyinə nikbin baxır.

XX əsrin 90-cı illərində Azərbaycanın qarşısında dayanan çətin vəzifələr yalnız Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti sayəsində tarixi həqiqətə çevrildiyi kimi, XXI əsrin əvvəllərinin möhtəşəm uğurları da Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin yeritdiyi siyasətin parlaq təzahürüdür.

Prezident İlham Əliyevin müdrik siyasəti həm də torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələndi. Ermənistan 2020-ci il sentyabrın 27-də bir neçə istiqamətdən Azərbaycan Ordusunun mövqelərinə doğru hücuma keçdi, ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrinə şiddətli atəş zərbələri endirdi. Düşmənin növbəti hərbi təcavüz cəhdinə cavab verən Azərbaycan Ordusu əkshəmlə əməliyyatına başladı və 44 gün davam edən müharibə nəticəsində Ermənistan ordusunu məhv etməyə, onu diz çökdürməyə, işğal altında olan əraziləri azad etməyə nail oldu. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu tərəfindən icra edilmiş "dəmir yumruq" əməliyyatı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazıldı, işğalçılığı, nasizmin şöhrətləndirilməsini dövlət siyasətinə çevirən Ermənistanın təslim olması ilə nəticələndi.

2023-cü il sentyabrın 19-da isə respublikamızın konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə antiterror əməliyyatına başladı. Azərbaycan öz ərazisində separatçılığa son qoydu. Bununla da dövlət suverenliyimiz tam bərpa edildi.

*Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən möhtərəm Prezident İlham Əliyevin səyi nəticəsində müstəqil Azərbaycan güclü addımlarla inamla irəliləyir. Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolu uzun illər boyu Azərbaycanın tərəqqisi və yüksəlişinin baş xətti olaraq ölkəni yüksəlişə və tərəqqiyə aparacaqdır. Azərbaycanın neçə-neçə nəsli Ümummilli Lider Heydər Əliyev məktəbindən, zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaq və xalqımız var olduqca onu qəlbində əbədi yaşadacaqdır!*

***Şahin SEYİDZADƏ,***
***Milli Məclisin deputatı***

# Heydər Əliyev və azərbaycançılıq ideologiyası

**Azərbaycanın müstəqilliyi və onun stabilləşməsi ona çətinliklə, neçə qurbanlar sayəsində başa gəlib. XX əsrin əvvəlində ilk müstəqillik dövründə ölkəmizi qorumaq qismət olmadı, ikinci dəfə, 70 il sonra isə müdrik Lider sayəsində bu mümkün oldu. Böyük bir əminliklə demək olar ki, Azərbaycanın bugünkü müzəffər mövqeyi, bütün aparıcı sahələrdə, nəinki bölgədə, ümumiyyətlə, dünyada söz sahibi olması Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq ideologiyasının məntiqi nəticəsidir. "20 Yanvar hadisəsi və Aprel döyüşlərinin milli ruhumuzun inkişafındakı rolu" kitabında da deyildiyi kimi, "Heç bir millət önündə həqiqi bir Lider olmasa, sel gücünü ortaya çıxara bilməz, heç bir Lider arxasında milləti durmasa Qəhrəman və Qurucu ola bilməz. Lidersiz heç bir toplu millət kimi özünü təsdiq edə bilməz, heç bir Lider millətsiz tarixdə qala bilməz!" Azərbaycançılıq ideologiyası da özündə bir tərəfdən, Liderin uzaqgörən və müdrik şəxsiyyətini, siyasətini, digər tərəfdən də, bir dövlətin hüdudlarına sığmayan xalqın kimliyini və birliyini, həmrəyliyini ehtiva edir.**

### Azərbaycançılıq - müxtəlif millətlərin tək Vətəni

Müəyyən liderləri ön plana çıxaran və adını pozulmaz hərflərlə tarixə yazan onun xalqın inkişafı üçün sülh şəraitinin yaradılması olur.

Ulu Öndər Heydər Əliyev uzun illər Azərbaycana başçılıq etmişdi, onun nəinki ərazisini, bu ərazidə yaşayan həm çoxsaylı, həm də azsaylı xalqların mənəviyyatını, psixologiyasını çox gözəl bilirdi. O, istər Azərbaycanda, istərsə də Moskvada yaşayanda qeyd-şərtsiz bu xalqın yazılmamış Lideri olaraq qəbul edilirdi. Bunu bilən imperiya rəhbərləri də Azərbaycan əleyhinə xain oyunlarına başlamaq üçün ilk növbədə onu hakimiyyətdən uzaqlaşdırmağa çalışdı və Heydər Əliyev 1987-ci ildə tutduğu vəzifələrdən istefa verməli oldu. Ancaq cəmi 2 il 2 ay sonra bütün real təhlükələrə baxmayaraq, 20 Yanvarda faciə yaşamış, nahaq qanı axıdılmış xalqının yanında, önündə durduğunu yenə də bəyan etdi. Ölkədəki başsızlıqdan istifadə edən ayrı-ayrı qüvvələr xalqı bölməyə, millətləri üz-üzə qoymağa çalışırdı və bu parçalanma prosesi get-gedə sürətlənir, dönməz hal alırdı. Ulu Öndər 1993-cü ildə yenə də təhlükəyə baxmayaraq, şəxsən özü çıxdı o qüvvələrin qarşısına. 15 İyun - Milli Qurtuluş Günü, əslində, xalqın xain qüvvələrin əlində oyuncaq olmaqdan qurtulmasının günü idi. Bu, Azərbaycanda yaşayan millətlərin qurtuluşu idi. O zaman Heydər Əliyev dövlətin başçısı deyildi, amma xalqın Lideri idi. Öz xalqının mənəviyyatını və dərin kökünə bağlılığını gözəl bilən və dəyərləndirən Ulu Öndər Azərbaycanı yalnız öz coğrafiyası ilə məhdudlaşdırmadı, onu, ümumiyyətlə, dünya azərbaycanlılarının Vətəni elan etdi. 1989-cu ildə başlayan "Sərhəd hərəkatı" 1991-ci ilin dekabrında Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Ali Məclisinin qərarı əsasında Azərbaycanın sərhədləri dünyaya səpələnmiş azərbaycanlılara qədər "uzadıldı" və 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi elan olundu.

İdeologiya dövlətin onurğa sütunudur və o, nə qədər güclü və bütün orqanizmlə əlaqəli olarsa, bir o qədər sağlam bir sistem yaranar və uğurla inkişaf edər. Bunu istər dövləti bir ailə ilə müqayisə edən və orada hər üzvün mənəviyyatının əhəmiyyətini vurğulayan Konfusinin, istər dövlətin təməli kimi güclü və müdrik, hərb sənətini dərindən bilən rəhbərin vacibliyini vurğulayan Makiavellinin, istərsə də "dinsiz siyasət tiraniyaya aparır" deyən və müasir Pakistanın ideoloji atası hesab edilən Məhəmməd İqbalın dedikləri ilə təsdiqləmək olar. 2001-ci ilin noyabrında Ulu Öndər Dünya Azərbaycanlılarının birinci qurultayında demişdir: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". Əslində, bu sözlər qədimdən bəri öz təsdiqini tapmış və sınaqdan çıxmış ideyaların Azərbaycan reallığında səslənməsi idi: həm hər bir vətəndaşa üz tutulur, həm qazanılmış müstəqilliyin möhkəmləndirilməsi zərurəti vurğulanır, həm də mənəvi dəyərlərin, milli kimliyin hər şeydən uca tutulması tapşırılır.

### Sülh naminə...

Birinci Dünya müharibəsində Mustafa Kamal Atatürkün ən böyük qələbəsi çökmüş imperiyanın üzərində Türkiyə Respublikasını yaratmaq oldu. O, bütün islahatları, əmrləri ilə beynəlxalq müstəvidə rəqiblərinə cavab verə biləcək, "ölkədə sülh, cahanda sülh" şüarını reallaşdırmağa qabil olan dünyəvi bir dövlət qurmağı bacardı. Bu qələbənin əsas gücü də onun millətinə inanması və millətinin ona inanması oldu.

İkinci Dünya müharibəsi dövründə öz ölkəsini faşizmdən qoruyan və xalqını ətrafında birləşdirərək Böyük Britaniyanı qoruyan, qısa müddətdə hətta düşmənləri ilə də ittifaq bağlayaraq daha böyük şərə qarşı vuruşan Uinston Çörçill hər böhranda yeni imkanlar axtarmaqla yanaşı, əminliklə bildirirdi ki, "heç vaxt məğlub olmayın, nə böyük, nə kiçik işlərdə, əgər bu, şərəf və sağlam düşüncəyə əks deyilsə. Heç vaxt gücə, açıq-aşkar daha qüdrətli görünən düşməninizə tabe olmayın".

Ulu Öndər Heydər Əliyev Azərbaycana qayıdanda xalq faciələrlə tükənmiş, satqın rəhbərlərlə aldadılmış halda idi, xaricdən torpaqlar işğal olunur, daxildə isə əsrlərlə bərabər yaşayan millətlər bir-birinə düşmən kimi baxmağa başlayıb vətəndaş müharibəsinin astanasında durmuşdular. İlk müdrik addım daxildə sülhün bərqərarı oldu və bunun üçün Ulu Öndər qaynar nöqtənin düz mərkəzinə - Gəncəyə getdi. Tərəfləri dinlədi, sözün silahdan daha etibarlı olduğuna inandırdı. Azərbaycanın haqq səsini eşitdirmək üçün isə o, bütün dünyanı gəzdi, özündən qat-qat aşağı səviyyədə olan Ermənistan rəhbərliyi ilə danışıqlar masasına oturdu, Azərbaycanın güclənməsi üçün vaxt qazanmaq naminə atəşkəsə nail oldu. Ulu Öndər Azərbaycanı daxildən bərpa edirdi, millətlərin vəhdətini möhkəmləndirirdi və məhz arxa cəbhədən əmin olandan sonra bu vəhdəti xaricdə bütün bacarığı və siyasi səriştəsi ilə müdafiə edirdi. Dünyanın ən böyük gücləri Azərbaycan əleyhinə birləşib, ədalətsiz qərarlar verəndə o, elə həmin düşmənlərin kürsüsündən elan edirdi ki, "Əgər tarixi faktları araşdırmalı olsaq, onda xatırlatmalıyam ki, indiki Ermənistan ərazisi vaxtilə Azərbaycan torpaqları idi. ... İndi mən onu deyirəm ki, biz Ermənistan ərazisinə, mövcud sərhədlərə göz dikməmişik, onların iddiasında deyilik. Bununla bərabər, biz öz ərazimizin bir metrini də verməyə razılaşa bilmərik". Azərbaycana qoyulan informasiya blokadasını öz şəxsiyyəti ilə yarıb həmin yasaq informasiyanı özü beynəlxalq kürsülərdən tarixi faktlarla sübut edirdi ki, "Bəli, Zəngəzurda azərbaycanlılar çox yaşayıbdır. Vaxtilə Zəngəzurun əhalisinin əksəriyyəti azərbaycanlılar olubdur. Ancaq Sovetlər İttifaqı yaranan zaman respublikaların xəritələri çəkilib, Zəngəzur Ermənistanın tərkibində qalıbdır. Azərbaycanlılar oradan tədricən köçüblər. Amma sizin nəzərdə tutduğunuz Mehri rayonunda 1988-ci, 1989-cu illərdə, 1990-cı ilə qədər daha çox azərbaycanlı yaşayıb, nəinki erməni".

Bəli, Ulu Öndər Azərbaycan əleyhinə səfərbər olmuş bütün güclər - həm daxili, həm də xarici - qarşısında geri çəkilmədi, çökmüş xalqı inandırdı ki, bu, milliyyətindən asılı olmadan hər birimizin Vətənidir və təkrar ayağa qalxmağa qadirdir.

Azərbaycan torpağında həmişə fərqli millətlər mehriban yaşayıb və bu xüsusiyyət daxilən xalqın hər vətəndaşına xasdır. Ta qədimdən bəri öz tarixi köklərinə bağlı olmaqla yanaşı, başqa yerlərdə yaşadığı məkana öz istedadı, qabiliyyəti, ağlı ilə ləyaqətlə xidmət etməyi bacarıb. Maraqlıdır ki, məhz bu xoş münasibətindən, qonşuya mehribanlığından sui-istifadə edən xainlər Azərbaycanın torpaqları üzərində yeni bir dövlət qurub, ərazilərini işğal ediblər. Ulu Öndər tarixi çıxışlarının birində demişdir: "İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan - İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı - bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir. Əgər Qafqazda islam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır". Bu sözlərdə gələcək üçün iki mühüm ismarıc var: birincisi, məhz bütöv Azərbaycan xalqı Qafqazda islam sivilizasiyanın qurucusu və inkişaf etdirən qüvvə olub və olacaqdır. İkincisi, hər nə qədər torpaqlar başqa millətlər tərəfindən işğal edilsə də, lap üzərində dövlət qurulsa da, tarixi kökləri məhv etmək mümkün deyil.

Bugünkü Azərbaycanın siyasətinə, nailiyyətinə, Qərbi Azərbaycana dinc yolla qayıtmaq istəyinə və bunun üçün apardığı mübarizəyə baxsaq, maraqlı bir nəticəyə gəlmək mümkündür. Azərbaycançılıq ideologiyası elə bir gücə malikdir ki, nəinki Azərbaycanın sərhədlərini uzaq ellərə qədər genişləndirə bilir, həm də qədim torpaqlarındakı köklərini də dirçəltməyə qadirdir. Güman etmək olur ki, bütün mədəniyyəti, tarixi, dili ilə Azərbaycanın bir zəif təqlidi olan Ermənistan bu ideologiyanın yumşaq gücündən, bir gün əsl mahiyyətin üstün gəlib onları, ümumiyyətlə, yox edəcəyindən qorxur.

### "Əsrin müqaviləsi" - "iqtisadi möcüzə"

1954-cü ildə Sinqapur siyasətçisi və dövlət xadimi Li Kuan Yu Xalq Hərəkatı Partiyası yaratdı. O, Sinqapur Respublikası quraraq 1992-ci ilə qədər kiçik bir adada yerləşən Britaniya müstəmləkəsindən yüksək dinamikayla inkişaf edən iqtisadiyyata malik bir dövlət qurdu. Tarixdə Li Kuan Yunun fəaliyyəti "iqtisadi möcüzə" adlanır. Onun xidməti iqtisadiyyatla bitmədi, çünki bir millətin qorunması üçün bu, yalnız işin yarısı idi. Li Kuan Yu xalqın mənəviyyatını da yüksəltməyə çalışdı: ingilis dili ilə yanaşı, öz ana dilini də dövlət dili elan etdi. Onun siyasətini, qadağalarını çox sərt qəbul edib, tənqid edənlər də olurdu, ancaq bu bir həqiqət idi ki, Li Kuan Yu bir müstəmləkəni dünyanın aparıcı iqtisadi liderinə çevirə bildi. O, Britaniyadan və ümumiyyətlə, Qərbdən dəyərli keyfiyyətləri alıb, millətinə zərəri ola biləcək hər üsuldan, münasibətdən qorundu.

Bənzər vəziyyət Azərbaycan yenicə müstəqillik qazandığı dövrdə də var idi: imperiyadan ayrılmış gənc, amma zəngin bir ölkə, nəinki işğala məruz qalan, hətta müstəqilliyini belə tam təsdiq edə bilməyən bir respublika, hansı istiqamətdə gedəcəyini təyin edə bilməyən, dilini və dinini yad təsirlərdən qorumaq gücünə malik olmayan bir xalq. Belə bir vəziyyətdə Ulu Öndər kifayət qədər məsuliyyətli və riskli bir addım atdı: 1994-cü ildə Azərbaycanın varlığını belə qəbul etmək istəməyən ölkələri danışıqlar masasına dəvət edib "Əsrin müqaviləsi"ni imzaladı. Təntənəli mərasim zamanı Ümummilli Lider deyib: "Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradırıq. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq". Bu çağırış Azərbaycanı tanımaq istəməyənlərə, onu parçalamaq istəyənlərə, yaxud imperiyadan qopan və özünə himayədar axtaran bir zəif xalq kimi qəbul edənlərə ünvanlanmışdı. Məhz bu dönüş nöqtəsindən sonra Azərbaycan xalqı tam müstəqil olduğuna və bu "müstəqilliyin əbədi, dönməz olduğuna", ölkəsinin yarıyolda qalmayacağına və güclü dövlətlərlə müqavilə bağlamaq qüdrətində olduğuna inandı. Bu addımın atılmasında Ulu Öndər yalnız bir mövqedən çıxış edirdi: Azərbaycanın müstəqilliyini qorumaq və xalqın gələcəyini təmin etmək.

Ulu Öndər yalnız iqtisadiyyatla kifayətlənmədi. Dövlət dilinin və onun vasitəsilə xalqın mənəviyyatının qorunmasını təmin etdi. Əslində, dil siyasətinin özündə də Ulu Öndər azərbaycançılıq ideologiyasını əsas tutur. O, 1995-ci ildə dilin adı ilə bağlı gedən müzakirələrdə bunu müdrikcəsinə vurğulayır və bununla bir daha xalqı parçalanmaqdan, daxili qarşıdurmadan qoruyur. Azərbaycan dili öz çətiri altında neçə millətin dilini birləşdirir, hətta öz dili olmayan bəzi azsaylı millətlər üçün də "dil" ola bilir. Məhz bu səbəbdən, istənilən bir Azərbaycan vətəndaşı deyə bilir ki, "Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik".

*İdeologiya düşüncələrə nüfuz edib onları istiqamətləndirən, yeri gələndə yanlış addımdan qoruyan, yeri gələndə ruhlandıran mental bir qüvvədir. Bunun doğru, vətəndaşın şərəfini və ləyaqətini qoruyan, sabahının təminatçı olması isə onun müəllifindən asılıdır. Təhlillərə, heç də uzaq olmayan tarixə baxanda bir daha əmin olursan ki, azərbaycançılıq yalnız ideologiya deyil, daxildə milli kimliyi, mənəvi dəyərləri, milli birliyi qoruyan, xaricdən xain müdaxilələrin qarşısını alan və güclü inkişaf üçün münbit torpaq yaradan bir yumşaq gücdür.*

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü, professor***

Azərbaycanın özü qədər əbədi

# Dünya azərbaycanlılarının əbədi lideri

## Ulu Öndər diaspor quruculuğuna xüsusi önəm verirdi



**Böyük şəxsiyyətlər tarixin sütunlarıdır, deyib Şərqin görkəmli filosofları. Zamanın ən mühüm proseslərini irəli aparan, bu proseslərin mərkəzində dayanan, insanların birliyinə istiqamət verən, dövlətin ideoloji-siyasi əsaslarını yaradan, kütləni xalq kimi formalaşdıran qüdrətli, qətiyyətli liderlərdir. Bu baxımdan XX əsrin ən güclü və ən parlaq şəxsiyyətlərindən olan Heydər Əliyevin Azərbaycan tarixindəki rolu, ilk növbədə bu missiyanı həyata keçirən lider kimi xidmətləri misilsizdir.**

Bu bir reallıqdır ki, xalqımızın əsrlər boyu formalaşan qətiyyətli, istiqamətverici milli lider idealı məhz Ulu Öndər Heydər Əliyevin şəxsiyyətində həqiqətə çevrilmişdir. Böyük rəhbər müstəqil Azərbaycan dövlətçiliyinin milli-mənəvi, siyasi, iqtisadi, ideoloji əsaslarını yaratmışdır. Ulu Öndər Azərbaycan xalqının güclü dövlətə sahib olmaq arzusunu praktik şəkildə gerçəkləşdirmiş və çağdaş tariximizdə əbədiyaşarlığını təmin etmişdir.

Bu il Heydər Əliyevin dünyasını dəyişməsindən 22 il ötür. Bu 22 ilin elə bir anı yoxdur ki, böyük rəhbərin irsini, nəcib əməllərini xatırlamamış olaq.

Heydər Əliyev irsi təkcə bütün həyatını xalqının, dövlətinin yüksəlişinə həsr etmiş Ümummilli Liderin öz ömürlüyü ilə yaratdığı tarix deyil. Onun irsi həm də bu günümüz və gələcəyimizdir. Azərbaycanın dövlət müstəqilliyinin əbədiliyinə təminat yaradan, önümüzdə aydın inkişaf istiqamətləri müəyyənləşdirən yol bələdçisidir. Bu irsdən daim öyrənməyə, formalaşdırdığı dəyərləri təbliğ etməyə, gələcək nəsilləri həmin dəyərlər ruhunda yetişdirib tərbiyələndirməyə həmişə ehtiyacımız var.

### Böyük vətənpərvər

Ümummilli Liderin Vətəni qarşısındakı ən mühüm xidmətlərindən biri azərbaycançılıq düşüncəsini bütün həmvətənlərini birləşdirən ideologiya halına gətirməsi, müstəqil dövlətin ideya əsasına çevirməsidir. Xalqımız tarix boyu qazandığı dövlətçilik ənənələrini, milli dəyərləri, nailiyyətləri, ali mənəvi keyfiyyətləri məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə təkmilləşdirərək dayanıqlı müstəqil dövlətini qurmuşdur, millət kimi mövcudluğunu, özünü idarə etmək bacarığını ən yüksək səviyyədə nümayiş etdirmişdir.

Heydər Əliyev hələ sovet dövründə Azərbaycana rəhbərlik edərkən azərbaycançılıq məfkurəsinin bütün soydaşlarımız arasında yayılmasına, bu ideyanın geniş ictimai dəyər qazanmasına çalışırdı. Bunu o dövrdə yaradılmış Azərbaycan ədəbiyyatı, musiqisi, kinosu, təsviri sənətində və eləcə də xalqın ruhunu, tarixini, milli-mənəvi dəyərlərini təbliğ və tərənnüm edən digər çoxsaylı əsərlərdə müşahidə etmək olar. Həmin dövrdə Ulu Öndər respublikamızdan kənarda yaşayan azərbaycanlıların təşkilatlanmasını, diasporumuzun təşəkkül tapmasını vacib sayırdı. Heydər Əliyev həmin ağır, gərgin, müxtəlif qadağalarla dolu olan bir zəmanədə Azərbaycanın ziyalılarını sovet rəhbərliyinin təzyiqlərindən müdafiə edir, onların sıxışdırılmasının qarşısını almağa müvəffəq olurdu. Bir sözlə, həmin illərdə biz nadir milli mədəniyyətimizin bütün qatlarını özümüz üçün sanki təzədən açır və yenidən qiymətləndirirdik.

Heydər Əliyevin müdrikliklə irəli sürdüyü azərbaycançılıq ideologiyası mənəvi inkişafımızın, Azərbaycanın əbədi müstəqilliyinin təminatçısına çevrildi. Ulu Öndərin müəyyən etdiyi azərbaycançılıq iki təməl ideyanı özündə birləşdirmiş oldu: dövlətçilik və vətənpərvərlik. Azərbaycançılıq ölkəmizə qarşı bir çox istiqamətlərdən yönələn təhdidlərin, doğma yurdumuzu etnik bölgücülük əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipərə çevrildi, onu zərərli ideyalardan hifz etdi.

Azərbaycançılıq bizim keçmişimizdən gələn dəyər olaraq vahid Azərbaycanın ideya əsası, ölkədə bütün konfessiya və etnosların həmrəylik və anlaşma içində birgəyaşayışının tarixi təcrübəsidir. Əlbəttə, hər bir ideologiyanın uğuru, ilk növbədə onu irəli sürən güclü liderin özünün göstərdiyi nümunədən asılıdır. Bu mənada Heydər Əliyev ən böyük azərbaycanlı idi. Yürütdüyü siyasətlə bütün dünya azərbaycanlılarının liderinə çevrilmişdir, Yer üzündə yaşayan soydaşlarımızı vahid məqsəd ətrafında birləşdirmişdir. Heydər Əliyev xarici ölkələrdə Azərbaycan diasporunun formalaşdırılmasının vacibliyini, lobbiçilik fəaliyyətinin əsas istiqamətlərini və perspektivlərini bəyan etmişdir. Dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı uğurla yerinə yetirmiş, bu istiqamətdə mühüm addımlar atmışdır.

### "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır"

Ulu Öndər dünyanın ayrı-ayrı ölkələrində yaşayan yurddaşlarımızın doğma Vətənlə əlaqələrinin daha da möhkəmləndirilməsini, onların arasında mənəvi, siyasi birliyin və həmrəyliyin təmin olunmasını, Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsinin zəruriliyini nəzərə alaraq 2001-ci ilin 23 mayında xüsusi sərəncam imzalamışdır. Dünya azərbaycanlılarının 2001-ci il noyabrın 9-da keçirilən I qurultayında Ümummilli Lider Heydər Əliyev deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq".

Qurultayda soydaşlarımız arasında milli birlik və həmrəyliyin möhkəmləndirilməsi, xaricdə yaşayan azərbaycanlıların diaspor şəklində təşkilatlanması və yaşadıqları ölkələrdə öz hüquqlarını, tarixi vətənin milli maraqlarını beynəlxalq miqyasda müdafiə edə bilmələri üçün strateji proqram irəli sürüldü. Böyük rəhbərin qurultaydakı nitqi azərbaycançılığın tarixi proqram sənədi idi: "Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik…" Dahi şəxsiyyət Heydər Əliyev böyük ideoloq və dövlət xadimi olmaqla yanaşı, həm də cəmiyyətin gedişatını xüsusi fəhmlə, uzaqgörənliklə təyin edən ən böyük azərbaycanlı idi.

Bu qurultay dünya azərbaycanlılarının milli mənlik şüurunun güclənməsində, müxtəlif ölkələrdə fəaliyyət göstərən azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının təmin olunmasında müstəsna dərəcədə misilsiz rol oynadı.

31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi fərəhlə qeyd etdiyimiz əlamətdar tarixin ideya müəllifi də məhz Ümummilli Liderdir. Heydər Əliyev hələ Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində çalışarkən, 1991-ci il noyabrın 5-də Ali Məclis uzun illərin ayrılığından sonra Arazboyu sərhəd dirəklərinin söküldüyü 31 dekabr gününün hər il geniş qeyd edilməsi zərurətini irəli sürmüş və bununla bağlı qərar qəbul olunaraq Azərbaycan Ali Sovetinə müraciət ünvanlamışdı. Dekabrın 25-də isə Azərbaycan Respublikası Ali Soveti müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul etmişdi.

Dünya azərbaycanlılarının I qurultayından sonra xarici ölkələrdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi, inkişafı məqsədilə Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması, həmin il xarici ölkələrdəki azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında qanunun qəbulu da Ulu Öndər Heydər Əliyevin bu istiqamətdəki tarixi xidmətlərinin qürur dolu səhifələridir. Ümummilli Lider xarici ölkələrə səfərləri zamanı da həmin ölkələrdə yaşayan Azərbaycan icmalarının təmsilçiləri ilə görüşməyi vacib bilir, onların problem və qayğılarına diqqət yetirir, fəallığı, mütəşəkkilliyi, proseslərə təsir imkanlarını daha da artırmaları üçün dəyərli tövsiyələrini onlardan əsirgəmir, azərbaycançılıq məfkurəsini bütün dünyada təbliğ edirdi.

Heydər Əliyevin böyük zəhmət bahasına illərlə formalaşdırdığı azərbaycançılıq ideologiyası xalqımızın zəngin mənəvi sərvətidir. Ulu Öndər müstəqil Azərbaycanda dövlət quruculuğunun elə bir konsepsiyasını, dövlətçilik ideologiyasının elə bir məzmununu müəyyənləşdirə bilib ki, burada dövlətçilik dəyərləri Azərbaycanın qurucularının, maarifçilərinin bir neçə nəslinin ortaya qoyduqları milli ideallar sistemi ilə ahəng yaradır. Burada ideyalar, elmi-fəlsəfi baxışlar düşüncə müstəvisindən əməli siyasət müstəvisinə keçid edir. Ona görə də Heydər Əliyevin dövlətçilik konsepsiyasında, yaratdığı azərbaycançılıq ideologiyasında "Kitabi-Dədə Qorqud" ərənlərindən, Babəkdən, Cavanşirdən, Nizami Gəncəvidən, İmadəddin Nəsimidən, Füzulidən, Şah İsmayıl Xətaidən, Nadir şahdan Mirzə Fətəli Axundzadəyə, Həsən bəy Zərdabiyə, Sabirə, Mirzə Cəlilə, Cümhuriyyət qurucularımıza, Nəriman Nərimanova, Hüseyn Cavidə, Səməd Vurğuna qədər xalqımızın bir çox görkəmli xadimlərinin həyat və fəaliyyətindəki dəyərləri, ali məqsədləri görüb hiss etmək olur.

Məhz Heydər Əliyevin formalaşdırdığı bu konsepsiya, bu ideologiya sayəsində Azərbaycan xalqının əsrlər boyu yaratdığı fikir dünyası, sağlam düşüncə aləmi bu gün müstəqil dövlətimizin inkişafında yeni nailiyyətlərə yol açır.

### Ali məqsədlər naminə

Müstəqil Azərbaycanın milli dövlət ideologiyasının - hüquqi, demokratik dövlət kimi inkişafını və təhlükəsizliyini təmin edən dəyərlər sisteminin xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən formalaşdırılması tarixi bir qanunauyğunluqdur. Bu baxımdan ölkənin konstitusiya quruculuğu da milli dövlət ideologiyasının əsasını təşkil edir.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu ölkənin ictimai-siyasi həyatında əlamətdar bir hadisə oldu. Müstəqillik aktı 1991-ci ildə qəbul edilsə də, onun hüquqi əsasını təşkil edən Konstitusiya 1995-ci ildə işlənib hazırlandı. Bunun bir səbəbi keçmiş "Dağlıq Qarabağ problemi" ilə bağlı idisə, digəri müstəqilliyin ilk illərində Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar edilməsinə mane olan məlum hadisələrin baş verməsi ilə əlaqədar idi.

1993-cü ildə xalqın təkidli tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı bu sahədə bir sıra mühüm addımların atılması ilə nəticələndi və həmin dövr, əslində, Azərbaycanın yeni tarixinə müstəqil dövlət quruculuğu prosesinin başlanğıc mərhələsi kimi daxil oldu. Ayrı-ayrı silahlı dəstələrin ləğvi və aqressiv müxalifət qüvvələrinin zərərsizləşdirilməsi hakimiyyətə ölkənin ictimai-siyasi həyatının bütün sahələrinə qanun çərçivəsində nəzarət etmək imkanı verdi və buna görə də sonrakı mərhələdə respublikanın ümumi mənafelərinə xidmət edən mühitin yaradılması mümkün oldu.

1995-ci ilin may ayında Milli Məclisin iclasında Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildi. Görkəmli alimlərin, hüquqşünasların, mütəxəssislərin və rəhbər işçilərin daxil edildiyi bu komissiya 1995-ci il iyun ayının 5-də ilk iclasını keçirdi. Komissiyanın iclasında geniş nitq söyləyən Heydər Əliyev bir sıra dəyərli tövsiyə və məsləhətlərini verdi. "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun... Hakimiyyət bölgüsü, - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır", - deyən Ulu Öndər Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasında həm Azərbaycanın tarixi keçmişindən, milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdür.

Ulu Öndər Heydər Əliyev müstəqillik Konstitusiyamıza müəlliflik etməklə və onun qəbuluna nail olmaqla həm Azərbaycan xalqının ötən əsrin əvvəllərindən yarımçıq qalmış və reallaşmamış arzusunun və tarixi vəzifəsinin gerçəkləşməsinə, həm də dövlətimizin sabit, firavan, əhalisinin rifah halında yaşadığı və müstəqilliyinin dönməz olduğu gələcəyə qədəm qoyması yolunda qanuni əsasların yaradılmasına nail olmuşdur..

Dövlət quruculuğu prosesinin ən zəruri məqamlarından biri hüquqi sistemin təkmilləşdirilməsi ilə bağlı idi. Heydər Əliyev Azərbaycanda hüquqi dövlət modelinin yaradılması və inkişafına yönəlmiş fundamental strategiyanın müəllifi kimi bütün sahələrdə mükəmməl qanunların hazırlanmasına müvəffəq olmuşdur.

Konstitusiyada ali hakimiyyətin xalqa məxsus olduğu bildirilir ki, bu da Azərbaycanın məhz demokratik yolla inkişafının qaçılmazlığını nəzərdə tutur. Əsas Qanunumuzda öz müqəddəratını sərbəst və müstəqil şəkildə müəyyənləşdirmək xalqımızın suveren hüququ kimi təsbit olunur.

Konstitusiyada dövlətin əsas vəzifələri, Azərbaycanın başqa ölkələrlə münasibətlərinin hansı prinsiplər üzərində qurulması öz əksini tapmışdır. Diqqətçəkən ən vacib məsələlərdən biri də ondan ibarətdir ki, insan hüquqlarının qorunmasının zəruriliyi Əsas Qanunumuzda kifayət qədər aydın şəkildə göstərilib və bu, prioritet vəzifələrdən biri kimi xarakterizə edilib.

Konstitusiyamızda hakimiyyət bölgüsü prinsipləri dəqiq şəkildə verilmişdir. Ana dilimizin qorunması və inkişafı da müvafiq qanunvericilik aktları və Konstitusiya ilə tənzimlənir.

Azərbaycan Respublikasının Konstitusiyası 30 il ərzində çox geniş təkmilləşdirmə və inkişaf yolu keçmişdir. Prezident İlham Əliyevin 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı sərəncamında deyilir: "Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir".

Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Əsas Qanunumuz və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Vətən müharibəsi və 2023-cü ilin antiterror əməliyyatından sonra bərpa etdiyimiz dövlət suverenliyimiz xalqımızın təkcə əsrləri əhatə edən arzusu deyil, həm də tariximizin bizim qarşımızdakı tələbi idi. İndi tam əsasla deyə bilərik ki, Əsas Qanunumuz tariximizin ilk və yeganə müstəqillik Konstitusiyasıdır!

### Diaspor quruculuğu: fikirdə, əməldə birlik

Milli dövlətçilik təkcə ərazinin, maddi sərvətlərin deyil, həm də mənəvi dəyərlərin, həmrəyliyin qorunmasından ibarətdir. Soydaşlarımızla görüşlərinin birində böyük rəhbər deyirdi: "... Mən demirəm ki, 40 milyon azərbaycanlının hamısı bir yerə yığışsın, bu, heç lazım da deyil. Ancaq hamısının qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında fikirləri bir olsa, əlbəttə ki, respublikamız da öz müstəqilliyini bundan sonra daha da möhkəmləndirər, inkişaf yolunu məharətlə keçə bilər... Mən Azərbaycanın Prezidenti kimi, xalqımızın mənə göstərdiyi etimada güvənərək respublikamıza rəhbərlik edən bir şəxs kimi bu gün deyirəm: Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir".

Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində qeyd edirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir... Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır". Azərbaycanlıların yaşadığı bütün ölkələrdə əks-səda verən bu çağırış azərbaycançılıq adlı kamil bir ideologiyaya, müstəqil Azərbaycan dövlətinin xilas yoluna çevrildi. Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq və mütəşəkkil birgə qüvvə təşkil etmək səylərinə ciddi fikir verir.

Diaspor və lobbi quruculuğuna göstərilən xüsusi diqqət böyük rəhbərin yüksək diplomatik və peşəkar siyasətçi keyfiyyətlərindən qaynaqlanırdı. Ümummilli Liderin böyüklüyü həm də onun bütün idarəçiliyi boyu xalqın milli mənlik şüurunu, özünüdərk hissinin, mənəvi dəyərlərə bağlılığını gücləndirmək əzmini nümayiş etdirməsində idi. Heydər Əliyev bütün ömrünü Azərbaycan üçün yaşamışdı - bu xariqüladə şəxsiyyət həyatını Azərbaycanı və azərbaycançılığı dünyaya tanıtmağa sərf etmişdi. İstər sovet dövrü olsun, istərsə də müstəqillik illəri, fərqi yox idi - Heydər Əliyev hər zaman və hər yerdə Vətən üçün çalışır, həyatının ən böyük qayəsini milliliyin, həmrəyliyin qorunub saxlanmasında görürdü.

Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin milli inkişaf strategiyasını bu istiqamətdə də uğurla davam və inkişaf etdirməkdədir. Müasir dünyamızın reallıqlarına, yeni vəziyyətlərə uyğun olaraq diaspor quruculuğu sahəsində mühüm addımlar atılır. Dövlət rəhbərimizin 5 iyul 2018-ci il tarixli fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması da bu addımlardan biridir. Diaspor quruculuğu fəaliyyətində ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var.

Qələbəmizin simvolu olan Şuşada - mədəniyyət paytaxtımızda Dünya Azərbaycanlılarının V Qurultayının keçirildiyi əlamətdar gün də dünyanın ən müxtəlif məkanlarında yaşayan həmvətənlərimizin milli yaddaşına fəxarət hissi kimi əks olundu. Bu möhtəşəm tədbir tarixə dünya azərbaycanlılarının Zəfər qurultayı kimi yazıldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qurultaydakı proqram xarakterli nitqi ilə dünyadakı bütün soydaşlarımıza gələcəyə doğru aydın istiqamət verdi.

*Neçə illərdən sonra Dünya Azərbaycanlılarının Şuşada keçirilən V Qurultayı Ulu Öndərin bu ümidinin, gələcəyə müdrik baxışının təntənəsi idi. Eyni zamanda bu gerçəklik bir daha öz təsdiqini onda tapdı ki, Heydər Əliyevin dövlətçilik amalları məsuliyyətlə, yüksək səviyyədə yerinə yetirilir. Bu böyük dövlət adamının yarımçıq qalmış arzuları həyata keçirilir. Azərbaycan Prezidenti bununla bağlı çıxışında dedi: "Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik..."*

**İradə ƏLİYEVA,**
**"Azərbaycan"**

# Liv Bona Dea Hospitalında Sümük iliyi transplantasiya mərkəzinin açılışı olub

Dekabrın 11-də Liv Bona Dea Hospitalında Sümük iliyi transplantasiya mərkəzinin açılış mərasimi keçirilib.









AZƏRTAC xəbər verir ki, açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və səhiyyə naziri Teymur Musayev iştirak ediblər.

Leyla Əliyeva əvvəlcə Heydər Əliyev Fondunun himayəsi altında xəstəxanada müalicə alan azyaşlıya baş çəkib, onun səhhəti ilə maraqlanıb, hədiyyə təqdim edib.

Sonra Sümük iliyi transplantasiya mərkəzinin açılışı olub.

Yeni mərkəz həm böyüklər, həm də uşaqlar üçün sümük iliyi köçürmələrini həyata keçirəcək. Məlumat verilib ki, mərkəzdə 6 xüsusi izolyasiya olunmuş palata fəaliyyət göstərir. Həmin infrastruktur illik 80 xəstənin qəbuluna və müalicəsinə imkan yaradır.

Qeyd olunub ki, hazırda xəstəxananın tərkibində 8 çarpayılıq hematologiya şöbəsi də xəstələrin ixtiyarındadır. Şöbədəki bütün palatalar müasir HEPA filtrasiyalı pozitiv təzyiq sistemi ilə təchiz olunub ki, bu da xəstələrin infeksiyalardan maksimum qorunmasını təmin edir. Kimyaterapiya preparatlarının hazırlanması biotəhlükəsizlik kabinlərində, hüceyrə toplanması isə müstəqil aferes bölməsində aparılır.

Eyni zamanda Qan bankı eritrosit, trombosit, plazma və digər komponentlərin hazırlanması, o cümlədən qranulosit süspansiyonunun əldə olunması imkanına malikdir. Köçürmə xəstələrinin təhlükəsizliyi üçün "işınlama" və filtrləmə prosedurları mütəmadi olaraq tətbiq edilir.

Qeyd edək ki, Sümük iliyi transplantasiya mərkəzi Nazirlər Kabinetinin 2021-ci il 20 avqust tarixli Qərarı ilə təsdiq edilmiş "Donor orqanların transplantasiyasını həyata keçirən ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı"nda dəyişiklik edilməsi haqqında Qərara əsasən verilən lisenziya əsasında açılıb.

Xatırladaq ki, sümük iliyi və kök hüceyrə köçürülməsi müxtəlif hematoloji və onkoloji xəstəliklərin müalicəsində tətbiq olunan müasir və effektiv tibbi prosedurdur. Kök hüceyrələr xəstənin özündən (avtoloji) və ya donorundan (alojenik) əldə edilərək, yüksək dozalı kimyaterapiya sonrası orqanizmə köçürülür. Məqsəd xəstə sümük iliyini sağlam hüceyrələrlə əvəz etmək və qan yaradıcılığını bərpa etməkdir.

# Leyla Əliyeva Səhiyyə Nazirliyi 5 saylı Uşaq Vərəm Sanatoriyasını ziyarət edib

Dekabrın 11-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və səhiyyə naziri Teymur Musayev Səhiyyə Nazirliyi 5 saylı Uşaq Vərəm Sanatoriyasını ziyarət edib.







AZƏRTAC xəbər verir ki, ziyarət çərçivəsində müəssisənin fəaliyyəti, tibbi xidmətlərin təşkili və uşaqlar üçün yaradılan şəraitlə tanışlıq olub. Dispanserdə aparılan yenilənmə işləri, göstərilən diaqnostik və müalicə xidmətlərinin keyfiyyətinin artırılması istiqamətində görülən tədbirlər müzakirə edilib.

Səhiyyə naziri Teymur Musayev ölkəmizdə uşaq sağlamlığının qorunması istiqamətində həyata keçirilən layihələrə verilən dəstəyə görə Leyla Əliyevaya minnətdarlığını bildirib.

# Ermənistan vətəndaşlarının məhkəməsində təqsirləndirilən şəxslərə son söz verilib

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 11-də davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Məhkəmə iclasında tərəflərə replika hüququndan istifadə etmək imkanı yaradılıb.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev replikasında əvvəlcə təqsirləndirilən şəxslərin cinayətkar birlikdə rollarının mübahisələndirilməsinə dair hissə barədə danışıb.

Xatırladıb ki, müdafiə tərəfinin fikrincə, cinayətkar birlik dünya təcrübəsinə əsasən, kriminal cinayətlərin törədilməsi üçün yaradılır.

Dövlət ittihamını müdafiə edən prokurorun sözlərinə görə, məhkəmə iclasında tədqiq edilmiş sübutlarla da təsdiqlənib ki, Birinci Qarabağ müharibəsi başlanmazdan bir neçə il əvvəl qeyd edilən cinayətkar dəstələr Ermənistan tərəfindən formalaşdırılmağa başlanmışdı: "Doğrudur, tədqiq edilmiş sübutlarla müəyyən edildi ki, həmin dəstələr həqiqətən də Ermənistan rəhbərliyi tərəfindən dəstəklənib və silahlandırılıb. Lakin sonradan biz gördük ki, həmin silahlı dəstələrin rəhbərləri və üzvləri Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma qurumda və Ermənistanda mühüm siyasi və hərbi postlar tutdular. Yəni həmin dəstələr təsadüfi, özbaşına birliklər deyildi və sonradan da Azərbaycan ərazilərini işğal edən cinayətkar ordunun tərkib hissələrinə çevrildilər.

Təqsirləndirilən şəxslərə gəldikdə, onlardan məsələn, David Manukyan Şuşa batalyonunun üzvü, Davit İşxanyan "28-ci Martuni" batalyonunun komandiri olub. Hansı ki, bu və digər batalyonlar məhz qeyd edilən qanunsuz dəstələrin adının dəyişmiş, daha mütəşəkkil və hərbiləşdirilmiş forması olub".

Dövlət ittihamını müdafiə edən prokuror bildirib ki, Azərbaycan Respublikasının ərazilərinin Ermənistan tərəfindən işğalı danılmaz həqiqət olmaqla məhkəmə iclasında təqdim edilmiş çoxsaylı sübutlar təsdiq edilsə də, bu fakt onun formalaşdırdığı cinayətkar birliyin əsas fiqurlarından olan hazırkı təqsirləndirilən şəxslərin məsuliyyətini azaltmır, onları məsuliyyətdən azad etmir.

"Çünki qeyd edilən çoxsaylı cinayətlər məhz Ermənistanın hərbi və siyasi rəhbərliyinin təşkilatçılığı və dəstəyi ilə törədilsə də, hazırkı təqsirləndirilən şəxslərin müxtəlif vaxtlarda qoşulduğu cinayətkar birliyin də iştirakı ilə törədilib. Müəyyən vaxtlarda isə hazırda ittiham edilən şəxslərin bir qismi formal olaraq da Ermənistan dövlətinin hərbi və ya siyasi rəhbərliyində yer tutublar. Yəni bu mənada, işğalın təşkilatçılığı, həyata keçirilməsi və saxlanması kontekstində Ermənistan dövləti və qondarma qurum vahid orqanizm kimi fəaliyyət göstərib", - deyə dövlət ittihamçısı əlavə edib.

O, daha sonra bildirib: "Məhkəmə istintaqında tədqiq olunan Davit İşxanyanın döyüş yolundan bəhs edən videomaterialdan görünür ki, Şuşaya hücum zamanı ona verilən tapşırıq köməyə gələn Azərbaycan Ordusunun qarşısını almaq idi. Yəni o özü bilavasitə Şuşaya hücumda fiziki iştirak etməsə də, hərəkətləri ilə həmin hücuma zəmin yaradıb, yaxud hücumun qarşısının alınması ilə bağlı tədbirlərə imkan verməyib. Bu, tipik cinayətkar birliyin xüsusiyyətidir. Eynilə Kəlbəcərdə hansısa kəndin işğalında iştirak edən, yolun bağlanması üçün post quran David Manukyan, Ağdamın kəndlərində qurulan postlarda əlində silah duran Melikset Paşayan, Qubadlı, Zəngilan və Ağdam rayonlarının işğalı zamanı artilleriya dəstəyi göstərmiş Lyova Mnatsakanyan, Ağdərə, Kəlbəcər və Tərtər rayonlarının işğalı zamanı, eləcə də Xocalının işğalında iştirak etmiş Madat Babayan və digərləri müvafiq olaraq ərazilərin işğalında təqsirlidirlər".

Dövlət ittihamçısı vurğulayıb ki, bütün hüquqi gerçəkliklərə bələd olmalarına baxmayaraq, hazırkı təqsirləndirilən şəxslər cinayətkar birliyin qeyd edilən vahid məqsədlərinə (Azərbaycanın vaxtilə işğal edilmiş ərazilərinin Ermənistana birləşdirilməsinə - red.) çatmaq uğrunda öz üzərlərinə götürdükləri "funksiyalarını" icra ediblər.

V.Əliyev çıxışının davamında Arkadi Qukasyanın müdafiəçisinin çıxışı ilə bağlı da ittiham tərəfinin mövqeyini bildirib: "Arkadi Qukasyanın müdafiəçisinin qeyd etdiyi kimi, onun jurnalist olması avtomatik şəkildə cinayətkar olması demək deyil, onun jurnalist fəaliyyəti siyasi tramplin olmayıb. O, məhz cinayətkar birliyin qeyd edilən məqsədlərinə çatmaq üçün üzərinə düşən "funksiyaları" icra etməklə cinayətkar birliyin digər üzvləri tərəfindən digər zorakı cinayətlərin törədilməsini asanlaşdırdığına görə, hakimiyyəti zorla ələ keçirmə cinayət əməlini törətdiyinə və sair əməllərinə görə məsuliyyətə cəlb edilib".

V.Əliyev daha sonra deyib: "Davit Allahverdiyan, David Babayan və digər təqsirləndirilən şəxslərin Birinci Qarabağ müharibəsi dövründə yaşlarının az olması ilə bağlı və sair fikirlər səsləndirilsə də, nəzərə alınmalıdır ki, qeyd olunan dövrə dair həmin şəxslərə ittiham elan edilməyib".

Zərərçəkmiş şəxslərin nümayəndəsi Şaiq Hüseynov çıxışında deyib ki, müdafiəçilərin mütləq əksəriyyətinin müdafiə nitqi formal mülahizələrə əsaslanıb: "Təkcə təkzibedilməz bir faktı qeyd etmək yetərlidir ki, iş üzrə təqsirləndirilən şəxslərin istisnasız olaraq hamısı tərk-silah edilməklə saxlanıldığı zaman ya onların üzərində, ya da yaşayış yerində aparılmış axtarış zamanı müxtəlif növ silah və döyüş sursatı aşkar edilərək götürülüb".





Vəkil bildirib ki, həm ibtidai, həm də məhkəmə istintaqı zamanı təqsirləndirilən şəxslərin, demək olar, hamısının törətdikləri əməldən səmimi peşmanlıq hissi keçirmədiyini nümayiş etdirmələri də nəzərə alınmalıdır.

Ş.Hüseynov dövlət ittihamçılarının təklifi nəzərə alınmaqla, təqsirləndirilən şəxslərin barəsində ittiham hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Zərərçəkmişlərin digər nümayəndələri Aydın Hacıyev çıxışında təqsirləndirilən şəxslərə ədalətli cəza verilməsini məhkəmədən xahiş edib: "Təqsirləndirilən şəxslərə ədalətli cəza təyin etməklə, eyni zamanda zərərçəkmiş şəxslərin hüquqları qismən də olsa bərpa edilmiş olar. Çünki onların konstitusion hüquqları, yaşamaq hüququ, təhlükəsizlik hüququ, mülkiyyət hüququ, mənzil hüququ, təhlükəsiz yaşamaq hüququ kimi hüquqları Ermənistan silahlı qüvvələrinin və təqsirləndirilən şəxslərin birbaşa fəaliyyətinin nəticəsi olaraq pozulub".

Zərərçəkmişlərin digər nümayəndəsi Rauf Abdullayev çıxışında təqsirləndirilən şəxslərin layiqli cəzaya məhkum olunmalarını məhkəmədən xahiş edib.

Daha sonra replika hüququndan istifadə etmək üçün söz müdafiə tərəfinə verilib.

Təqsirləndirilən şəxs Vasili Beqlaryanın müdafiəçisi Vüqar Heydərov beynəlxalq məhkəmə qərarlarına istinad edərək deyib ki, əgər şəxsin istintaqda verdiyi ifadə ilə məhkəmə istintaqı zamanı verdiyi ifadə arasında ziddiyyət varsa, məhkəmə istintaqı zamanı verdiyi ifadə üstün götürülməlidir: "İbtidai istintaq zamanı verilmiş ifadə müstəntiq tərəfindən sübut toplama prosesidir. Ona görə də məhkəmə istintaqı üstün götürülməlidir".

O, müşavirə otağında qərar qəbul edərkən müdafiə etdiyi şəxsin məhkəmə istintaqı zamanı verdiyi ifadəsini əsas götürməyi məhkəmədən xahiş edib.

Təqsirləndirilən Vasili Beqlaryanın müdafiəçisi Əzizağa Qafarov bildirib ki, ittiham tərəfi iştirakçılıqla bağlı halları düzgün qiymətləndirməyib, tövsif düzgün edilməyib.

Təqsirləndirilən Arkadi Qukasyanın müdafiəçisi Pərvanə Qasımova məhkəmənin qanunçuluq, ədalət prinsiplərini əsas tutacağına inandığını deyib. O, A.Qukasyan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən David Manukyanın müdafiəçisi Dmitriy Zinçenko müdafiə etdiyi şəxsin vaxtilə hərbi qulluqçu olduğunu, əmrləri icra etdiyini deyib. O, D.Manukyan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş edib.

Təqsirləndirilən şəxs Davit İşxanyanın müdafiəçisi Aqşin Məmmədli, təqsirləndirilən şəxs Arayik Harutyunyanın müdafiəçisi Anar Məmmədov, təqsirləndirilən şəxs Bako Sahakyanın müdafiəçisi Nigar Mirbabayeva da replikalarında ittiham tərəfinin replikaları ilə bağlı öz arqumentlərini səsləndiriblər.

Replikalar qurtardıqdan sonra təqsirləndirilən şəxslərə son söz verilib.

Sədrlik edən Z.Ağayev bildirib ki, təqsirləndirilən şəxs son sözünü söyləyərkən onlara suallar verilməsinə yol verilmir.

Təqsirləndirilən Levon Balayan çıxışında təqsirli olmadığını deyib və əlavə edib: "Mənim üstümdə silah olub, amma adamlara atəş açmamışam, atəşlər havaya açılıb".

Təqsirləndirilən şəxs Madat Babayan adam öldürmədiyini, təkcə havaya atəş açdığını bildirib.

Təqsirləndirilən şəxs Qarik Martirosyan özünü təqsirli hesab etmədiyini bildirib.

Təqsirləndirilən Melikset Paşayan qeyd edib ki, əvvəllər də dediyi kimi, Ağdamın kəndlərində olub, lakin orada döyüş əməliyyatlarında iştirak etməyib. Əlavə edib ki, 2023-cü ildə üç ay postda olub.

Təqsirləndirilən Davit Allahverdiyan heç bir cinayət törətmədiyini, qanunlara tabe olduğunu söyləyib.

Təqsirləndirilən şəxs Qurgen Stepanyan özünü təqsirli hesab etmədiyini bildirib.

Təqsirləndirilən Erik Qazaryan 2021-2023-cü illərdə Ermənistan silahlı qüvvələrinin əsgəri olduğunu, xidmət dövründə hərbi xidmət borcunu yerinə yetirdiyini, ona qarşı irəli sürülmüş ittihamlarla bağlı özünü təqsirli bilmədiyini deyib.

Təqsirləndirilən Vasili Beqlaryan heç bir cinayət törətmədiyini, cinayətkar qrupun üzvü olmadığını, özünü təqsirli hesab etmədiyini söyləyib.

Təqsirləndirilən David Manukyan çıxışında ittiham tərəfinin bildirdikləri ilə bağlı özünün əks arqumentlərini səsləndirib.

Məhkəmədə fasilə elan olunduğundan, onun son söz çıxışı növbəti məhkəmə iclasında davam etdiriləcək.

Məhkəmə prosesi dekabrın 19-da davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

## ”Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 22 aprel tarixli 183-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 385 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 377** **Bakı şəhəri, 4 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 22 aprel tarixli 183-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 385 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 mart tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 3, maddə 235 (Cild I); 2025, № 9, maddə 860) ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1.4-cü yarımbənddən "sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsi üzrə" sözləri çıxarılsın;

1.2. 2.1.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.12. şəxslərə sosial-mədəni xidmətlərin göstərilməsi;".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 22 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 71 (Cild I); 2024, № 9, maddə 1100) ilə təsdiq edilmiş "Xəstəlik, əlillik və ya ahıllıqla əlaqədar özünəqulluq qabiliyyəti olmayan şəxslərə qulluq və kömək göstərə biləcək qohumların olmamasının müəyyən edilməsi Qaydası"nın 2.2-ci bəndində "Ərizə daxil olduqdan" sözləri "Ərizə ona təqdim edildikdən" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 31 yanvar tarixli 17 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 76 (Cild I); 2025, № 9, maddə 870) ilə təsdiq edilmiş "Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci, 2.1-ci bəndlərdə və 3.7.2-ci yarımbənddə "eyni yaşayış məntəqəsində" sözləri "Bakı şəhəri üzrə eyni inzibati ərazi vahidində, digər şəhər və rayonlar üzrə eyni inzibati ərazi dairəsində" sözləri ilə əvəz edilsin;

3.2. 2.3-cü və 2.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.3. Sosial xidmətin göstərilməsi barədə müraciət Quruma, Mərkəzə və ya Şəhid ailələri üzvlərinin, müharibə ilə əlaqədar xəsarət almış hərbi qulluqçuların və əlilliyi müəyyən edilmiş şəxslərin müraciətləri üzrə vahid əlaqələndirmə mərkəzlərinə daxil olduğu gündən 5 iş günü ərzində şəxsin (ailənin) sosial xidmətə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi üçün sosial işçiyə ünvanlanır.

2.4. Sosial işçi ərizənin ona təqdim edildiyi gündən 10 iş günü ərzində şəxsin (ailənin) sosial xidmətə olan tələbatının qiymətləndirilməsini və müəyyənləşdirilməsini həyata keçirir və sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yeri və müddətini özündə əks etdirən hesabat hazırlayır.";

3.3. aşağıdakı məzmunda 2.5-2.6-cı bəndlər əlavə edilsin:

"2.5. Sosial işçi tərəfindən hesabatın təqdim edildiyi gündən 5 iş günü ərzində Qurum və ya Mərkəz tərəfindən dövlət büdcəsinin vəsaiti hesabına sosial xidmət göstərilməsi və ya sosial xidmət göstərilməsindən imtina edilməsi barədə qərar qəbul olunur və qərar 3 iş günü müddətində ərizəçiyə təqdim edilir (göndərilir). Sosial xidmət göstərilməsindən imtina barədə qərarda imtinanın səbəbləri göstərilməlidir. Ərizəyə əlavə olunan sənədlərin əsli müraciət edən şəxsə (ailəyə) qaytarılır.

2.6. Dövlət büdcəsinin vəsaiti hesabına sosial xidmət göstərilməsi barədə qərar qəbul edildiyi gündən şəxs (ailə) sosial xidmətə götürülür və 5 iş günü ərzində sosial işçi tərəfindən şəxsə (ailəyə) sosial xidmət göstərilməsinə dair fərdi plan hazırlanır.";

3.4. 3.2.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.2.9-cu yarımbənd əlavə edilsin:

"3.2.9. sosial xidmətə ehtiyacı olan şəxsin asudə vaxtının səmərəli təşkilini təmin etmək.";

3.5. 3.6-cı bənddə "Qismən" sözü "Dövlət büdcəsinin vəsaiti hesabına zəmanət verilmiş həcmdə ödənişsiz evdə (səyyar) sosial xidmət, habelə qismən" sözləri ilə əvəz edilsin;

3.6. 3.7.1-ci yarımbənddə "qismən ödənişli" sözlərindən əvvəl "dövlət büdcəsinin vəsaiti hesabına zəmanət verilmiş həcmdə ödənişsiz evdə (səyyar) sosial xidmətin, habelə" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457 (Cild I); 2024, № 1, maddə 110; №7, maddə 931; № 9, maddə 1100; 2025, № 9, maddələr 861, 870) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1.2.2.1.2-ci yarımbəndin ikinci cümləsində "Ərizənin daxil olduğu gündən 10 (on) iş günü müddətində uşaqların sosial xidmət müəssisəsinə yerləşdirilməsinə olan tələbatı sosial işçi tərəfindən qiymətləndirilir və" sözləri "Sosial işçi tərəfindən ərizənin ona təqdim edildiyi gündən 10 iş günü ərzində uşağın sosial xidmətə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi həyata keçirilir və sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yeri və müddətini özündə əks etdirən" sözləri ilə əvəz edilsin;

4.2. 2.4.3-cü yarımbəndin ikinci cümləsində "Ərizənin daxil olduğu gündən 10 (on) iş günü müddətində şəxsin sosial xidmət müəssisəsinə yerləşdirilməsinə olan tələbatı sosial işçi tərəfindən qiymətləndirilir və" sözləri "Sosial işçi tərəfindən ərizənin ona təqdim edildiyi gündən 10 iş günü ərzində şəxsin sosial xidmətə olan tələbatının qiymətləndirilməsi və müəyyənləşdirilməsi həyata keçirilir və sosial xidmətin formasını, növünü, sosial xidmətin göstərilməsi yeri və müddətini özündə əks etdirən" sözləri ilə əvəz edilsin;

4.3. 2.5.2-ci yarımbənddə "daxil olduğu gündən 5 (beş) iş günü müddətində" sözləri "ona təqdim edildiyi gündən 10 iş günü ərzində" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 aprel tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 452 (Cild I); 2024, № 7, maddə 916; 2025, № 9, maddələr 859, 870) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. aşağıdakı məzmunda 1.1.3-cü yarımbənd əlavə edilsin:

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 1.1.3. Sosial-mədəni xidmətlər | | | |
| 1.1.3.1. | asudə vaxtın səmərəli təşkilinin təmin edilməsi | xidmət müddətində | |

5.2. 2.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 2.1.2. Sosial-mədəni xidmətlər | | | |
| 2.1.2.1. | xidmətə götürülmüş şəxslərin asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onların maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi | xidmət müddətində | |

5.3. aşağıdakı məzmunda 2.2.2-ci yarımbənd əlavə edilsin:

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 2.2.2. Sosial-mədəni xidmətlər | | | |
| 2.2.2.1. | uşağın asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onun potensialına və maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi | xidmət müddətində | |

5.4. 2.3.2.2-ci yarımbəndin "Xidmətlər" sütunu aşağıdakı redaksiyada verilsin:

"uşağın dünyagörüşünün genişləndirilməsi, ünsiyyət qabiliyyətinin artırılması, yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsi məqsədilə qrup və fərdi fəaliyyətin təşkil edilməsi";

5.5. aşağıdakı məzmunda 2.3.4-cü yarımbənd əlavə edilsin:

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 2.3.4. Sosial-mədəni xidmətlər | | | |
| 2.3.4.1. | uşağın asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onun potensialına və maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi | xidmət müddətində | |

5.6. 2.4.2.2-ci yarımbənd ləğv edilsin;

5.7. 2.4.2.3-cü yarımbəndin "Xidmətlər" sütunu aşağıdakı redaksiyada verilsin:

"uşağın dünyagörüşünün genişləndirilməsi, ünsiyyət qabiliyyətinin artırılması, yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsi məqsədilə qrup və fərdi fəaliyyətin təşkil edilməsi";

5.8. aşağıdakı məzmunda 2.4.3-cü yarımbənd əlavə edilsin:

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 2.4.3. Sosial-mədəni xidmətlər | | | |
| 2.4.3.1. | uşağın dərsdən sonrakı asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onun potensialına və maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi | xidmət müddətində | |

5.9. aşağıdakı məzmunda 2.5.4-cü yarımbənd əlavə edilsin:

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 2.5.4. Sosial-mədəni xidmətlər | | | |
| 2.5.4.1. | insan alveri qurbanlarının asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onların potensialına və maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi | xidmət müddətində | |

5.10. aşağıdakı məzmunda 2.9.3-cü yarımbənd əlavə edilsin:

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 2.9.3. Sosial-mədəni xidmətlər | | | |
| 2.9.3.1. | sosial yadırğama (dezadaptasiya) və sosial məhrumiyyət (deprivasiya) vəziyyətində olan şəxslərin asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onların maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi | xidmət müddətində | |

5.11. 3.1.1.3-cü yarımbənd ləğv edilsin;

5.12. aşağıdakı məzmunda 3.1.5-ci yarımbənd əlavə edilsin:

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 3.1.5. Sosial-mədəni xidmətlər | | | |
| 3.1.5.1. | xidmətə götürülmüş şəxslərin asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onların maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi | xidmət müddətində | |

5.13. aşağıdakı məzmunda 3.2.5-ci yarımbənd əlavə edilsin:

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 3.2.5. Sosial-mədəni xidmətlər | | | |
| 3.2.5.1. | uşağın asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onun potensialına və maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi | xidmət müddətində | |

5.14. 3.3.3.2-ci yarımbənd ləğv edilsin;

5.15. 3.3.3.3-cü yarımbəndin "Xidmətlər" sütunu aşağıdakı redaksiyada verilsin:

"uşağın dünyagörüşünün genişləndirilməsi, ünsiyyət qabiliyyətinin artırılması, yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsi məqsədilə qrup və fərdi fəaliyyətin təşkil edilməsi";

5.16. aşağıdakı məzmunda 3.3.5-ci yarımbənd əlavə edilsin:

| 1 | 2 | 3 | 4 |
|---|---|---|---|
| 3.3.5. Sosial-mədəni xidmətlər | | | |
| 3.3.5.1. | uşağın dərsdən sonrakı asudə vaxtının səmərəli təşkilinin təmin edilməsi, onun potensialına və maraqlarına uyğun olaraq təşkil olunan tədbirlərə cəlb olunması və digər mədəni-kütləvi tədbirlərdə iştirakının təmin edilməsi | xidmət müddətində | |

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 414 (Cild I); 2024, № 1, maddə 110, № 4, maddələr 478, 479, № 5 (II kitab), maddə 611, № 9, maddə 1067; 2025, № 9, maddə 870) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 3.8-ci bəndindən "sosial xidmətin formasını, növünü, göstərilmə yerini və müddətini özündə əks etdirən" sözləri çıxarılsın.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 112 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 415 (Cild I); 2024, № 1, maddələr 75, 110, № 4, maddələr 478, 479, № 9, maddə 1067) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinə qəbulu, həmin müəssisələri tərk etməsi, uşaq evlərində xidmətin təşkili, həmçinin uşaq evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 3.7-ci bəndindən "sosial xidmətin formasını, növünü, göstərilmə yerini və müddətini özündə əks etdirən" sözləri çıxarılsın.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 yanvar tarixli 8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 129 (Cild I); 2025, № 9, maddə 861) ilə təsdiq edilmiş "Fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi Qaydası"nın 3.1.1-ci yarımbəndinin 4-cü abzasından "sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsi üzrə" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Keyfiyyət informasiya sistemindən istifadə haqqının məbləği, ödənilməsi və ondan istifadə Qaydası”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 382** **Bakı şəhəri, 9 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Standartlaşdırma haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 187-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 413 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Keyfiyyət informasiya sistemindən istifadə haqqının məbləği, ödənilməsi və ondan istifadə Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “İcra məmurları haqqında”, “İcra haqqında”, “İpoteka haqqında” və “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 189-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 383** **Bakı şəhəri, 9 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İcra məmurları haqqında", "İcra haqqında", "İpoteka haqqında" və "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 189-VIIQ nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 1 may tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2000, № 5, maddə 361 (Cild I); 2024, № 9, maddə 1100) ilə təsdiq edilmiş "İcra məmurlarının fəaliyyətinə nəzarət Qaydası"nın II bölməsinin 3-cü hissəsinin birinci cümləsində "qurumunun" sözü "xidmətinin" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 6 sentyabr tarixli 143 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 9, maddə 573 (Cild I); 2025, № 8, maddə 800) ilə təsdiq edilmiş "Üzərinə həbs qoyulmuş əmlakın saxlanması Qaydası və şərtləri"nin 4-cü hissəsində və 5-ci hissəsinin ikinci cümləsində "qurumunun" sözü "xidmətinin" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 fevral tarixli 38 nömrəli Qərarı ilə təsdiq edilmiş “Sənədlərin saxlanmasına, komplektləşdirilməsinə və mühafizəsinə dair Qaydalar”da dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 384** **Bakı şəhəri, 10 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 161-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 fevral tarixli 38 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 186 (Cild I); 2024, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Sənədlərin saxlanmasına, komplektləşdirilməsinə və mühafizəsinə dair Qaydalar"ın 1.4-cü bəndində "Əmtəə bazarında hökmran mövqe tutan, xüsusi və ya müstəsna hüquqa, yaxud təbii inhisara malik olan hüquqi şəxslər malların və xidmətlərin təklif edilməsi şərtlərinə və onların qiymətlərinə həmin şərtlərdə və qiymətlərdə dəyişikliklərə aid informasiyalar üzrə" sözləri "Təbii inhisar subyektləri istehsalını (satışını) həyata keçirdikləri məhsulların siyahısı, məhsullar üzrə qiymətlərin siyahısı (tənzimlənən və tənzimlənməyən qiymətləri fərqləndirməklə), müştərilər tərəfindən məhsulların əldə edilməsi (qoşulması, istifadə edilməsi) üçün tələb olunan şərtlər, müqavilənin forması və bağlanılması qaydası, müştərilər tərəfindən şikayətlərin edilməsi qaydasına aid informasiyalar üzrə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Diplomatik xidmət əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 386** **Bakı şəhəri, 10 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 109-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 331 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Diplomatik xidmət əməkdaşlarının attestasiyasının keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Diplomatik xidmət əməkdaşlarının və diplomatik xidmət orqanlarının inzibati-texniki xidmətini həyata keçirən inzibati vəzifə tutan şəxslərin xidməti attestasiyasının keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 499 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2163 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 aprel tarixli 57 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı”nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 387** **Bakı şəhəri, 10 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 25 aprel tarixli 57 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 4, maddə 371 (Cild I); 2024, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "Naxçıvan Muxtar Respublikasının arxiv idarələri" hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# COVID-19 vaksinlərinin yeni müsbət təsirləri aşkarlanıb

Koronavirus pandemiyası dünyada milyonlarla insanın həyatını dəyişdirməklə birlikdə, tibb elminə də yeniliklər gətirdi. Pandemiya dövründə istifadə olunan mRNA texnologiyalı vaksinlər ilk növbədə virusa qarşı qoruma məqsədi daşısa da, son araşdırmalar onların gözlənilməz və bir o qədər də ümidverici başqa təsirini üzə çıxarıb. "Nature" elmi-tədqiqat jurnalında dərc edilən araşdırmaya görə, sözügedən peyvənd müəyyən xərçəng növləri olan xəstələrin sağ qalma müddətini əhəmiyyətli dərəcədə uzadır. Mühüm dönüş nöqtəsi hesab olunan bu xəbər elmi ictimaiyyətdə böyük rezonans yaradıb.




Tədqiqat ABŞ-nin Texas Universitetinin MD Anderson Xərçəng Mərkəzində aparılıb. Araşdırma çərçivəsində ağciyər xərçənginin 3-cü və 4-cü mərhələlərində olan xəstələrin tibbi məlumatları təhlil edilib və onların bəzilərinin COVID-19 pandemiyası dövründə Pfizer və Moderna mRNA vaksinlərini qəbul etməsindən əvvəl və sonra ümumi klinik vəziyyəti müqayisə olunub. Nəticələr gözləniləndən qat-qat təsirli olub. İmmunoterapiya müalicəsi alan və müalicənin ilk 100 günü ərzində mRNA vaksini qəbul edən xəstələrin orta sağ qalma müddəti 37,3 aya yüksəlib. Eyni müalicəni alan, lakin vaksin qəbul etməyən xəstələrdə isə bu göstərici 20,6 ay təşkil edib. Bu, sağ qalma müddətində 75 faizlik artım deməkdir və onkologiyada son illərin ən diqqətçəkən tapıntılarından biridir.

İmmunoterapiya müasir onkologiyanın əsas istiqamətlərindən biridir. Bu müalicə üsulu immun sistemini xərçəng hüceyrələrinə qarşı aktivləşdirməyi hədəfləyir. Lakin immunitet sistemi bəzən xərçəng hüceyrələrini tanımaqda çətinlik çəkir, çünki bu hüceyrələr orqanizmin öz hüceyrələrindən törəyir. Alimlərin fikrincə, mRNA vaksinləri immun sistemində bir növ "oyanan siqnal" rolunu oynayaraq immun hüceyrələrini daha aktiv vəziyyətə gətirir. Bu, bədənin xərçəng hüceyrələrini daha sürətlə və effektiv şəkildə tanımasına kömək edir. Həmçinin qeyd edilir ki, vaksinlərin təsiri xərçəngə birbaşa yönəlməsə də, immunitetin ümumi aktivləşməsi nəticəsində xərçəngə qarşı müqavimət artır.

Mütəxəssislər bildirirlər ki, bu mexanizmin daha dərindən araşdırılması gələcəkdə universal xərçəng vaksinlərinin hazırlanması üçün mühüm baza rolunu oynaya bilər. Onların sözlərinə görə, koronavirus dövründə təhlükəsizliyi milyonlarla insanda sübut olunmuş mRNA texnologiyası həm ucuz, həm də geniş tətbiq oluna bilən onkoloji müalicə vasitəsinə çevrilə bilər. Bu texnologiyanın üstünlüyü ondan ibarətdir ki, ənənəvi kimyaterapiyanın əksinə olaraq, o, sağlam hüceyrələrə daha az zərər vurur və yan təsirləri azdır.

Xərçənglə bağlı bu ümidverici araşdırma ilə yanaşı, mRNA vaksinlərinin uzunmüddətli təhlükəsizliyini qiymətləndirən başqa genişmiqyaslı tədqiqatlar da aparılıb. Fransada gerçəkləşdirilən və ümumilikdə təxminən 28 milyon insanı əhatə edən araşdırma bu vaksinlərin həm təhlükəsizliyini, həm də COVID-19-dan ölüm riskini azaltmaqda effektivliyini təsdiqləyib. 22,7 milyon peyvənd olunmuş və 5,9 milyon peyvənd olunmamış şəxsin təxminən 45 ay ərzində izlənildiyi araşdırmada peyvənd olunmuş insanların COVID-19-dan ölüm riski 74 faiz daha aşağı olub. Üstəlik, dördillik müşahidə dövründə vaksin olunmuş şəxslərdə bütün səbəblərdən ölüm riski artmayıb, əksinə, 25 faiz azalıb.

Tədqiqatın maraqlı tərəflərindən biri də peyvənd olunmuş şəxslərin əksəriyyətinin yaşca daha böyük, bir çoxunda isə xroniki xəstəliklərin olmasıdır. Əslində, bu qrupun riskli olması səbəbindən ölüm göstəricilərinin yüksək olacağı gözlənilsə də, nəticələrin tam əksi ortaya çıxıb: vaksinlər həm COVID-19-dan qoruyub, həm də ümumi ölüm ehtimalını azaldıb. Bu, mRNA vaksinlərinin uzunmüddətli təhlükəsizliyinə dair ən genişmiqyaslı sübutlardan biri kimi qiymətləndirilir.

Fransada aparılan araşdırma həm də ilk dəfə olaraq gənc yaş qrupunda - 18-59 yaş arasında mRNA peyvəndlərinin uzunmüddətli təsirlərini qiymətləndirib və vaksin olunmuş şəxslərdə dörd il ərzində ölüm riskinin artmadığını, əksinə, azaldığını göstərib. Bu, daha əvvəl qısamüddətli nəticələrə əsaslanan narahatlıqları aradan qaldırır və vaksinlərin təhlükəsizliyini bir daha təsdiqləyir.

Son aylarda dünyada yenidən virus infeksiyalarının artması, üstəlik, xəstəlik əlamətlərinin koronavirusa bənzəməsi insanları narahat edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son məlumatlarına əsasən, COVID-19-un yeni dalğaları qeydə alınmasa da, yoluxma hallarının artdığı müşahidə olunur. Bu da xəstəxanaya müraciətlərin sayını artırır. ÜST və digər səhiyyə qurumları xəbərdarlıq edirlər ki, risk altında olan qruplar üçün peyvənd zəruridir. Xüsusilə 65 yaşdan yuxarı insanlar, xroniki ürək, ağciyər və böyrək xəstəlikləri olanlar, həmçinin kimyaterapiya və immuniteti zəiflədən müalicələr alan şəxslər peyvəndi gecikdirməməlidirlər.

Mütəxəssislər bildirirlər ki, risk qrupları üçün həm mövsümi qrip peyvəndi, həm də ən son COVID-19 peyvəndləri aktual olaraq qalır. Çünki elm çox aydın şəkildə göstərir ki, peyvənd olunmuş şəxslərdə xəstəxanaya yerləşdirilmə ehtimalı 40 faiz, reanimasiya şöbəsinə intubasiya ehtiyacı isə 80 faiz azalır. Bu, təkcə şəxsi sağlamlığı deyil, səhiyyə sisteminin ümumi yükünü də azaltmağa xidmət edir.

Koronavirusun daha yüngül keçdiyi sağlam və gənc yaş qruplarında belə, infeksiyanın uzunmüddətli fəsad yaratdığı hallar az deyil. Buna görə də peyvəndlər yalnız ağırlaşmaların qarşısını almaqla kifayətlənmir, həm də post-COVID sindromlarının yayılmasını azaldır. Məhz bu səbəbdən mütəxəssislər pandemiya sonrası dövrdə belə peyvəndləmənin vacibliyini vurğulayırlar.

Bu gün tibbin qarşısında duran əsas vəzifə mövcud kəşflərin klinik praktikaya mümkün qədər tez və təhlükəsiz şəkildə tətbiq edilməsidir. Tədqiqatçıların fikrincə, mRNA texnologiyası gələcəkdə bir çox xəstəliklərin müalicəsində inqilabi dəyişikliklər edəcək. Həm təhlükəsizliyi, həm də immun sistemi aktivləşdirmə qabiliyyəti bu vaksinləri gələcəyin ən perspektivli biotexnoloji alətlərinə çevirir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Hava əsasən yağmursuz keçəcək

Azərbaycanda dekabrın 12-nə gözlənilən hava proqnozu açıqlanıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun gecə 6-9, gündüz 10-13 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 70-75 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin bəzi şərq rayonlarında arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7, gündüz 9-14 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacağı bildirilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 0-5 dərəcə şaxta, gündüz 7-10 dərəcə isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə yağıntılı olacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti olacağı ehtimal edilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti olacağı ehtimalı var.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-5, gündüz 9-12 dərəcə isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Lakin şərq rayonlarında arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1-5, gündüz 6-10 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 3-8 dərəcə isti olacağı bildirilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalanın bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7, gündüz 9-14 dərəcə isti olacağı proqnozlaşdırılır.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadın bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 5-8, gündüz 9-11, dağlarda gecə 0-3, gündüz 5-8 dərəcə isti olacaq.

**Ekologiya**

# Əriyən buzlaqlar - dağların "göz yaşı"

## Bu "göz yaşı"nı saxlamaq üçün mütəxəssislər nə təklif edirlər

**Son zamanlar qlobal iqlim dəyişmələrinin təsiri dünyanın bütün bölgələrində olduğu kimi, Azərbaycanda da aydın sezilməyə başlayıb. Ölkəmizin dağlıq ərazilərində qar örtüyünün daha tez əriməsi, buzlaqların sürətlə kiçilməsi təbii proseslərin dəyişməsi və gələcək ekoloji faciələrin anonsudur. Yüz illərlə formalaşmış dağ buzlaqları indi insan fəaliyyəti və qlobal istiləşmə nəticəsində gözləniləndən daha sürətlə yox olur.**



Bu proses təbiətin balansını pozmaqla yanaşı, kənd təsərrüfatının su təminatından tutmuş enerji istehsalına, hətta dağ kəndlərinin yaşayış təhlükəsizliyinə qədər sosial-iqtisadi həyatın müxtəlif sahələrinə də təsir göstərir. Elə buna görə də alimlər və ekoloqlar buzlaqların əriməsini artıq sadəcə təbii hadisə kimi deyil, potensial ekoloji fəlakət kimi qiymətləndirirlər. Məsələ ondadır ki, bu dəyişikliklər zamanla dərinləşdikcə nəinki indiki, hətta gələcək nəsillərin həyatını şübhə altına alır.

Qar və buzlaqlar məlum olduğu kimi, dağ çaylarının qida mənbəyini təşkil edir. Yüksək zirvələrdən başlayan dağ çayları geniş əraziləri su ilə təmin edir. Ona görə də bu çaylar illər boyu ölkənin su balansında mühüm rol oynayıb, kənd təsərrüfatı, sənaye və içməli su təminatının dayanıqlılığını qoruyub. Lakin son onilliklərdə dağlardakı ərimə prosesi çayların rejimini tamamilə dəyişib və uzun illər qorunan tarazlığı pozub. Amma bu da hələ hamısı deyil. Ərimiş qar və buz kütlələri torpağı boşaldır, yamacların sabitliyini zəiflədir, sel, daşqın, torpaq sürüşməsi kimi hadisələrin başvermə ehtimalını artırır. Bu gün dağ kəndlərinin sakinləri üçün bu hadisələr artıq birdəfəlik ekstremal haldan çox, ardıcıl və çətin proqnozlaşdırılan təhlükəyə çevrilir. İyulun sonu, avqustun əvvəlləri Azərbaycanın yüksək dağlıq zonalarında sanki təbiətin nəbzi sürətlə vurmağa başlayır.

Havanın kəskin istiləşməsi ilə birlikdə buzlaqlarda ərimə prosesi güclənir. İlk baxışda sakit görünən, amma nəticələri ağır olan proses buzlaqların sahəsini və həcmini tədricən kiçildir ki, bu da ölkənin ən qiymətli sərvəti olan şirin su ehtiyatlarının azalmasına gətirib çıxarır. Buzlaqların əriməsi hər zaman kütləvi sel və ya fəlakətli daşqınlarla müşayiət olunmasa da, çaylarda nəzərəçarpan dəyişiklik yaradır. Şahnabadçay və Mahmuddərəçay kimi buzlaq mənşəli çaylar Qusarçayın, Xınalıqçay isə Qudyalçayın yuxarı qollarını təşkil edir. Bu çaylarda axının gücü ilin istənilən fəslində digərlərinə nisbətən daha yüksək olur. Çünki onların mənbəyi dağ zirvələrinin əbədi qar örtüyünə bağlıdır. Ancaq indi həmin "əbədiyyət" anlayışı sual altındadır. Bu gün biz çaylarda suyun artdığını görürüksə, sabah həmin çayların qida mənbəyinin azaldığını hiss edə bilərik. Və bu yalnız təbiətin deyil, bütövlükdə regionun sosial-iqtisadi həyatının gələcəyi üçün xəbərdarlıq siqnalıdır.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi (ADSEA) yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidmətinin (SİMDNX) nümayəndəsi Vasif Yəhyayev deyir ki, bu proseslər qar örtüyünün çoxluğuna görə proqnozlarda qabaqcadan təyin edilə bilir: "Bununla yanaşı, qar ehtiyatlarının əriməsi zamanı çaylarda olan bol su ehtiyatını anbarlarda toplayaraq yayda - azsulu dövrdə istifadə etmək mümkündür. Buzlaqların əriməsində isə vəziyyət bir az fərqlidir. Çünki buzlaqlar yağan qarların üst-üstə sıxılaraq 100 illərlə davam edən prosesi nəticəsində yaranır. Əriməsi isə daha tez bir zamanda baş verir. Son dövrlərdə qlobal istiləşmə nəticəsində daha da intensivləşib".

Anbarlarda su toplayıb saxlamaq təbiətin bizə verdiyi müvəqqəti, amma idarəoluna bilən bir üstünlükdür. Çünki yaz və yay aylarında çaylara axan suyun bir hissəsi təbii olaraq boşa axır, halbuki anbarlar həmin "artıq" suyun strateji ehtiyata çevrilməsinə imkan verə bilərdi. Bu yerdə qeyd edək ki, suyun anbarlarda toplanması, sadəcə, texniki tədbir deyil, bu, həm də ölkənin su təhlükəsizliyinin əsas sütunlarından biridir. Həmin ehtiyat düzgün idarə olunarsa, davamlı və sabit su dövriyyəsi yaratmaq mümkündür. Təcrübə göstərir ki, suyun anbarlarda saxlanılması quraqlıqla mübarizədə, kənd təsərrüfatının məhsuldarlığında, eləcə də əhalinin rahat və etibarlı su təminatında həlledici rol oynayır.

Ancaq bütün bu tədbirlərin uğurla başa çatması üçün bir mühüm amil var: qar və buz ehtiyatlarının ildən-ilə nə qədər dəyişdiyini dəqiq bilmək. Bunun üçün ilk növbədə ölkənin dağlıq ərazilərində qar və buz ehtiyatlarının dəqiq qiymətləndirilməsi vacibdir. Elə buna görə də hər il yüksək dağlıq ərazilərdə qar və buz ehtiyatlarının tədqiqi üzrə qiymətləndirmə işləri həyata keçirilir. Azərbaycanda buz-su ehtiyatlarının dəqiq qiymətləndirilməsi məqsədilə hər ilin avqust ayında Böyük Qafqazın Tufandağ zirvəsinə elmi-tədqiqat ekspedisiyaları təşkil edilir. Vasif Yəhyayev deyir ki, Qusarçay hövzəsində yerləşən buzlaqların öyrənilməsi üçün ADSEA yanında SİMDNX ilə Milli Hidrometeorologiya Xidməti son dəfə 2025-ci il avqustun 18-23-də birgə ekspedisiya həyata keçirib. Ekspedisiya zamanı buzlaqların yerləşdiyi dərələrin ümumi təsviri aparılıb, dağ silsilələrinin və yamacların xüsusiyyətləri araşdırılıb. Buzlaqların tipi, mövqeyi, istiqaməti, dərinliyi və yamacların dikliyi kimi göstəricilər qeydə alınıb. Eyni zamanda buzlaq səthinin relyefi, çatların forması, istiqaməti və ölçüləri müəyyənləşdirilib. Tədqiqatlar çərçivəsində buzlaq üzərindəki moren örtüyünün vəziyyəti, buzlaq dilinin strukturu və dəyişmə dinamikası da qiymətləndirilib.

Təbii ki, buzlaqların əriməsi ekoloji problemdir, iqlim dəyişmələrinin "məhsul"udur. Buzlaqlar illər boyu min bir çətinliklə formalaşan təbii sərvətdir. Təəssüf ki, bu gün həmin sərvəti qoruyub saxlaya bilmirik. Ona görə də buzlaqların ərimə prosesinin davamlı olaraq monitorinqini aparmaq lazımdır. Bu tədqiqatlar təkcə dəyişikliklərin səbəbini öyrənməyə yox, həm də gələcək su ehtiyatlarının düzgün planlaşdırılmasına imkan verə bilər. Eyni zamanda suların anbarlarda toplanması itkilərin müəyyən qədər kompensasiyasını təmin edə, yay aylarında su qıtlığını azalda və su təhlükəsizliyini möhkəmləndirər. Bu tədbirlər görülməzsə, buzlaqların itməsi təkcə təbiətin deyil, həm də cəmiyyətin dayanıqlılığı üçün ciddi təhdidə çevrilər.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi
**ELMAN HƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzərEnerji" ASC-nin rəhbərliyi və kollektivi Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi
**ELMAN HƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi
**ELMAN HƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi
**ELMAN HƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Vüqar Müsəllimova qardaşı
**MƏHYƏDDİN MÜSƏLLİMOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Ceyhun Qələndərova atası
**NAZİM QƏLƏNDƏROVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mirhaşim Calalov və Mirhüseyn Hüseynov Arifə Sədaqət qızı Məmmədovaya əzizi
**SƏRDAR MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqının İdarə Heyəti üzvləri Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi
**ELMAN HƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi
**ELMAN HƏSƏNOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4131
Sifariş 2500

Qiyməti 60 qəpik